QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 200 (8516) CÜMƏ AXŞAMI, 1 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan əsgəri, Azərbaycan zabiti vətəndaşlıq borcunu şərəflə yerinə yetirir

**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər. AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.**
**Dövlət başçısı görüşdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

- Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.

Bildiyiniz kimi, şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir.

Eyni zamanda Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

*Ardı 2-ci səh.*

## Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozdu

Sentyabrın 30-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edib və münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirib.

Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı törətdiyi və bu gün də davam edən növbəti hərbi təxribatı ilə bağlı vəziyyət barədə məlumat verərək qeyd edib ki, sentyabrın 27-də Ermənistan tərəfinin qoşunların təmas xətti boyu yaşayış məntəqələrimizi, hərbi birləşmələrimizin mövqelərini ağır artilleriya qurğularından atəşə tutması nəticəsində 14 mülki şəxsimiz və hərbi qulluqçularımız həlak olublar. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Ordusu buna cavab olaraq əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Belə ki, Ermənistan baş nazirinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və Minsk qrupunun rəhbərliyi də bunu bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır, hərbi cinayətdir. Prezident İlham Əliyev bildirib ki, Ermənistan baş naziri hələ sentyabrın 27-si hərbi toqquşmalar baş verməzdən əvvəl on minlərlə könüllüdən ibarət hərbi birləşmələrin yaradılması barədə qərar vermişdi. Bu, Ermənistanın növbəti təcavüzə hazırlaşması mənası daşıyırdı.

Dövlətimizin başçısı Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

***Prezidentin Mətbuat Xidməti***

## Diplomatiya məharətinin zirvəsi

### Prezident İlham Əliyev Paşinyanın yalanlarını da, özünü də ifşa etdi

**Ermənistan hakimiyyətinin təcavüzkar və faşist-diktatura mahiyyəti dünya üçün getdikcə daha aydın şəkildə açılır, Azərbaycan diplomatiyasının ədalətli və beynəlxalq hüquqa söykənən mövqeyi işğalçını təklənmiş vəziyyətə salır.**

Ölkəmiz üçün önəmli və taleyüklü bir dövrdə Rusiyanın "Rossiya 1" telekanalına müsahibə verərək təxribat nəticəsində başlanmış müharibə haqqında həqiqətləri böyük auditoriyaya çatdıran Prezident İlham Əliyev bir daha Ermənistanın işğalçılıq və təcavüzkarlıq siyasəti haqqında Rusiya ictimaiyyətini geniş şəkildə məlumatlandırdı.

### Ermənistan dinc əhaliyə qarşı müharibəyə başlayıb

Rusiyalı jurnalistlərin suallarını ətraflı şəkildə, dəqiq detallara toxunmaqla cavablandıran cənab İlham Əliyev cəbhədə vəziyyətin gərgin olaraq qaldığını söylədi və hər zaman olduğu kimi, bu dəfə də Ermənistanın dinc əhaliyə qarşı müharibə apardığını, əsas hədəfinin yaşayış məntəqələri, mülki əhali olduğunu bildirdi.

*Ardı 11-ci səh.*

## Qarabağdan ermənilərin böyük köçü başlayır

### Ermənistan ictimaiyyəti, mətbuatı və ekspertləri tədricən Azərbaycana məğlub olduqlarını etiraf edirlər

**Cəbhədə davam edən hərbi əməliyyatlar bir daha Ermənistanın güclü Azərbaycan Ordusu qarşısında duruş gətirməkdə aciz olduğunu əyani şəkildə üzə çıxarmaqdadır.**

Son döyüşlər erməni tərəfinin çoxsaylı itkilərə məruz qalması, işğal altındakı müəyyən əraziləri tərk etməsi ilə nəticələnir. Əvvəllər ermənilər bu barədə çaşdırıcı məlumatlar yaysalar da, indi vəziyyətin ağırlığını etiraf edənlər də var. Hazırda bəzi erməni media orqanları hadisələrin gedişinin onların lehinə olmadığını etiraf etməkdən belə çəkinmir.

*Ardı 9-cu səh.*







## Həm də... uşaq qatilləri

### Körpəyə vəhşi heyvanlar belə toxunmur

**Arxadan zərbə vurmaq namərd işidir, qocaya, qadına əl qaldırmaq ondan da betərlərinin törətdiyi əməl. Uşaq qatili olmaq isə... Bu vəhşiliyin adı yoxdur!**

Məlum olduğu kimi, bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində bütöv bir ailə həlak olub. Bu ailədə iki balamız, iki məktəb yaşlı uşaq qətlə yetirilib - Şəhriyar Qurbanov və Fidan Qurbanova. Əmioğlu-əmiqızıdırlar. Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbində təhsil alırdılar.

*Ardı 10-cu səh.*

## Haqq yolu ilə



**Xalqımızın illərdən bəridir ki, gözlədiyi böyük günlər gəlib yetişdi. Müzəffər Ordumuzun işğal edilmiş torpaqlarımızın azadlığına doğru zəfər yürüşü başlandı. Əslində, bu qürur dolu günlərə aparan yol hələ Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin Aprel döyüşlərində özünü göstərmişdi.**

Uğurlu əməliyyatla düşmənə sarsıdıcı zərbə vuraraq ərazimizin bir hissəsini, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini tam azad edən əsgər və zabitlərimiz hələ o zaman irəlidə bizi gözləyən daha şanlı qələbələrin müjdəsini vermişdilər. Budur, Azərbaycan bir neçə gündür ki, intizarla gözlədiyimiz daha böyük zəfərin sevincini yaşayır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun yazdığı möhtəşəm tarixin qüruru köksümüzə sığmır.

*Ardı 11-ci səh.*

# Düşmənin 2300 nəfər canlı qüvvəsi, 468 döyüş texnikası, 6 komanda-idarəetmə məntəqəsi, 5 silah-sursat anbarı məhv edilib

# Azərbaycan əsgəri, Azərbaycan zabiti vətəndaşlıq borcunu şərəflə yerinə yetirir











*Əvvəli 1-ci səh.*

Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur, kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir.

Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş həbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtim qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Hələ ki gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. Bilirsiniz, danışıqlarla məşğul olan beynəlxalq format var. Əfsuslar olsun ki, bu format heç bir nəticə hasil etməyib. Ona görə indiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırış hesab edirəm ki, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa, düşmənin? Həqiqət anıdır-mənim üçün, xalqımız üçün, hamımız üçün.

Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq. Bilirsiniz ki, Azərbaycan dünyada güclü mövqelərə malikdir. Son illər ərzində biz beynəlxalq təşkilatlarda kifayət qədər səmərəli fəaliyyət göstərmişik və haqlı olduğumuzu sübut edə bilmişik. Biz bunu sübut etməli idik ki, biz haqlıyıq. Artıq demək olar ki, bütün əsas beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT - bütün bu təşkilatlar bizim mövqeyimizi dəstəkləyən bəyanatlar veriblər. Biz buna görə minnətdarıq. Bu, məsələnin hüquqi tərəfidir. Tarixi tərəfinə gəldikdə isə, tarixi həqiqət bizim tərəfimizdədir. Hər kəs internetə girib oxuya bilər. Qarabağ xanlığının tarixi ilə əlaqədar materiallar var. Qarabağ xanlığının Rusiya imperiyasına daxil edilməsi ilə əlaqədar məlumatlar var. Kürəkçay sülh müqaviləsi haqqında məlumatlar var. Kürəkçay sülh müqaviləsini bir tərəfdən bağlayan İbrahim Xəlil Xan şuşalı və qarabağlı, - müqavilədə belə də yazılmışdır, - şuşalı və qarabağlı İbrahim Xəlil Xan. Digər tərəfdən çar Rusiyasının generalı imzalamışdır. Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlimə də yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, o vaxt orada erməni əhalisi olmayıb, ondan sonra köçürülüb. Ondan sonra onlar artıq orada yerləşiblər və sonra bizə qarşı ərazi iddiaları qaldırıblar. Ona görə biz tamamilə haqlıyıq. Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.

Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə, bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə, həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı “Vətən sağ olsun” deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Mayor **Etibar CAMALOV:** Cənab Ali Baş Komandan, cənab Prezident, çox sağ olun. Həqiqətən də, Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi. Bu gün də hər bir insan yenə ön xəttə qayıtmağa hazırdır. Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Hər zaman torpağımız, dövlətimiz üçün şam kimi yanmağa hazırıq. Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq. Çox sağ olun.

# “Cənab Prezident, Vətənlə fəxr etdiyimizi, liderimizlə qürur duyduğumuzu söyləyən anlarda keçirdiyimiz hisslər Sizin sayənizdədir”

**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımız tərəfindən böyük sevinclə və ruh-yüksəkliyi ilə qarşılanır. Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları bu müvəffəqiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları yazırlar.**



AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Ucar rayonundan məcburi köçkün, II qrup Qarabağ müharibəsi əlili **Tələt Əmirov** yazır: “Hörmətli cənab Prezident, Ulu Öndərimiz Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan Sizin rəhbərliyinizlə Qələbəyə doğru inamla addımlayır. Ucar rayonunda məskunlaşmış məcburi köçkünlər Ordumuzun hər nailiyyətinə ürəkdən sevinirlər. Artıq böyük köçə, doğma yurdlarımıza qayıtmağa hazırıq. Əziz Prezidentimiz, biz məcburi köçkünlər daim Sizinləyik, bütün qərarlarınızı dəstəkləyirik. İnşallah, Sizinlə qayıdıb abadlaşdıracağımız doğma torpaqlarda görüşərik”.

Füzuli rayonunun Qayıdış-1 qəsəbəsindən **Ramil İsmayılov,** Tehran Heydərov və Tariyel İbişov yazırlar: “Hörmətli cənab Prezident, uğurlarımız böyükdür, ordumuz qalibdir. Böyük Qələbə, bayrağımızın Şuşada dalğalanacağı gün uzaqda deyil. Biz Qayıdış qəsəbəsində məskunlaşmışıq. Füzuli rayonunun kəndlərinin, o cümlədən kənd Horadizin azad edilməsi hamımızın böyük sevincinə səbəb oldu. Bizə bu sevinci yaşatdığınıza görə Sizə və şanlı Ordumuza minnətdarıq. Füzulililər fərəh və qürur içindədirlər. Allah Sizi qorusun. Yaşasın, qalib Azərbaycan!”

Bakı şəhərindən professor, Əməkdar müəllim **Musa Quliyevin** məktubunda deyilir: “Möhtərəm Prezidentimiz, cənab Ali Baş Komandan, Milli Ordumuza azadlıq mübarizəsinə başlamaq əmri verdiyinizə görə Sizə təşəkkür edirəm. Şanlı Ordumuzun iki gün ərzində qazandığı uğurlara görə Sizi qəlbən təbrik edirəm. Müharibənin ilk günündən Sizin qətiyyətiniz, mahir komandanlıq istedadınız bütün türk dünyasını valeh edib. Bizim apardığımız müharibə ədalətli müharibədir, torpaqlarımızı tezliklə yağı düşməni tapdağından azad edəcəyik. Cənab Prezident, Azərbaycan xalqı, o cümlədən alimləri, ziyalıları daim Sizinlədirlər. Qarabağ Azərbaycandır! Tanrı Sizə, xalqımıza, dövlətimizə və ordumuza yar olsun”.

Bakı şəhərinin sakini **Mehran Hematyardan:** “Hörmətli cənab Prezident, Sizi ilk qələbə xəbərləri münasibətilə təbrik edirəm. Mən əslən Cənubi Azərbaycandanam. Həyat yoldaşım Azərbaycan vətəndaşıdır. Bakıda yaşayan ailəmiz bir əsgər böyüdür. Ailəlikcə hamımız canımızı Azərbaycan yolunda fəda etməyə hazırıq. Hamımız Sizin arxanızdayıq. Allah Sizi qorusun. İnşallah, Sizin rəhbərliyinizlə işğala son qoyulacaq. Yaşasın, Azərbaycan!”

Abşeron rayonunun Masazır qəsəbəsindən Mirnihad Həşimov yazır: “Hörmətli cənab Prezident, Sizin komandanlığınızla qısa müddət ərzində əldə olunan uğurlar hər bir vətəndaş kimi məni də çox qürurlandırdı. Otuz illik Qarabağ həsrətinə son qoymaq üçün gördüyünüz işlər tarix dərsliklərində əsrlər boyu öyrəniləcək. Möhtərəm Ali Baş Komandan, Sizi daim dəstəkləyir və zati-alinizə dərin minnətdarlığımızı bildiririk. Var olun, cənab Prezident!”

Bakının Qaradağ rayonundan **Bahar Quliyeva** yazır: “Cənab Ali Baş Komandan, ilk növbədə, bizə bu günlərdə yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə və şanlı Ordumuza təşəkkürümü bildirirəm. İllərdir görmədiyimiz, atalarımızın, babalarımızın haqqında həsrətlə danışdıqları torpaqlarımıza bir addım da yaxınlaşdığımızı hiss etmək bizi o qədər xoşbəxt edir ki, biz “Budur, Azərbaycanın şanlı Ordusunun gücü!” deyir və qələbəyə daha da ürəkdən inanırıq. Sizin dəfələrlə xəbərdarlığınıza baxmayaraq, mənfur qonşularımız atəşkəsi pozmaqdan, mülki vətəndaşlarımızı öldürməkdən çəkinmədilər. Ordumuzun düşmənin ön xəttini bir neçə saata darmadağın etməsi göstərdi ki, bizim üçün işğalçıları torpaqlarımızdan təmizləmək çox asandır. Bu haqq yolunda Sizə və şanlı Ordumuza uğurlar arzu edir, dualarımızın Sizinlə olduğunu bildirirəm. Lazım olarsa, mən də son damla qanımadək Vətən yolunda, torpaq yolunda döyüşməyə hazıram. Azərbaycan gəncliyi Sizin yanınızdadır, cənab Ali Baş Komandan, baxmayaraq ki, bu məktubu Sizə Bakıdan yazıram, əminəm, tezliklə doğma Qarabağdan - Xocalıdan yazacağam”.

Bakının Səbail rayonundan **Lətif Səmədov:** “Hörmətli cənab Prezident, bu, mənim Sizə ilk məktubumdur. Həyəcandan necə başlayacağımı bilməsəm də, nə yazmaq istədiyimi dəqiq bilirəm. Son iki gündə böyük fərəh hissi yaşayıram. Azərbaycanlı olmağımdan və Sizin kimi qətiyyətli Prezidentimizin olmasına görə qürur hissi duyuram. Əminəm ki, çoxsaylı təşəkkür məktubu alırsınız. Mən də bu məktubumla xalqımız üçün gördüyünüz işlərə görə Sizə təşəkkür etməyi özümə borc bilirəm. Vətənlə fəxr etdiyimizi, liderimizlə qürur duyduğumuzu, şərəflə azərbaycanlı olduğumuzu söyləyən anlarda keçirdiyimiz hisslər Sizin sayənizdədir. Xalqımız inanırdı ki, gün gələcək və hər şey həqiqətən də yaxşı olacaq. Həmin gün yaxındadır. Çox sağ olun, cənab Prezident. Bu gün Azərbaycan beynəlxalq arenada öz sözünü deyən ölkədir. Əminəm ki, yaxın gələcəkdə torpaqlarımızı işğaldan azad edəcək, Azərbaycan bir cənnət parçası olacaq, hamımız Vətənimizdə başıuca, qürurla gəzəcəyik”.

Binəqədi rayonundan **İsmayıl Gülverdiyev, Elşən Hüseynov** və **İsmayıl Adıgözəlov** yazırlar: “Hörmətli cənab Prezident, əminik ki, Sizin rəhbərliyinizlə Qarabağımız qısa müddət ərzində işğaldan azad olunacaq. Ya Qarabağ, ya ölüm! Bizim başqa yolumuz yoxdur. Artıq illərlə gözlədiyimiz gün gəlib çatıb. Biz Sizə inanırıq. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunu formalaşdırdı. Həmin siyasət və güclü ordu ilə yaxın gələcəkdə torpaqlarımızı azad edəcəyik. Bu günü bizə yaşatdığınıza görə Sizə təşəkkür edir, Sizinlə fəxr edirik. Yaşasın, Azərbaycan Ordusu! Var olsun, cənab Ali Baş Komandan!”

Bakı şəhərindən Əməkdar elm xadimi, professor **Vaqif Şadlinski:** “Möhtərəm cənab Prezident, xalqımızın, hər bir sadə vətəndaşın ürəyi bu tarixi günlərdə fəxrlə döyünür, hər birimiz televiziya ekranlarının qarşısında qürurla zəfər sorağındayıq. Mənfur düşmənlərimiz özləri insaniyyətə zidd ideologiyalarının qurbanına çevrilərək silahımızın gücü qarşısında aciz qalıblar.

Azərbaycanımızın Sizin müdrik rəhbərliyiniz sayəsində əldə etdiyi qələbələr, ölkəmizin dünya arenasında artan nüfuzu, gənclərin Vətənə sədaqət, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunması erməni-faşist rejiminin gününü qara edib. Əziz Prezidentimiz, Siz Azərbaycanı alınmaz qalaya, şanlı Ordumuzu yenilməz qüvvəyə çevirmisiniz. Düşmən məhv edilir, qaçır. Azərbaycan əsgəri müqəddəs andına sadiq qalaraq torpağımızı azad edir. Biz qələbəni gözləyirdik, cənab Prezident! Bu qələbə sevincini bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan həkimləri və müəllimləri Sizin müsəlləh əsgərlərinizdir. Ali Baş Komandanımızın bizi tam qələbəyə çatdıracağına tamamilə əminik. Biz həmişə sizinləyik”.

Zaqatala rayonunun dindarları adından **Malik Bilalov** və **Rasim Musayev** yazırlar: “Cənab Prezident, son zamanlar ölkəmizdə pandemiya və müharibə ilə bağlı verdiyiniz qərarlar, gördüyünüz tədbirlər və yürütdüyünüz uğurlu siyasətiniz sayəsində xalqımızda ruh yüksəkliyi yaratdığınız üçün Sizə təşəkkürümüzü bildiririk. Şübhə yoxdur ki, işğal altında olan torpaqlarımız da Sizin siyasətiniz, ordumuzun gücü və xalqımızın dəstəyi sayəsində erməni təcavüzkarlarının tapdağından azad olunacaq. Qələbə Azərbaycanındır”.

Zaqatala rayonunun daha bir sakini **Sona Qazıyeva:** “Möhtərəm cənab Prezident, bütün Azərbaycan xalqı kimi, biz ağbirçək analar da ermənilərin Vətənimizin torpaqlarının işğalını, xalqımıza qarşı soyqırımı siyasətini davam etdirməsinə bu gün də şahidik və bu hadisələri ürək ağrısı ilə izləyirik, düşmənə qarşı nifrətimiz daha da artır. Biz analar övlad itkisinin ağırlığını daha çox hiss edirik. Lakin yaxşı başa düşürük ki, Vətən itkisi bundan da dəhşətlidir. Odur ki, bu gün övladlarımızın ərazi bütövlüyümüzü bərpa edərək gələcək nəsillərə-nəvələrimizə miras qoymasını müqəddəs and və borc hesab edirik. Bu gün müstəqilliyimizin qorunması, torpaqlarımızın düşməndən azad edilməsi uğrunda bütün xalqımız kimi, biz ağbirçək analar da ölüm-dirim mübarizəsinə qoşulmağa hazırıq. Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi Sizinlə fəxr edirik. Biz hamımız yaxşı başa düşürük ki, Sizin xalqa arxalanaraq yenilməz siyasi iradəniz, rəhbər qətiyyətiniz, zəngin idarəetmə təcrübəniz, dünyada gedən proseslərə dərindən bələd olmağınız, baş verən hadisələrin səbəblərinin təhlili zamanı yüksək məharət və bacarığınız, qurduğunuz güclü Azərbaycan Ordusunun fəaliyyəti sayəsində torpaqlarımız tamamilə və tezliklə düşmən tapdağından azad ediləcək. Əziz Prezidentimiz, Ali Baş Komandan, biz Sizə inanırıq, Sizinlə birlikdəyik. Allah Sizi, xalqımızı və Ordumuzu qorusun”.

Qubanın Amsar kəndindən **Elmin Sərdarlı:** “Cənab Ali Baş Komandan İlham Əliyev, Sizinlə qürur duyuram. Azərbaycan xalqı Sizinlə qürur duyur, Sizin düzgün siyasətinizi alqışlayır. Mən gələcəyin jurnalisti kimi söz verir və and içirəm ki, Azərbaycanı xarici ölkələrdə tanıdacağam. Qürurla deyəcəyəm ki, “Mən fəxr edirəm ki, güclü, vüqarlı, şanlı Vətənim Azərbaycanın övladıyam. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”

Bakının Binəqədi rayonundan **Gülnarə Şəmmədova:** “Cənab Prezidentimiz İlham Əliyev, əvvəla, hər zaman xalqımızın yanında olduğunuz üçün Sizə sonsuz dərin təşəkkürümü bildirirəm. Bu gün isə Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizə apardığınız üçün Sizə minnətdaram. Artıq üç gündür ki, böyük addımlarla zəfərə doğru gedirik. Əminik ki, Azərbaycan Ordusu daha da irəli gedəcək. Çünki artıq gücümüzlə dünyaya səs salmışıq. İnşallah, Qələbə bizimdir, Qarabağ bizimdir. Allahdan Sizə səbir, dözüm, daha təmkinli olmağı diləyirəm. Bütün Azərbaycan xalqına, xüsusən də bu gün səngərdə vuruşan igidlərimizə Ulu Tanrıdan cansağlığı, möhkəm olmağı, içlərindəki Vətən sevgisinin daha da artmasını diləyirəm. Cənab Prezident, biz Sizinləyik. Hər bir vətəndaş əmindir ki, bizim zəfərə sayılı günlərimiz qalıb. Çünki bizim güclü ordumuz, qorxmaz millətimiz var. Qarabağ Azərbaycandır, Qarabağ bizimdir!”

İmişlinin Mirili kəndindən **Aqşin Mürsəlov:** “Hörmətli cənab Prezident, bu gün Azərbaycan xalqı, Azərbaycan Ordusu vahid məqsəd, ümummilli hədəflər uğrunda mübarizədə Sizin ətrafınızda sıx birləşib. Bu birlik sayəsində Azərbaycan Ordusu mənfur düşmən üzərində qətiyyətli və tam qələbə ilə zəfər çalacaq. Bu haqq yolunda canımızla, qanımızla əmrinizdəyik. Allah Sizi qorusun, Ordumuza kömək olsun. Qələbə xalqımızın haqqıdır”.

Bakının Yasamal rayonundan **Samir İsmayılov:** “Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, Sizin qətiyyətiniz cəbhədə qazanılan və qazanılacaq zəfərlərin təminatıdır. Vətənin müdafiəsi naminə gördüyünüz işlərdə xalqımızın hər bir üzvü Sizin arxanızdadır. Vətənin hər bir qarışından ötrü canımızdan keçməyə belə hazırıq. Sizinlə qürur duyuram. Bu günləri bizə nəsib edən Allahdan Sizə cansağlığı, başladığınız işi zəfərlə başa çatdırmağı arzulayıram. Mən fəxr edirəm ki, azərbaycanlıyam!”

Binəqədi rayonundan dosent **Nigar Zeynalova** yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, ilk növbədə, bizlərə sevinc dolu günlər yaşatdığınız üçün çoxsaylı təhsil işçiləri, bütün Azərbaycan xalqı adından Sizə dərin təşəkkürümü bildirirəm. Rəşadətli Ordumuzun hazırkı zəfər yürüşü Sizin müdrik siyasətinizin, gərgin əməyinizin məntiqi nəticəsidir. Sizin adınız Azərbaycanın görkəmli sərkərdələri sırasına qızıl hərflərlə yazılacaq. Hər zaman olduğu kimi, indi də Sizə güvənir, Sizinlə qürur duyuruq. Bu çətin günlərdə ordumuza əlimizdən gələn köməyi etmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Bu gün Azərbaycan Sizin sayənizdə güclü, müasir silahsursatla təchiz olunmuş orduya malikdir. İnşallah, azad edilən ərazilərdə böyük quruculuq işlərinə başlanacaqdır. Biz həmin işlərin də öhdəsindən birlikdə gələcək, Qarabağı çiçəkləndirəcəyik”.

Tərtər rayonunun Bəyimsarov kəndindən **Anar Rüstəmov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuz düşmən üzərində üstünlük qazanmaqda davam edir. Biz əminik ki, ordumuz tezliklə işğal altında olan torpaqlarımızı işğalçılardan təmizləyəcək və xalqımız Qarabağda, Şuşada öz milli bayramlarını qeyd edəcək. Cənab Ali Baş Komandan, qəhrəman Tərtər gənci olaraq hər an döyüşə qatılmağa hazıram”.

Bakının Nərimanov rayonundan **Elnur Qurbanov:** “Hörmətli cənab Prezident, Sizin hər bir qərarınız xalqımızın gələcəyi, firavan həyatı, xoş günləri üçün qəbul edilir. Koronavirus pandemiyasına qarşı görülən tədbirlər Azərbaycanı bu bəladan ən az itkilərlə qurtulan ölkələr siyahısına saldı. Buna görə də xalqımız qəbul etdiyiniz hər bir qərarı alqışlayır. Cənab Ali Baş Komandan, Təhlükəsizlik Şurasının son iclasındakı çıxışınızı dinləyərkən ürəyim dağa döndü, qələbə müjdələri gözlərimi sevinc göz yaşları ilə doldurdu. Cənab Prezident, cəbhəyə yollanmaq üçün əmrinizi səbirsizliklə gözləyirəm. Sizə sevgim, güvənim sonsuzdur. Bizə yaşatdığınız sevincə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Məktubumu hamımızın şüarına çevrilmiş sözlərinizlə bitirmək istəyirəm: “Qarabağ Azərbaycandır!”

Türkiyənin Ankara şəhərindən **İbrahim Uluer** dövlətimizin başçısına yazır: “Hörmətli cənab Prezident, mən Türkiyə vətəndaşı, şəhid qardaşı olaraq Azərbaycanı şərəfli mübarizəsində dəstəklədiyimi bildirirəm. Ölkəmin terrorla mübarizəsində iştirak etdiyimi, terrorla məşğul olan işğalçıların dinc əhalini rahat yaşamağa qoymadığını yaxşı bilirəm. Mənim üçün Türkiyə də, Azərbaycan da vətəndir. Vətənimin hər qarışı mənim üçün müqəddəsdir. Şanlı qələbənizin qazanılması üçün irəlilədiyiniz yolda Sizinlə birlikdə addımlamaq mənim üçün şərəf olardı. Can Azərbaycana uğurlar arzulayıram”.

Ankara şəhərindən **Caner Sarsılmaz:** “Hörmətli cənab Prezident, Ermənistanın işğalı altında olan bir neçə kəndin düşməndən azad edilməsi münasibətilə Sizi təbrik edir, bu yolda şəhid olanlara görə başsağlığı verir, heç nəyin Azərbaycan xalqının əzmini qıra bilməyəcəyinə əmin olduğumuzu bildirirəm. Mən də Qələbə yolunda irəliləyən əsgərlərinizlə birlikdə addımlamağa, qardaşlarımla çiyin-çiyinə döyüşməyi istəyirəm və Azərbaycanın haqq işində son damla qanıma qədər mübarizə aparmağa hazıram”.

Atakum şəhərindən **İnan Güvən:** “Hörmətli cənab Prezident, Ermənistanın işğalçı siyasətinə görə üzləşdiyiniz müharibə vəziyyətinə görə narahatlıq keçirsək də, Qələbənin mütləq Sizinlə olacağına inanırıq. Azərbaycana gələn bəla bizə də gəlmiş sayılır. Buna görə də hər bir türk bütün imkanları ilə Sizinlə birlikdə olduğunu bildirir. Mən də onlardan biriyəm. Türkiyə-Azərbaycan qardaşlığı əbədi davam edəcəkdir. Sizə dəyən zərərin bizə dəydiyini düşünərək, hər zaman döyüşə hazırıq. Biz də Sizin əmrinizdəyik”.

Malatya şəhərindən **Öterkuş Mustafa:** “Hörmətli cənab Prezident, mən könüllü olaraq cəbhədəki azərbaycanlı qardaşlarımla birlikdə vuruşmağa hazıram. Sizin yolunuz haqq yoludur və bu yolda olmaq hər bir türk üçün böyük şərəfdir. Sizə Qələbə arzulayıram, cənab Prezident!”

Türkiyə Memur-Sen Həmkarlar Təşkilatının sədri **Ali Yalçın** yazır: “Hörmətli cənab Prezident, tarixi keçmişdən bu günədək daim Ermənistanın təcavüzkarlığının Azərbaycan dövlətinə və xalqına təhlükə törətdiyini görürük. Erməni terroruna və işğalına qarşı mübarizədə irəli sürdüyünüz qətiyyət şübhəsiz ki, təqdirəlayiqdir. Başda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla türk xalqı, o cümlədən rəhbərlik etdiyim qurum daim Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Azərbaycanın ərazi bütövlüyünü pozaraq işğalçılıq siyasətini davam etdirən Ermənistanın iç üzünü göstərmək, beynəlxalq qurumlara, təşkilatlara həqiqəti çatdırmaq üçün səylərimizi əsirgəmədik. Ortaq tariximiz, ortaq inancımız və ortaq irədəmiz üzərində birlikdə qurduğumuz “bir millət, iki dövlət” konsepsiyası ilə ortaq varlığımız var. Azərbaycan müstəqilliyini qorumalı və yaşatmalı olan qardaş ölkədir. Allah bu mübarək səfərdə Sizə kömək olsun!”

Bursa şəhərindən **Ramazan Mutlu:** “Hörmətli cənab Prezident, Ermənilərin Azərbaycana qarşı təcavüzünü görüb sakit dayana bilmirik. Bizə də şərait yaradın, Qarabağ uğrunda biz də vuruşaq. Bu erməni cəlladları neçə illərdir türkə düşmən kəsilib. Artıq zamanı çatıb, onları Qarabağdan çıxarmalıyıq. Cənab Ali Baş Komandan, bir daha bildirmək istəyirəm ki, əmrinizi gözləyirəm. Qardaşlarımla bir cəbhədə olmaqdan böyük qürur duyardım”.

Antalya şəhərindən Metin Fahri, **Murat Ablak** və **Aşık Turan** yazırlar: “Hörmətli cənab Prezident, biz bir millət, iki dövlətik. Biz türkük, qardaşıq, eyni kökdənik. Yola çıxmış olduğunuz bu uğurlu mübarizədə Rəbbim yardımçınız olsun. Canımızla, qanımızla azərbaycanlı qardaşlarımızın yanındayıq. Qulağımız səsdə, könlümüz yoldadır. Bir çağırış edin, yetər”.

İstanbul şəhərindən **Veli Yıldız:** “Hörmətli cənab Prezident, əvvəla cəbhə bölgəsində baş verən döyüşlərdə şəhid olmuş qardaşlarımızın ailələrinə başsağlığı verir, yaralıların tezliklə sağlamlıqlarına qovuşmaları üçün dua edirik. Sizin üçün orada könüllü döyüşməyə hər zaman hazır olduğumu bilməyinizi istəyirəm. Bir canım deyil, min canım olsa, azərbaycanlı qardaşlarıma fəda edərəm. Azərbaycan-Türkiyə: İki dövlət, bir millət, bir ürək!”.

Bursa şəhərindən **Oğuz Aydın:** “Hörmətli cənab Prezident, dost və qardaş ölkənin, can Azərbaycanın rəhbəri kimi Sizi salamlayır, məsuliyyətli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Son zamanlar ermənilərin ölkənizə və mülki vətəndaşlara qarşı təcavüzü bizi də hiddətləndirdi. İşğalçı və təcavüzkar ölkəyə qarşı mübarizənizdə Sizin, can Azərbaycanın yanındayıq. Dinimizə və türkçülüyə təhlükə yaradan nə varsa, mən son damla qanıma qədər onunla mübarizə aparmağa hazıram. Qarabağ Azərbaycanındır! Bu, belə olub və daim belə olacaq! Allah yar və yardımçınız olsun”.

İzmir şəhərindən **Fahri Emre Recber:** “Hörmətli cənab Prezident, mən Türkiyə vətəndaşı olaraq hər bir azərbaycanlının qardaşıyam. Uzun illərdir Azərbaycan şirkətləri ilə əməkdaşlıq edirəm. Sizin torpaqlar mənim üçün də doğmadır. Hazırda erməni təcavüzünə qarşı mübarizənizi tam dəstəkləyir, hər an yanınızda olduğumu bildirirəm. Qılıncınız kəskin, qələbələriniz davamlı olsun!”

Adana şəhərindən **İsmail Serkan Büyükoğlu** və **Erdi Bozkurt:** “Hörmətli cənab Prezident, Azərbaycan və Türkiyə iki qardaş ölkə, tək millətdir. Qardaş və dost çətin gündə tanınar. Bu günlər Azərbaycan üçün çətin olmaqdan daha çox şərəflidir. Belə günlərdə Sizin yanınızda olmağa, canımız və qanımızla kömək etməyə hazırıq. Allah türkü qorusun! Bayraq enməz, Vətən bölünməz!”

## Nigeriya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Muhammadu Buhariyə

Hörmətli cənab Prezident!

Nigeriya Federativ Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin, beynəlxalq təsisatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrin inkişafı üçün imkanlar mövcuddur.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza daim rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2020-ci il*

## Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Böyük qardaşınız - Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə, dost Küveyt xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2020-ci il*

## Ərəb mətbuatı Prezident İlham Əliyevin “Rossiya-1” telekanalının efirində söylədiyi fikirlərə yer ayırıb



**Azərbaycan Prezidenti İlham Əliyevin “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə söylədiyi fikirlər ərəb ölkələri KİV-nin diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, nüfuzlu “Aljazeera” və “Al Arabiya” telekanallarının reportajlarında, Qətərin “Gulf Times”, Səudiyyə Ərəbistanının “Arabnews”, Misirin “Almasryalyoum”, “Al Ahram”, İordaniyanın “Al Dustour”, Küveytin “Kuwait Times”, Bəhreynin “The Daily Tribune” qəzetlərində dərc edilmiş xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın törətdiyi müharibə cinayəti, növbəti hərbi təcavüzünün səbəbləri, ordumuzun düşmənə layiqli cavab verməsi barədə fikirləri yer alıb.

## Moldova portalı Mehriban Əliyevanın Ermənistanın hərbi təxribatı ilə bağlı fikirlərini dərc edib




**Moldovanın nüfuzlu “timpul.md” portalında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın növbəti silahlı təxribatına dair sosial şəbəkə səhifələrində paylaşımı dərc edilib.**

AZƏRTAC xəbər verir ki, “Mehriban Əliyeva: Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!” sərlövhəli məqalədə Birinci vitse-prezidentin fikirlərinə geniş yer verilib.

Məqalədə birinci xanımın paylaşımındakı aşağıdakı fikirlər də sitat gətirilib: “Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir. Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!”

## Milli Məclisin iclasında





**Sentyabrın 30-da Milli Məclisin payız sessiyasının açılışı oldu. Milli Məclisin Sədri Sahibə Qafarova 2020-ci ilin payız sessiyasını açıq elan etdi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi. Spiker payız sessiyasının başlanması münasibətilə deputatları təbrik etdi və parlamentin qarşıdakı fəaliyyətinin səmərəli olmasını arzuladı.**

# Azərbaycanın zəfər salnaməsinə yeni tarixi səhifələr yazılır

## Parlament Ermənistanın işğalçılıq siyasəti ilə bağlı həqiqətlərin dünyaya çatdırılması istiqamətində fəal iş aparır

### 88 ölkənin qanunverici orqanına və 11 beynəlxalq təşkilata 138 məktub göndərilib

Sahibə Qafarova Ermənistanın Azərbaycana təcavüzü nəticəsində cəbhə bölgəsində gərginləşən vəziyyətdən söz açdı. Qeyd etdi ki, bu gün Azərbaycanın zəfər salnaməsinə yeni tarixi səhifələr yazılır. İşğalçı Ermənistan silahlı qüvvələrinin hərbi təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun həyata keçirdiyi genişmiqyaslı əks-hücum əməliyyatı davam edir. Sentyabrın 27-dən bəri Azərbaycanın işğal altında olan bir sıra yaşayış məntəqələri azad edilib, strateji yüksəkliklər ordumuzun nəzarəti altına keçib.

Düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! ...Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Onun həlli bizim tarixi vəzifəmizdir. Biz bunu elə şəkildə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin və Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun".

Milli Məclisin Sədri düşmən təxribatı barəsində doğru-düzgün məlumatların dünya ictimaiyyətinə çatdırılması, erməni faşizminin iç üzünü və çirkin mahiyyətini ifşa etmək üçün parlament diplomatiyasının imkanlarından geniş istifadə edildiyini vurğuladı. Son günlərdə 88 ölkənin parlamentinə və 11 beynəlxalq təşkilata 138 məktub göndərildiyini, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Pakistan Senatının Sədri Məhəmməd Sadiq Sancrani, Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin, ATƏT-in Parlament Assambleyasının Sədri Georgi Tsereteli ilə telefonla danışdığını, Türkiyənin TRT-Xəbər televiziya kanalına canlı yayımda müsahibə verdiyini açıqladı. Bütün məktub və danışıqlarda, müsahibədə Ermənistan silahlı qüvvələri tərəfindən törədilən planlı təxribatın, mülki insanların və obyektlərin atəşə tutulmasının beynəlxalq hüquqa görə, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü və güc tətbiqi olduğunu bildirdiyini diqqətə çatdırdı.

Parlamentin Sədri çıxışında qeyd etdi ki, Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiya birgə bəyanat verərək, Ermənistanın Azərbaycana qaqrşı hərbi hücumlarını pisləyib. Bununla əlaqədar olaraq Mustafa Şentopa məktub göndərilib və Azərbaycan parlamenti adından minnətdarlıq ifadə olunub. Həmçinin İtaliya və Almaniya parlamentlərində fəaliyyət göstərən Azərbaycanla dostluq qruplarının üzvlərinə də xalqımızın haqq işini dəstəklədiklərinə görə Milli Məclis adından təşəkkür məktubları ünvanlanıb. Sahibə Qafarova çıxışının sonunda bildirdi ki, bu gün Azərbaycan xalqı öz dövlətinin yanındadır: "Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bərqərar olmuş səriştəli və məsuliyyətli idarəçilik sistemi, iqtidarla xalq arasında mövcud olan sarsılmaz birlik Dağlıq Qarabağ məsələsinin birdəfəlik həllini təmin edəcək".

### 23 iclas keçirilib, 164 qanun və qərar qəbul edilib

Sonra Spiker altıncı çağırış Milli Məclisin ilk sessiyalarının yekunlarına dair hesabatı təqdim etdi. Qeyd olundu ki, ötən dövrdə parlament öz fəaliyyətini Prezident İlham Əliyevin martın 10-da parlamentin birinci iclasında proqram xarakterli nitqində verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində qurub və önəmli nəticələr əldə edib. 2020-ci ilin yaz və növbədənkənar sessiyalarında parlamentin 23 iclası keçirilib, 164 qanun və qərar, o cümlədən 2 Konstitusiya qanunu qəbul edilib. Milli Məclis ölkənin ictimai-siyasi və iqtisadi həyatında baş verən bütün mühüm məsələlərə öz münasibətini bildirib.

Sahibə Qafarova onu da vurğuladı ki, sessiyalararası dövrdə - iyulun 7-də Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyevin iştirakı ilə Milli Məclisdə təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri ilə "Azərbaycanda yeni siyasi konfiqurasiya: pandemiya dövrü və yeni çağırışlar" mövzusuna həsr edilən videokonfrans formatında görüş keçirilib. Siyasi dialoq, milli dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması baxımından görüşün əhəmiyyəti qeyd edilib.

O da diqqətə çatdırıldı ki, bu yaxınlarda Milli Cəbhə Partiyası və Respublikaçı Alternativ Partiyası dövlət qeydiyyatına alınıb və bununla da Milli Məclisdə təmsil olunan siyasi partiyaların sayı 11-ə çatıb. Sahibə Qafarova bu münasibətlə həmin partiyaların təmsilçiləri - Razi Nurullayevi və Erkin Qədirlini təbrik etdi, onlara parlament fəaliyyətlərində uğurlar dilədi.

Parlamentin Sədri yay ayları ərzində Milli Məclisin cari fəaliyyətinin ardıcıl olaraq davam etdirilməsi və görülən işlər barədə də söz açdı. Qeyd olundu ki, ötən dövrdə Milli Məclisin Aparatı və İşlər İdarəsi haqqında Əsasnamə hazırlanıb və təsdiq edilib. Milli Məclisin İntizam komissiyası haqqında hazırlanan Əsasnamə bu yaxınlarda parlamentin müzakirəsinə çıxarılacaqdır. İnzibati binada olan iclas salonlarına "İstiqlal", "Qarabağ", "Odlar yurdu", "Xəzər" kimi milli adlar verilib ki, bu da xalqımızın və dövlətimizin tarixi-mədəni irsinin yaşadılmasına və nəsildən-nəsilə ötürülməsinə kiçik töhfə olacaq.

Sahibə Qafarova onu da diqqətə çatdırdı ki, son günlər cəbhədə yaranmış vəziyyətlə əlaqədar olaraq sentyabrın 27-də təcili olaraq Milli Məclisin iclası keçirilib, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı təsdiq olunub.

Parlamentin Sədri daha sonra elektron parlament quruculuğu çərçivəsində görülən işlərdən danışdı, Milli Məclisin arxivində saxlanan bütün sənədlərin elektron formata keçirildiyini, televiziya və fotoarxivlərinin rəqəmsal sistemə salındığını bildirdi. Sədr bildirdi ki, Milli Məclisin fəaliyyətini izləyən jurnalistlər üçün bütün lazımi avadanlıqlarla təmin olunmuş otaqlar ayrılıb. Yeni fotostudiya yaradılıb, brifinqlərin keçirilməsi və millət vəkillərindən müsahibələr alınması üçün müasir standartlara uyğun otaq hazırlanıb. Milli Məclisin fəaliyyətinin işıqlandırılması üçün İctimai televiziyada format müəyyənləşdirilib. Həftədə bir dəfə telekanalda 45 dəqiqəlik veriliş yayımlanacaq.

Milli Məclisin nümayəndə heyətinin sentyabr ayında qardaş Türkiyəyə və Rusiyaya etdiyi rəsmi səfərlər barədə də məlumat verildi.

### Qanunvericilik işləri planı təsdiq olundu

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. Əvvəlcə Milli Məclisin 2020-ci ilin payız sessiyası üçün qanunvericilik işləri planı müzakirə edildi. Milli Məclisin komitə sədrləri Musa Quliyev, Zahid Oruc, deputatlardan Qüdrət Həsənquliyev və Cavid Osmanov işlər planı ilə bağlı təkliflərini bildirdilər. 14 bənddən ibarət sənəd səsə qoyularaq təsdiq edildi.

Gündəliyin ikinci məsələsi olan - deputat Eldar Quliyevin Milli Məclisin Hesablayıcı komissiyasının üzvü seçilməsi haqqında qərar layihəsi də təsdiq olundu.

Sahibə Qafarovanın təqdimatından sonra "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsi qəbul edildi.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqlarının qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini təqdim etdi. Gömrük orqanları arasında yeni çağırışları özündə ehtiva edən, əqli mülkiyyət obyektlərində əməkdaşlığın inkişafına xidmət edən sənəd qəbul olundu.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" sənədi şərh etdi. Komitə sədri Azərbaycanı hər zaman özünə dost hesab edən bir ölkədə - Kubada səfirliyin açılmasının məntiqli bir qərar olduğunu diqqətə çatdırdı və koronavirus pandemiyası dövründə Kuba həkimlərinin ölkəmizə təmənnasız dost yardımını əsirgəmədiklərini bildirdi. Layihə təsdiq edildi.

### Bəzi qanunlara dəyişikliklər təsdiq edildi

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "İşsizlikdən sığorta haqqında" və "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim etdi. Qısa müzakirədən sonra layihə təsdiq edildi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə təklif olunan dəyişiklikləri təqdim etdi. Qeyd olundu ki, sənəd "Publik hüquqi şəxslər haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2019-cu il 12 iyul tarixli qanunun icrası ilə əlaqədar hazırlanıb. Sözügedən qanunun 4-cü maddəsinə uyğun olaraq publik hüquqi şəxs dövlət adından, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən yaradılır. Publik hüquqi şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunla müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin dövlət qeydiyyatı onun idarəetmə orqanlarının üzvləri tam tərkibdə təyin edilmədiyi halda da həyata keçirilir. Buna əsaslanaraq "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunun 5.4 və 8.1-ci maddələri həmin müddəalara uyğunlaşdırılır. "Peşə təhsili haqqında" qanunun 16.2-ci maddəsi isə "Təhsil haqqında" qanunun 32.2-ci maddəsinə uyğunlaşdırılır. Sənəd səsə qoyularaq təsdiqləndi.

Deputatlar "Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə də birinci oxunuşda müsbət münasibət bildirdilər.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi barədə məlumat verdi. Bildirdi ki, Azərbaycan Prezidenti 28 dekabr 2018-ci ildə tikinti obyektlərinə tikintiyə icazə və obyektin istismarına icazə verilməsinin sadələşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb. Tikintiyə dövlət nəzarəti prosedurlarında nəzərdə tutulan sadələşdirmələrlə əlaqədar müvafiq qanunların təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması barədə Nazirlər Kabinetinə tapşırıq verilib. Təqdim edilən qanun layihəsi həmin təkmilləşdirilməyə dair təklifləri nəzərdə tutur. Qısa müzakirədən sonra layihə təsdiq olundu.

İclasda daha sonra "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edildi. Qeyd olundu ki, qanun layihəsinə təklif olunan dəyişikliklər minik avtomobillərinin özgəninkiləşdirilməsi haqqında müqavilələrin dövlət qeydiyyatına alınmasına görə dövlət rüsumunun məbləğinin hər il üçün təsdiq olunması mexanizmindən imtina olunmasını və rüsumların daimi olaraq müəyyən edilməsini nəzərdə tutur. Həmin dövlət rüsumları minik avtomobilləri hərracda özgəninkiləşdirildiyi hallara da şamil edilməsini, yaxın qohumlara bağışlanması hallarına görə rüsumun istisna olunmasını və bu hala görə daha az dövlət rüsumunun (10 manat) müəyyən edilməsini ehtiva edir. Layihə təsdiqləndi.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd etdi ki, gündəliyə daxil edilən növbəti 4 məsələ - Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub. Bu layihələr "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanına uyğunlaşdırma xarakteri daşıyır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh etdi. Bildirdi ki, qanun layihəsi daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya birinci dərəcə əlilliyi olan şəxsə baxan, onunla birlikdə yaşayan valideynin, arvadın (ərin), himayəçinin və ya qəyyumun gəlirlərinin gəlir vergisindən azad olunan hissəsinin artırılaraq 200 manat məbləğində müəyyən edilməsini, güzəşt tətbiq olunan kateqoriyaya sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərin də aid edilməsini nəzərdə tutur. Qanun layihəsi səsvermə yolu ilə təsdiqləndi.

Parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə məlumat verdi. Bildirdi ki, qanun layihəsi uyğunlaşdırma məqsədi ilə hazırlanıb və valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Təklif olunan qanuna əsasən, övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və elmi təşkilatın magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin hesabına ödənilməsi nəzərdə tutulur. Qeyd edildi ki, bu hal xüsusilə az və orta təminatlı ailələr tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsi prosesini asanlaşdıracaq. Həmin uşaqların ali və orta ixtisas təhsili müəssisələrində və AMEA-nın magistratura səviyyəsində təhsil haqqı dövlət hesabına ödənildiyi üçün övladlığa götürüldükdən sonra da bu imtiyazdan istifadə edə bilmələri dövlət büdcəsi üçün əlavə maliyyə yükü yaratmayacaq.

Fasilədən sonra davam edən iclasda spiker Sahibə Qafarova məlumat verdi ki, səhər iclasında deputat Eldar Quliyev Milli Məclisin Hesablayıcı komissiyasının üzvü seçilmişdi. Fasilə müddətində komissiya üzvləri iclas keçirərək Eldar Quliyevi Milli Məclisin Hesablayıcı komissiyasının sədri seçiblər. Spiker bu münasibətlə Eldar Quliyevi təbrik etdi, ona yeni işində uğurlar arzuladı.

Sonra "Təhsil haqqında" qanuna dəyişikliklər edilməsi barədə layihənin müzakirəsi davam etdirildi. Müzakirələrin sonunda layihə təsdiqləndi.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırdı. Bildirdi ki, qanun layihəsi valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır. Layihəyə əsasən, övladlığa götürülmüş uşaqların dövlət, bələdiyyə və özəl ali və orta ixtisas təhsili müəssisələrində və ali məktəblərin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət hesabına ödənilməsi nəzərdə tutulur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsinin onun rəhbərlik etdiyi komitədə də müzakirə edildiyini, sənədin qəbulunun valideyn himayəsindən məhrum olmuş uşaqların həyatında olduqca humanist bir addım olacağını vurğuladı. Qanun layihəsi səsə qoyularaq təsdiqləndi.

### Yeni sosial müavinət növü müəyyən edilir

Musa Quliyev "Sosial müavinətlər haqqında" qanuna təklif edilən dəyişiklikləri də birinci oxunuşda təqdim etdi. Komitə sədri bildirdi ki, bu sənəd də əvvəlkilər kimi "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanına uyğun olaraq, valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsini stimullaşdırmaq və uşaqları övladlığa götürən ailələri dəstəkləmək məqsədilə hazırlanıb. Yeni bir sosial müavinət növü - övladlığa götürülən uşağa görə müavinət müəyyən edilir, onun təyin edilmə şərtləri və qaydaları, bununla bağlı digər məsələlər tənzimlənir. Bildirildi ki, müavinət valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 3-18 yaş arası uşağı, o cümlədən 0-18 yaş arası sağlamlıq imkanları məhdud uşağı övladlığa götürən şəxsə övladlığa götürülən hər bir uşağa görə (uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında) təyin ediləcək və bu müavinətin ödənilməsi uşağın 18 yaşı tamam olanadək davam edəcək. Müavinət uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi əsasında uşağı övladlığa götürən şəxsə və ya onlardan birinə təyin edilir. Çıxış edənlər valideyn himayəsindən məhrum olmuş uşaqların hər zaman dövlətimiz tərəfindən diqqət mərkəzində olduğunu dedilər, layihənin əhəmiyyətini açıqladılar. Sənəd səsə qoyularaq təsdiqləndi.

Əmək və sosial siyasət komitəsinin üzvü Rauf Əliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim etdi. Sənəd 18 yaşına çatmamış şəxslərin mənəvi-əxlaqi tərbiyəsinin və sağlam gəncliyin formalaşması istiqamətində kompleks tədbirlər keçirilməsini, uşaqlara tütün məmulatları və alkoqollu içkilərlə bərabər, energetik içkilərin satışının, onların idman-mərc oyunlarında iştirakının qadağan edilməsi sahəsində məhdudiyyətləri ehtiva edir. Layihə səsvermə yolu ilə təsdiq edildi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məlumat verdi. Qısa müzakirədən sonra layihə səsə qoyularaq qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim etdi. Bildirildi ki, təklif olunan dəyişikliklər məcburi nişanlama malların uçotdan yayındırılmasının, saxta məhsulların bazara daxil olmasının qarşısının alınması məqsədilə onlara məcburi nişanlama kodunun və digər qoruyucu elementlərin vurulması ilə bağlıdır. Məcburi nişanlanma ilə bu cür malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin həyata keçirilməsi təmin olunur. Məcəlləyə digər texniki xarakterli bir neçə dəyişikliyin də daxil edildiyi vurğulandı. Qanun layihəsi təsdiq edildi.

İclasda daha sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarıldı. Əmək və sosial siyasət komitəsinin üzvü İlham Məmmədov dedi ki, sənədlər "Təhsil haqqında" qanuna dəyişiklik edilməsi barədə 12 iyun 2018-ci il tarixli və "Ümumi təhsil haqqında" 29 mart 2019-cu il tarixli qanunlara uyğunlaşdırma məqsədi ilə hazırlanıb. Ümumi təhsil, peşə təhsili, məktəbəqədər təhsil, sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili ilə bağlı normaları, qanunlarda edilən termin və ifadə dəyişikliklərini nəzərdə tutur. Deputat söylədi ki, Əmək Məcəlləsinə təklif olunan dəyişiklik yuxarıda göstərilən qanunlara uyğun olaraq, pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ olmayan şəxslərlə əmək müqavilələrinin bağlanmasına yol verilməməsi, bağlanmış müqavilələrə isə xitam verilməsi üçün mexanizmləri, o cümlədən bu sahədə işəgötürənlərin məsuliyyətini və bu hala görə əmək müqaviləsinə xitam verilməsi əsaslarını müəyyən edir.

Sənədlə əlaqədar Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev də fikirlərini bölüşdü. Komitə sədri qeyd etdi ki, təhsillə bilavasitə bağlı olan bu 5 qanuna, ümumilikdə, 89 dəyişiklik təklif edilib. Bəxtiyar Əliyev hazırda ölkədə 65482 nəfər sağlamlıq imkanı məhdud uşaq olduğundan, onların təhsili və gələcəyi ilə bağlı Heydər Əliyev Fondunun əsaslı layihələr həyata keçirdiyindən söz açdı. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Deputatlar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrinə müsbət münasibət bildirdilər.

### Yeni layihədə donorluqla bağlı bütün məqamlar nəzərə alınıb

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsini birinci oxunuşda müzakirəyə təqdim etdi. Komitə sədri bildirdi ki, dünyada insan orqan və toxumalarının donorluğu və transplantasiyası təbabətin yeni sahəsi olsa da, sürətlə inkişaf edir. Əhliman Əmiraslanov qeyd etdi ki, artıq orqan nəqlinin insanların ömrünü xeyli uzatdığı elmə məlumdur. O, bu sahədəki dünya təcrübəsindən söhbət açaraq bildirdi ki, Azərbaycanda artıq böyrək, qaraciyər, diz oynaqları köçürülməsi əməliyyatları uğurla yerinə yetirilir. Ölkəmizdə qanunvericilik baxımından meyit donordan istifadə sahəsində müəyyən boşluq olduğundan, ancaq canlı donordan istifadə olunur ki, bu da əlavə risk yaradır. Komitə sədri yeni hazırlanan qanun layihəsində bu sahədəki mühüm məqamların diqqətlə araşdırıldığını və nəzərə alındığını vurğuladı. Bildirildi ki, layihə bütün aidiyyəti qurumların mütəxəssislərinin iştirakı ilə ictimai müzakirədən keçirilib və rəylər alınıb. Sənəd orqan transplantasiyasının hüquqi əsaslarını, donorların, resipiyentlərin, transplantasiya sahəsində fəaliyyət göstərən tibb müəssisələrinin, tibb işçilərinin hüquq və vəzifələrini müəyyən edir, buradan irəli gələn münasibətləri tənzimləyir. 5 fəsil, 35 maddədən ibarət sənəddə qanunun tətbiq dairəsi, donorluğun və transplantasiyanın əsas prinsipləri, qayda və şərtləri, bu sahəyə yardımın təşkili, transplantasiya işini həyata keçirən mütəxəssislərin hüquq və vəzifələri, resipiyentlərin uçotu, donorluq işinin koordinasiyası, donor orqanlarının resipiyentlər arasında bölüşdürülməsi kimi məsələlər ətraflı ehtiva olunub.

Çıxışlardan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri jurnalistlər üçün brifinq keçirib







Sentyabrın 30-da VI çağırış Milli Məclisin payız sessiyasının ilk iclasından əvvəl parlamentdə mətbuat nümayəndələri üçün yaradılmış 3 yeni iş otağının açılışı olub.

AZƏRTAC xəbər verir ki, bununla bağlı jurnalistlər üçün brifinq keçirən Milli Məclisin Sədri Sahibə Qafarova parlamentdə akkreditə olunmuş KİV nümayəndələri ilə belə bir görüş keçirməyi çoxdan arzu etdiyini bildirib. Deyib ki, bu görüş pandemiya səbəbindən bir qədər gec baş tutub. Spiker qeyd edib ki, Sədr seçildikdən sonra jurnalistlərin ona Milli Məclisdə mətbuat nümayəndələrinin iş şəraitinin yaxşılaşdırılması ilə bağlı müraciətləri olmuşdu. Pandemiya ilə əlaqədar bu işin bir qədər yubandığını vurğulayan Sahibə Qafarova deyib: "Yay aylarında media nümayəndələrinin rahat işləyə bilməsi üçün şərait yaratmağa çalışdıq. Çünki siz - parlamentdə akkreditə olunmuş media nümayəndələri Milli Məclisin iclası başlayandan qurtaranadək bizimlə birlikdə çalışırsınız. Burada jurnalistlər üçün yaradılan iş otağında 16 kompüter var, sahəsi əvvəlki otaqdan daha genişdir. Onun yanındakı ikinci otaq isə fotostudiya kimi fəaliyyət göstərəcək. Yuxarıdakı otaq isə brifinqlər və jurnalistlərin müsahibə almaları üçün nəzərdə tutulub".

Milli Məclisin Sədri Sahibə Qafarova medianın həmişə olduğu kimi, bundan sonra da parlamentin fəaliyyətini dolğun və obyektiv işıqlandıracağına inamını ifadə edib. Bildirib ki, torpaqlarımız düşmənlərdən azad edildikdən sonra elə bu foyedə jurnalistlərə geniş müsahibə verəcək.

"Hər birimizin ürəyi Qarabağla döyünür", - deyən Sədr çıxışının sonunda media nümayəndələrinə bu şəraitin yaradılmasında yaxından iştirak edən Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevə, parlamentin işlər müdiri Firudin Hacıyevə, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinə təşəkkürünü bildirib.

Sonra çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov Milli Məclisdə mətbuat nümayəndələri üçün yaradılmış şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya minnətdarlığını bildirib, Milli Məclisin işinə və jurnalistlərə uğurlar arzulayıb.

# Birləşmiş Millətlər Təşkilatının 28 ildən sonra nəsə tələb etməyə haqqı varmı?



“Sentyabrın 29-da Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının Dağlıq Qarabağda vəziyyətlə bağlı qapalı iclası keçirildi. İclasın nəticələrini hamılıqla maraqla gözləyirdik. Təbii ki, Təhlükəsizlik Şurasının bu iclası keçirməsinin yeganə səbəbi Azərbaycan Ordusunun inamlı qələbəsi və məğlub duruma düşən Ermənistan tərəfinin beynəlxalq təşkilatlara yalvarışı idi. Əgər Ermənistan tərəfi öz ordusuna güvənsə, nə üçün davamlı olaraq beynəlxalq təşkilatlara və xarici dövlətlərin rəhbərlərinə döyüşlərin dayandırılması üçün köməklik göstərilməsi barədə çağırış edir? Xalqımız bir daha əmin olsun ki, qeyd-şərtsiz üstünlük bizimdir”.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

A.Əliyev qeyd edib: “BMT Təhlükəsizlik Şurasının qapalı keçən iclasının yekununda elan olundu ki, Azərbaycan və Ermənistan tərəfləri arasında döyüşlər dayandırılsın, tərəflər sülh prosesinə dəvət edilsin, danışıqlar davam etdirilsin. İlk növbədə, BMT-nin belə bir qərar qəbul etməyə mənəvi haqqı yoxdur.

BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə əsasən, bütün üzvlərin beynəlxalq münasibətlərdə həm digər dövlətlərin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı, həm də BMT-nin məqsədlərinə uyğun olmayacaq şəkildə güc tətbiqi ilə qorxutmaları və birbaşa güc tətbiq etmələri qadağan edilir. Yəni hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və güc tətbiq etməklə ərazi bütövlüyünün pozulması təcavüz aktı hesab olunur. Ermənistan isə artıq 28 ildir ərazimizi işğal edib və bununla kifayətlənməyərək yeni təxribatlar törədib. Beynəlxalq hüquqda elə normalar var ki, onlar bütün dövlətlər üçün məcburidir. Bu normalar "jus cogens" normalarıdır. Dövlətlərin ərazi bütövlüyü prinsipi bu normalara aiddir və icrası məcburidir.

BMT Nizamnaməsinin 2.7-ci maddəsinə əsasən, onun heç bir müddəası Birləşmiş Millətlər Təşkilatına səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etsin. Bu gün Azərbaycanın ərazi bütövlüyünü BMT-nin özü də daxili olmaqla bütün dünya tanıyır. Bu halda Azərbaycanın öz yurisdiksiyası daxilində olan ərazisini işğaldan azad etməyə haqqı var. Ermənistan tərəfinin isə Azərbaycanın sərhədləri daxilində nə işi var ki, onlara qarşı da silah işlədilsin.

BMT tərəfindən 28 il əvvəl qəbul olunan, Azərbaycanın ərazi bütövlüyünü tanıyan və erməni işğalçı qüvvələrinin işğal altındakı ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr bu günə qədər yerinə yetirilməyib. BMT öz qətnamələrinin icrasını təmin edə bilmirsə, bu gün Azərbaycan tərəfini sülhə çağıra bilməz, buna mənəvi haqqı yoxdur.

Vəziyyət o yerə çatıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının 75-ci Assambleyasında çıxış edərək Ermənistan tərəfinin 28 ildir faktiki olaraq təcavüzü davam etdirdiyini bildirdi. Təhlükəsizlik Şurasının Ermənistandan Azərbaycanın işğal edilmiş ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasını tələb edən 4 qətnaməsi bu günədək icra edilməyib. Hansı ki BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri çox qısa müddət ərzində icra edilir.

Bu gün Ermənistan təcavüzkar siyasətini davam etdirməklə yanaşı, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş bütün normalarını kobud şəkildə pozaraq Livandan və digər ölkələrdən Dağlıq Qarabağa insanları köçürür. Bu isə 1949-cu il Cenevrə Konvensiyasına ziddir. Həmin Konvensiyanın tələblərinə görə, döyüşlərdə muzdlular iştirak edə bilməz. Lakin Ermənistan tərəfinin yaydığı videolardan da görünür ki, döyüşlərdə iştirak etmək üçün Suriyadan və digər ölkələrdən muzdlular gətirilir. Ermənistan tərəfi döyüşlər zamanı mülki əhaliyə və obyektlərə, xüsusilə heç bir halda silah işlədilməsinə icazə verilməyən xəstəxanalara, təcili tibbi yardım maşınlarına atəş açır.

Sentyabrın 29-da baş tutmuş debatda Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın baş nazirini əsaslı arqumentlərlə susduraraq həm diplomatiyada, həm də döyüş meydanında düşməndən qat-qat üstün olduğumuzu bir daha sübut etdi. Prezidentimizin dediyi kimi, biz elə edəcəyik ki, Ermənistan tərəfi bir daha bizim torpaqlarımıza baxmağa belə cürət etməsin.

Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu döyüş meydanında misli görünməmiş tarix yazır. Xalqımız qələbəmizə inanır və qələbə bizimdir!

# Prezidentin köməkçisi Hikmət Hacıyev “TRT World” kanalına müsahibəsində Ermənistanın təcavüzkar siyasətindən danışıb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin ingilis dilində yayımlanan beynəlxalq xəbər kanalı - “TRT World”ə müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Ermənistanın Azərbaycana qarşı törətdiyi son hərbi təxribatlar, 30 ilə yaxındır davam edən işğalçılıq siyasəti barədə danışıb. Müsahibəni təqdim edirik.

*- Ermənistan Azərbaycanı ölkəsinin döyüş təyyarələrindən birini vurmaqda ittiham edir. Türkiyə tərəfi də bunun tamamilə yalan məlumat olduğunu bildirdi. Azərbaycan Prezidenti Administrasiyasının bu barədə fikrini bilmək istərdik.*

- Biz də bununla bağlı açıqlama verdik. Bu, bir dezinformasiyadır, eyni zamanda olduqca gülünc məlumatdır. Bütün radar sistemlərimizi yoxladıq və hətta Ermənistan ərazisindən də SU-25 hərbi təyyarəsinin havaya qalxdığı qeydə alınmayıb. Belə bir hal olmadığı təqdirdə hərbi təyyarəni vurmaq necə mümkündür? Bu, bir daha Ermənistanın mütəmadi olaraq dezinformasiya kampaniyası həyata keçirdiyini nümayiş etdirir.

*- Biz bilirik ki, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Bəs bu mübahisənin başladığı onilliklərdən sonra niyə hələ də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinə icazə verilir?*

- Təəssüf ki, 30 ildir Ermənistanın Azərbaycana qarşı işğalı davam edir. Azərbaycan tərəfi bu müddət ərzində səbir nümayiş etdirərək, münaqişənin ən qısa müddətdə həll olunması üçün danışıqlar prosesində iştirak edib. Ancaq gördüklərimiz odur ki, Ermənistan uzun illərdir yalnız Azərbaycan ərazilərini ilhaq etmək məqsədilə münaqişənin həllini uzadır.

*- Bu, bir daha onu göstərir ki, Ermənistanın niyyəti bu əraziləri işğal altında saxlamaq və status-kvonu möhkəmləndirmək idi. Onlar danışıqlar prosesindən yalnız görünüş xatirinə istifadə ediblər.*

- Azərbaycanın da səbrinin bir həddi var. Təəssüf ki, bu il iyulun ortalarından başlayaraq Ermənistan tərəfinin yeni təxribatlar və hərbi avantüralar həyata keçirdiyini də görürük. Xüsusilə Ermənistanla Azərbaycan arasında sərhəddə, Tovuz istiqamətində baş verən hadisələr zamanı və o vaxtdan bəri Ermənistanın daha geniş miqyasda daha böyük plan hazırladığını görürdük. Tovuz hadisələri bu hücuma hazırlıq rolunu oynayırdı. Ermənistanın öz qoşunlarını təmas xətti boyunca konsentrasiya etməsi və bunun da nəticəsində 27 sentyabr tarixində azərbaycanlı mülki vətəndaşlara qarşı hərbi hücumunun şahidi olduq. Ancaq bu, Azərbaycanı özünümüdafiə hüququndan istifadə edərək, nəhayət, Ermənistanı sülhə məcbur etmək, Ermənistanın təxribatlarının, hərbi avantüralarının və Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısını almaq məqsədilə əks-hücum əməliyyatı həyata keçirmək məcburiyyətində qoydu.

*- Bəs, bu münaqişə necə həll olunmalıdır. Biz bir sıra tərəflərin proaktiv beynəlxalq vasitəçilik cəhdlərini irəli sürmək çağırışı etdiyini gördük, ancaq Avropa İttifaqı xarici güclərin bu münaqişədən kənarda qalmasının zəruriliyini göstərdi. Bununla bağlı sizin fikriniz nədir?*

- Buna görə də biz ədalətin bərpa olunmasını və beynəlxalq hüququn norma və prinsiplərinin təmin olunmasını istəyirik. Ermənistan işğalçı dövlətdir və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının dörd qətnaməsi münaqişənin həlli üçün hüquqi siyasi çərçivə təşkil edir. ATƏT-in Minsk qrupu prosesində münaqişənin necə həll edilməsi barədə yol xəritəsi də mövcuddur və bu yol xəritəsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə başlayır. Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetiribmi? Xeyr. Əksinə, onlar çox təcavüzkar milli təhlükəsizlik strategiyası və müdafiə doktrinasını qəbul etdikləri üçün daha aqressiv olublar. Ermənistanın müdafiə naziri bunu yeni ərazilər uğrunda yeni müharibə adlandırıb. Azərbaycanın gözləntisi bundan ibarətdir ki, beynəlxalq ictimaiyyət də öz öhdəliyini yerinə yetirməlidir. Bu öhdəlik Ermənistandan beynəlxalq hüququn norma və prinsiplərinin icrasını və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının tələblərinin yerinə yetirilməsini tələb etmək, həmçinin münaqişəni həll etmək məqsədilə Ermənistana diplomatik siyasi təzyiq göstərməkdən ibarətdir.

Heç bir dövlət öz ölkəsinin işğalı ilə razılaşa bilməz və Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməyə davam edir. Dünən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri tərəfindən heç biri Şura çərçivəsində bu münaqişə ilə bağlı müzakirə və ya konsultasiya ilə əlaqədar görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etməyib. Belə bir suallım var: BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən qətnamələrinin qəbul edilməsindən 25 il keçir. Niyə BMT Təhlükəsizlik Şurasının bu 25 ildə Ermənistanın qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasını tələb etməsi ilə bağlı heç bir sessiyası da keçirilməyib?

*- Ermənilərin iddia etdikləri məsələlərdən biri də Dağlıq Qarabağın etnik ermənilərin yaşadığı ərazi olması və onların özlərini müdafiə etmək zərurətidir. Biz sonradan Azərbaycanda etnik ermənilərə etinasız münasibət göstəriləcəyini və ya onların təhlükə ilə üzləşəcəkləri kimi əsasların olacağını güman edə bilərikmi?*

- Tarixə nəzər salsanız görərsiniz ki, ermənilər Azərbaycan ərazisində çox xoşbəxt yaşayıblar. 80-ci illərin sonlarına qədər Dağlıq Qarabağ Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri olub. Erməni separatçıları və terrorçuları Dağlıq Qarabağın Azərbaycandan ayrılması istiqamətində səylər göstərməyə başladılar və bu hadisələrdən sonra Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başladı. Biz hesab edirik ki, Dağlıq Qarabağın erməni icması və ya bizim erməni mənşəli vətəndaşlar Azərbaycan Respublikasının vətəndaşlarıdır. Onların Azərbaycan Konstitusiyasına uyğun olaraq onların tam hüquqlarını təmin etməyə hazırıq. Eyni zamanda biz Dağlıq Qarabağın etnik cəhətdən təmizlənmiş azərbaycanlı icmasını da dana bilmərik. Azərbaycanın suveren ərazilərində işğalçılıq siyasəti həyata keçirən ermənilər azərbaycanlıların mövcudluğunu belə tamamilə inkar edirlər. Bəs bir milyon azərbaycanlı məcburi köçkünün və qaçqının hüquqları necə olsun? Biz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Azərbaycanın erməni icmasının bütün əsas hüquqlarını təmin etməyə hazırıq.

# Hikmət Hacıyev Ermənistanın son təxribatları ilə bağlı İsrailin nüfuzlu “i24 NEWS” kanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın son təxribatları ilə bağlı İsrailin nüfuzlu “i24 NEWS” kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi müsahibəsində Azərbaycanın 30 ildir Ermənistanın hərbi təcavüzündən əziyyət çəkdiyini, Ermənistanın Dağlıq Qarabağ regionunu və ona bitişik 7 rayonu işğal etdiyini, Azərbaycanda 1 milyon qaçqın və məcburi köçkünün olduğunu vurğulayıb. O, sentyabrın 27-dən başlayaraq ermənilərin azərbaycanlılara, xüsusən də təmas xəttinə yaxın ərazilərdə sıx yaşayan mülki vətəndaşlara qarşı hücumlar etməklə növbəti təxribata başladığını deyib. Bildirib ki, Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum əməliyyatı həyata keçirmək məcburiyyətində qaldı.

Prezidentin köməkçisi üç gündür davam edən qarşıdurmalarda ermənilərin bir ailənin bütün üzvlərini daxil olmaqla 13 azərbaycanlını, o cümlədən 2 uşağı öldürdüyünü bildirib. O, həmçinin 30-dan çox dinc vətəndaşın ağır yaralandığını qeyd edib.

Hikmət Hacıyev Azərbaycanın həyata keçirdiyi bu əks-hücum əməliyyatında son məqsədin ölkənin ərazi bütövlüyünü və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını təmin etmək olduğunu vurğulayıb. O, əlavə edib ki, Ermənistan işğalçı dövlətdir və Azərbaycan özünümüdafiə hüququndan istifadə edir.

İsrail-Azərbaycan münasibətləri ilə bağlı suala cavabında Prezidentin köməkçisi əlaqələrimizin strateji tərəfdaşlığa, həmçinin tarixi dostluğa əsaslandığını deyib. O bildirib ki, ölkəmizin inkişafına geniş töhfə verən yəhudi icması ilə fəxr edirik. Azərbaycanın milli qəhrəmanlarından biri olan yəhudi əsilli Albert Aqarunov 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğal olunduğu zaman Azərbaycan şəhərini müdafiə edib.

# Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar BMT Təhlükəsizlik Şurasında qapalı məsləhətləşmələrin keçirilməsini ümumən təqdir edirik

**Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar sentyabrın 29-da BMT Təhlükəsizlik Şurasında qapalı məsləhətləşmələrin keçirilməsini ümumən təqdir edirik.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev deyib ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Ermənistan bu günə qədər həmin qətnamələri icra etməyib. Bu, ilk növbədə, Təhlükəsizlik Şurasının özünə qarşı hörmətsizlikdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün müvafiq müzakirələr zamanı həmin qətnamələrin icrasının vacibliyi məsələsini qabartmalıdırlar. Təhlükəsizlik Şurasının qətnamələri icra edilmədən, Ermənistan qoşunları Azərbaycanın işğal etdiyi ərazilərini tərk etmədən regionda sülhün bərqərar olması mümkünsüzdür.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Biz, Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri təmsil etdiyimiz dini icmalar adından Zati-alinizi - Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanını Azərbaycan Ordusunun işğal olunmuş ərazilərin azad edilməsi yönündə qazandığı zəfərlər münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə və bütün həmvətənlərimizə daha böyük qələbələr arzulayırıq.

Möhtərəm cənab Prezident, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq məfkurəsini yaşadan və daha da inkişaf etdirən Zati-alinizin siyasi iradəsi sayəsində biz - müxtəlif dini konfessiyaların ardıcılları Azərbaycanda dini tələbatlarımızı yüksək səviyyədə həyata keçirir, dövlətin diqqət, qayğı və himayəsini üzərimizdə hiss edirik. Zati-alinizin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qlobal təşəbbüs və əməli səyləri sayəsində Azərbaycan milli-mənəvi dəyərlərlə yanaşı, multikultural dəyərlərin dünya miqyasında hamisi kimi nüfuz qazanmışdır. Azərbaycanda yaşayan, vətəndaşı olmaqdan qürur duyan müxtəlif dini konfessiyaların dindarları zəfər münasibətilə Sizin xalqa təbrik müraciətinizi, BMT Baş Assambleyasının 75-ci sessiyasında etdiyiniz tarixi çıxışı, həmçinin “Rossiya-1” telekanalına verdiyiniz dəyərli müsahibəni böyük qürurla qarşıladılar. Vətənimiz Azərbaycanın siyasi, iqtisadi, sosial, humanitar sahələrdə qazandığı nailiyyətlərlə yanaşı, öz ərazi bütövlüyünü bərpa etmək, sərhədlərinin toxunulmazlığını təmin etmək kimi təbii haqqını təqdirlə qarşılayır, dəstəkləyirik.

Möhtərəm cənab Prezident, Uca Yaradanımız qarşısında hər zaman ədalətin, haqqın yanında olmağa mənən məsul olan biz din xadimləri Sizin dövlət rəhbəri olaraq dünyada bəşəri, humanitar təşəbbüslərinizi bəyəndiyimizi və dəstəklədiyimizi hər zaman bildirmişik. Zati-aliləri, Siz dinlər və sivilizasiyalar arasında əməkdaşlıq işinə böyük dəyər verən siyasi xadim, insan həmrəyliyi, dinc yanaşı yaşama, qarşılıqlı anlaşma tərəfdarı olan dövlət liderisiniz. Müstəqil Azərbaycanın suveren hüquqlarının ən ali beynəlxalq müstəvilərdə müdafiəsinə, ölkənin başlıca problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə nail olmaq istiqamətində misilsiz səylərinizə, beynəlxalq hüququn aliliyinə ehtiramınıza hər birimiz şahidik. Lakin Zati-alinizin doğru vurğuladığı kimi, sülhsevər Azərbaycan xalqının səbrinin də hüdudu vardır və Azərbaycan təcavüzkara layiqli cavab verməyə məcbur olmuşdur. İşğal faktını aradan qaldırmaq əvəzinə, sülh danışıqlarının üzərindən xətt çəkərək Azərbaycan sərhədlərində ardıcıl təxribatlar törədən Ermənistan tərəfi Azərbaycan dövlətini öz haqqını savaş meydanında müdafiə etməyə vadar etdi.

Zati-aliləri, Azərbaycan dini-mənəvi irsə qayğı ilə yanaşan, milli və ümumbəşəri dəyərləri himayə edən, dini məbədləri dövlət səviyyəsində təmir, inşa və bərpa edən dövlət kimi tanınır. Biz - dini konfessiya rəhbərləri bu qayğının bilavasitə şahidləriyik. Paytaxt Bakının mərkəzində erməni kilsəsini bərpa edib qoruyan Azərbaycanın əməlləri qarşılığında ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş ərazilərində dini-tarixi abidələrə, müqəddəs məkanlara qarşı həyata keçirilən vandalizm aktları bizi din xadimləri olaraq hədsiz narahat edir. Qədim Qarabağ torpağında İslam dininə məxsus ibadətgahlar, qəbiristanlıqlar məqsədyönlü şəkildə dağıdılır, təhqir olunur. Ümumislam əhəmiyyətli abidələrlə yanaşı, xristian və yəhudi məbədlərinə və müqəddəs yerlərinə qarşı da tarixi saxtalaşdırma, mənşəyini dəyişdirmə həyata keçirilir. Qədim alban, pravoslav kilsələrinin qriqoryanlaşdırılması istiqamətində iş aparılır. Ümumbəşəri irsə belə münasibət qəbulolunmazdır.

Zati-aliləri, ədalətin bərpası yönündə Sizin atdığınız bütün zəruri addımları dəstəkləyən biz dini konfessiya rəhbərləri bəyan edirik ki, 20 Yanvar hadisələrində, Qarabağ müharibəsində ölkədəki xristianlar, yəhudilər, digər millət və din mənsubları Azərbaycan xalqı ilə bir cərgədə, mübarizə meydanında çiyin-çiyinə olmuşlar. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Milli Qəhrəman Mübarizlərlə bərabər Aqarunovlar, Yakovlevlər, Polovinkolar, Senyuşkinlər kimi yəhudi, rus, ukraynalı və digər millətləri təmsil edən qəhrəman Vətən oğulları ilə fəxr edirik. Bu gün də Vətən torpaqlarının müdafiəsində milli, dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar Ali Baş Komandanın yanındadırlar. Vətənin müdafiəsi yolunda şəhid olan bütün övladlarımıza Uca Allahdan rəhmət, yaralılara şəfa diləyirik.

Möhtərəm cənab Prezident, dünya ictimaiyyətinin əksəriyyəti Azərbaycanın haqq yolunda olduğunun fərqindədir və dövlət olaraq öz torpaqlarını azad etmək iradəsini müdafiə edir. Dini mərkəz olan Qafqaz Müsəlmanları İdarəsinə, üzvləri olduğumuz Qafqaz Xalqları Ali Dini Şurasının ünvanına bu günlər dünyanın müxtəlif ölkələrindən dəstək zəngləri, həmrəylik məktubları daxil olmaqdadır. Diyanət İşləri başqanı Əli Erbaş başda olmaqla qardaş Türkiyənin onlarca şəhər və vilayətindən, İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Turkman başda olmaqla Tehran, Təbriz və Ərdəbilin nüfuzlu din xadimlərindən, Rusiyadan, xüsusilə Şimali Qafqazın müftilərindən, Özbəkistan, Gürcüstan, Pakistan, Əfqanıstan, Əlcəzair, Macarıstan, Bosniya-Herseqovina, Seneqal və digər dövlətlərdən, KAİCİİD Beynəlxalq Dinlərarası Dialoq Mərkəzindən, İƏT yanında İRSİCA təşkilatından, Avropa-Türk Müsəlman Birliyindən gələn zəng və məktublarda Azərbaycanın haqq yolunda olduğu vurğulanır, Azərbaycan Prezidentinin qətiyyət və əzminə dəstək, erməni işğalçıların riyakar və haqsız davranışları sərt şəkildə qınanır.

Zati-aliləri, Azərbaycan haqlı tərəfdir və deməli, Haqq bizimlədir. Biz - ölkəmizdəki dini konfessiyaların rəhbərləri Bir Olan Yaradanımızdan Azərbaycanın haqq işinin qələbəsinə rəvac verməsini diləyir, dünyanın müxtəlif ölkələrində yaşayan, milli, dini mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, Azərbaycanda doğulub boya-başa çatmış bütün həmvətənlərimizi həmrəyliyə, Azərbaycan Prezidentinin, Ali Baş Komandanın ətrafında daha sıx birləşməyə çağırırıq.

Uca Yaradan Azərbaycanı hifz etsin, haqlı mübarizəsində qalib qərar versin! Uca Yaradan dünyamızda haqqın, ədalətin təntənəsinə rəvac versin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür Paşazadə,***
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
***Aleksandr,***
*Bakı və Azərbaycan Arxiyepiskopu*
***Milix Yevdayev,***
*Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri*
***Aleksandr Şarovski,***
*Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri*
***Robert Mobili,***
*Alban-udi icmasının rəhbəri*

## 1 Oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür

"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***İLHAM ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Müasir dövlət quruculuğunda prokurorluğun yeri və rolu

Dünya şöhrətli ictimai-siyasi xadim, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin milli inkişaf strategiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi konseptual daxili və xarici siyasət, zamanın tələbi ilə səsləşən praqmatik islahatlar ölkə həyatında yeni intibahın başlanmasının əsasını qoymuşdur.

Müasir dövrün reallıqları və inkişaf perspektivləri nəzərə alınmaqla iqtisadiyyatın davamlı tərəqqi modelinə transformasiya olunması, yeni çağırışlar fonunda həyata keçirilmiş strateji yol xəritələri makroiqtisadi dayanıqlığın qorunub saxlanması qlobal böhran şəraitində belə sosial-iqtisadi və struktur islahatların həyata keçirilməsi üçün real imkanlar yaratmışdır.

Mərkəzində Azərbaycan vətəndaşı, onun sosial-rifah halının davamlı olaraq yüksəldilməsi dayanan ölkə başçısı cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti dövlətimizin koronavirus pandemiyasının mənfi təsirlərini layiqli qarşılamaqla zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirdi.

Qeyd edilməlidir ki, dövlətimizin qüdrətlənməsinə, pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, sosialyönümlü siyasətin reallaşdırılmasına, insanları narahat edən problemlərin aradan qaldırılmasına, bütövlükdə ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlara və görülən böyük işlərə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verməkdədir.

Ölkədə ictimai həyatın bütün sahələrini əhatə edən sistemli islahatlar, dövlət idarəçiliyində çağdaş yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Əminliklə deyə bilərik ki, Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən, məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin "Respublika Prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir" sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş Referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Dahi rəhbərin prokurorluğa olan diqqət və qayğısının davamı hesab edilən 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Həmin təntənəli yığıncaqda Ulu Öndərin "Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" sözləri bu gün də hər bir prokurorluq işçisi tərəfindən iftixar hissi ilə yad edilir.

Xüsusi qeyd edilməlidir ki, Ümummilli Lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi müstəsna əhəmiyyətə malik görüşü Azərbaycan Prokurorluğunun demokratik məzmunda yenilənməsinə və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratmışdır.

Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, bu sahədə işin təşkilinə məsul olan hüquq mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması və əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılmışdır.

Dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsi baxımından xüsusi önəmə malik bir addım olmuşdur.

Bu gün dövlət başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə müasir məzmunlu islahat tədbirləri davam etdirilməklə şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

Dövlət başçısı tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən səsləndirilən "Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq" sözləri prokurorluq orqanlarında beynəlxalq standartlara və milli dövlətçilik maraqlarına əsaslanmaqla müstəqil dövlətimizin müntəzəm irəliləyişlərlə müşahidə olunan dayanıqlı və davamlı tərəqqisinə adekvat dəyişikliyin aparılmasını zəruri etmişdir.

Cənab Prezidentin korrupsiyaya qarşı daha fəal iş görülməsi, struktur və kadr islahatları aparmaqla prokurorluğun yüksək standartlara və müasir tələblərə cavab verən qurum kimi formalaşdırılmasını tövsiyə etməsi, eləcə də ölkənin hazırkı inkişaf mərhələsində aktual olan məsələlərlə bağlı vurğuladığı digər vacib məqamlar prokurorluq orqanlarında cari islahatların ilkin mərhələsinin təməlini qoymuşdur.

Həmin görüşdən keçən qısa müddət ərzində prokurorluğun cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və keyfiyyətinin artırılması məqsədilə əsaslı struktur və kadr islahatları həyata keçirilmiş, funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə işin təşkilinə dair vahid mexanizmlər müəyyən edilmişdir.

Qeyd etməliyəm ki, dövlət başçısının rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, eləcə də, prokurorluğa ictimai etimadın gücləndirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi və müasir iş metodlarını tətbiq etməyə qadir olan kadr korpusunun formalaşdırılması ilə bağlı tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada davamlı və ardıcıl, müasir çağırışlara cavab verən islahatlar aparılmasın. Bu baxımdan, 2020-ci il prokurorluq orqanları üçün əlamətdar olmaqla prokurorluğun tərəqqi dövrü kimi tarixin yaddaşına həkk olunacaqdır. Cənab Prezident İlham Əliyev tərəfindən mayın 1-də Baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti vurğulanmaqla prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur.

Həmin vəzifələrin və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə geniş Fəaliyyət Planı təsdiq olunaraq görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmiş, çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Belə ki, prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə dövlət başçısı cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, bununla da Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq Baş prokurorun yeni müavini ştatı təsis edilmiş, daha mobil və dinamik idarəetmə məqsədilə Baş Prokurorluğun idarə və şöbələrinin sayı 15-dən 18-ə çatdırılmış, bəzi idarələr ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və informasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis olunmuş, həmçinin mərkəzi aparatın yeni, Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılmışdır.

Eyni zamanda Baş Prokurorluq üzrə müvafiq əmrlərlə prokurorluğun sisteminə daxil olan Azərbaycan Respublikasının Hərbi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi, Bakı şəhər prokurorluqlarının, eləcə də Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin yeni strukturu təsdiq edilmişdir.

Bundan əlavə, qısa müddət ərzində idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini təmin etmək üçün milli qanunvericiliyin tələbləri və beynəlxalq təcrübə nəzərə alınmaqla Baş Prokurorluq üzrə "İşin Təşkili Qaydaları" təsdiq edilməklə 1 avqust tarixindən qüvvəyə minmişdir.

Qaydalar səlahiyyətləri dəqiq təsbit edilmiş struktur qurumlar və rayon (şəhər) prokurorluqları arasında münasibətləri müasir tələblər səviyyəsində tənzimləmiş, həmçinin Qaydalarda Baş Prokurorluğun strukturuna daxil olmayan konkret vəzifənin icrası üçün təsis olunmuş *Ad hoc* qurumların funksiyaları təsbit olunmuşdur.

Qeyd edilməlidir ki, qaydaların hazırlanmasında prokurorluğun fəaliyyətində rəhbər tutulan normativ-hüquqi aktların əhəmiyyətli hissəsindən istifadə olunmuş, müasir tələblərə cavab verməyən, əhəmiyyətini itirmiş əmrlər isə ləğv olunmuşdur.

Baş Prokurorluğun və struktur qurumların "İşin Təşkili Qaydaları", eləcə də hazırlanmaqda olan "Azərbaycan Respublikası Prokurorluğunun Strateji İnkişaf Konsepsiyası" prokurorluq orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində uğurlu nəticələrin əldə olunmasına, fəaliyyətin təkmilləşdirilməsinə və səmərəliliyin artırılmasına şərait yaradacaqdır.

Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri Azərbaycanda həyata keçirilməkdə olan sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq daha intensiv xarakter almışdır. Ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi korrupsiyaya qarşı mübarizə tədbirləri konkret əməli-praktiki addımlarla müşayiət olunmuşdur.

Aparılan genişmiqyaslı islahatların digər istiqaməti kimi milyonlarla vətəndaşa xidmət göstərməklə dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasına mühüm töhfə verən, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayan "ASAN xidmət" mərkəzlərinin fəaliyyət coğrafiyasının daha da genişləndirilərək 20 mərkəzə çatdırılması, habelə yarandığı gündən keçən müddətdə xidmətə 38 milyondan çox müraciət daxil olması, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə DOST mərkəzlərinin fəaliyyətə başlaması Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində dövlət və cəmiyyət arasında olan həmrəyliyin bariz nümunəsidir.

Eyni zamanda ölkəmizdə həyata keçirilən hüquq islahatları mövcud sosial-iqtisadi tendensiyanı tamamlamaqla ona paralel aparılan və azad bazar iqtisadiyyatı prinsiplərinin təbiətinə uyğun olan bir konsepsiya şəklində reallaşdırılmışdır.

Təsadüfi deyil ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş uğurlar mötəbər beynəlxalq qurumların hesabatlarında da öz əksini tapmışdır.

"Beynəlxalq Şəffaflıq" təşkilatının (Transparency International) 2019-cu il üçün hesabatında Azərbaycanın Korrupsiya Qavrama İndeksi üzrə 26 pillə irəliləməsi bunun əyani təsdiqidir.

Bununla yanaşı, korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar hesab edilən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumlar tərəfindən də ölkəmizdə dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar və əldə edilən nailiyyətlər yüksək qiymətləndirilmişdir.

Belə ki, GRECO-nun 2019-cu il üzrə fəaliyyətini əks etdirən hesabatında Azərbaycana verilən yüksək qiymət bunu bir daha təsdiqləmiş, sənədə əsasən ölkəmiz verilmiş tövsiyələrin əksəriyyətini icra etməklə əldə olunan göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci, MDB ölkələri arasında isə 1-ci yerdə qərarlaşmışdır.

Göstərilən uğurların əldə olunmasında digər dövlət qurumları ilə yanaşı, prokurorluq orqanları tərəfindən də zəruri tədbirlərin görülməsi təmin olunmuş, Ulu Öndərin "Korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq mühafizə orqanlarından daha çox səmərəli iş tələb olunur" sözləri daim əsas götürülməklə bu sahədə kəsərli addımların atılması təmin edilmişdir.

Ötən ilin peşə bayramından keçən müddət ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 290 şəxs barəsində 194 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, ümumilikdə istintaqı yekunlaşmış işlər üzrə vurulmuş maddi ziyandan ibtidai araşdırma mərhələsində 65 milyon 510 min manatın ödənilməsi və 11 milyon 877 min manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Eyni zamanda koronavirus pandemiyası ilə əlaqədar dövlət səviyyəsində həyata keçirilən sosial-iqtisadi tədbirlərdən sui-istifadə edən vəzifəli şəxslərə, kölgə iqtisadiyyatı subyektlərinə, o cümlədən qara mühasibatlıq aparmaqla dövlət nəzarətindən və qeydiyyatından gizli şəkildə qanunsuz fəaliyyət göstərən möhtəkirlərə qarşı effektiv mübarizə tədbirləri aparılmaqdadır.

Qeyd edilənlərdən əlavə, son dövrlər geniş ictimai rezonansa səbəb olmuş yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin fəaliyyətində aşkar olunan qanunsuz hallarla əlaqədar Dövlət Təhlükəsizliyi Xidməti və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində başlanmış cinayət işləri üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Dövlət başçısı cənab İlham Əliyevin "Korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalı və bunun kökü kəsilməlidir" göstərişinə uyğun olaraq prokurorluq orqanları tərəfindən ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, sosial, iqtisadi və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Ölkəmizin möhkəm təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafı, milli dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən qorunması, kriminogen durumun nəzarətdə saxlanmaqla Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının təminatı dövlətimizin hüquq siyasətinin prioritetlərindəndir.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əldə olunan misilsiz nailiyyətlərin qorunmaqla davamlı uğurların əldə edilməsi prokurorluq orqanları tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni neqativ tendensiyalarla, mütəşəkkil, transmilli cinayətkarlıqla səmərəli mübarizə aparılmasını tələb edir.

Prokurorluğun istintaq qurumları tərəfindən cinayətlərin müəyyən edilməsi, qarşısının alınması, onu törədənlərə qarşı qanunla müəyyən edilmiş təsir tədbirlərinin tətbiq edilməsi üzrə effektiv fəaliyyətin təşkili qarşıda duran əsas vəzifələrdən biri hesab edilmişdir.

Bu məqsədlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər Prokurorluğunun İstintaq İdarəsi ləğv olunaraq, onların bazasında Baş Prokurorluğun İstintaq İdarəsi təşkil edilmiş, həmçinin prokurorluqda və müvafiq icra hakimiyyəti orqanlarında ibtidai araşdırmaya prosessual rəhbərlik və nəzarət funksiyaları Baş prokurorun 2 müavini arasında bölüşdürülmüş, rayon, şəhər və ərazi hərbi prokurorlarının prosessual müstəqilliklərini məhdudlaşdıran normalar ləğv olunmuşdur.

Həyata keçirilmiş islahatların və əməliyyat-axtarış fəaliyyətini yerinə yetirən orqanlarla işin düzgün təşkili nəticəsində cari ilin iyul ayının 14-dən 15-nə keçən gecə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasında bir qrup şəxs tərəfindən ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan əməllərin təşkil edilərək törədilməsi və sair faktlara dair ibtidai istintaqı aparılan cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin operativ surətdə müəyyənləşdirilməsi, ölkə xaricində yaşamaqla dövlətin konstitusiya quruluşunun əsaslarına, ictimai təhlükəsizliyə qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb olunmaları, ötən illərdən bağlı qalmış bir çox qəsdən adam öldürmə və digər cinayətlərin açılması təmin olunmuşdur.

Cinayətlərin strukturunda, dinamikasında və inkişaf meyillərində dəyişikliklərin baş verməsi cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının müasir metodlardan, üsul və vasitələrdən, elmi-texniki tərəqqinin nailiyyətlərindən daha geniş istifadəsini şərtləndirir.

Eyni zamanda müstəntiqlərin taktiki məharətlərinin artırılması, rəqəmsal və nano texnologiyaların imkanlarından geniş istifadə etməklə kriminalistik tədqiqatların aparılması və bu istiqamətdə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi ibtidai istintaqın yüksək standartlar səviyyəsində təşkilinə zəmin yaradacaqdır.

Bu sahədə həmçinin, müasir texnologiyanın inkişafı fonunda ortaya çıxan və əsasən qlobal internet məkanında inkişaf edən yeni növ iqtisadi cinayətlərə, kibercinayətkarlığa və kibertəhdidlərə qarşı mübarizə imkanlarının genişləndirilməsi məqsədilə aidiyyəti qurumlar və beynəlxalq tərəfdaşlarla zəruri tədbirlərin görülməsi planlaşdırılmışdır.

Qarşıdakı müddət ərzində nəzərdə tutulmuş tədbirlərin realizəsi cinayət işləri üzrə tez bir zamanda obyektiv həqiqətin müəyyən edilməsi, təqsirli şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi kimi ibtidai istintaqın qarşısında duran ən vacib vəzifələrin öhdəsindən layiqincə gəlməyə imkan verəcəkdir.

Cinayətlərin böyük qisminin latent şəraitdə törədilməsi nəzərə alınaraq istintaq orqanlarının əməliyyat-axtarış qurumları ilə qarşılıqlı əməkdaşlığı təkmilləşdirilməklə cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların kompleks analizi ölkədə kriminogen durumun istənilən səviyyədə qorunub saxlanmasına təminat yaradacaqdır.

Əminliklə qeyd etməliyəm ki, istintaq qurumlarının qarşısında duran vəzifələrin icrası cinayət təqibinin səmərəliliyinin artırılmasına, ölkədə ictimai-siyasi sabitliyi pozmaqla çirkin niyyətlərinə çatmağı hədəfləyən şəxslərin cinayətkar qəsdlərinin qarşısının alınmasına, bütövlükdə cəmiyyətimizin və dövlətimizin tərəqqisinə xidmət edəcəkdir.

Ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi prokurorluğun digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə birgə fəaliyyətinin əsasını təşkil etməkdədir.

Hüquq mühafizə orqanlarının fəaliyyətində məhkəməyədək aparılan təhqiqat və istintaqa prosessual rəhbərliyi, həmçinin qanunların icra və tətbiq olunmasına nəzarəti Konstitusiya ilə nəzərdə tutulmuş qaydada həyata keçirən prokurorluq orqanları dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Bu baxımdan hüquq normalarının pozulmasının müəyyən edilməsi və qarşısının alınması, ibtidai araşdırma zamanı süründürməçilik hallarına yol verilməməsi, cinayətlərin tezliklə və tam açılması, cinayət prosesi iştirakçılarının hüquqlarının qanunsuz məhdudlaşdırılmasına imkan verilməməsi prokurorun qanunla nəzərdə tutulmuş vəzifələrinin əsasını təşkil edir.

İbtidai araşdırmaya prosessual rəhbərliyinin məqsədi istintaqın yüksək peşəkarlıq səviyyəsində aparılmasının, qanun pozuntularına yol verilməsinin qarşısının alınmasının, cinayət əməli törətmiş hər bir şəxsin ifşa edilərək cinayət məsuliyyətinə cəlb edilməsinin, təqsiri olmayan şəxsin məsuliyyətə cəlb edilməməsinin, cinayət işlərinin tam və obyektiv araşdırılmasının təmin edilməsindən ibarətdir.

Qeyd edilməlidir ki, ibtidai araşdırmaya prosessual rəhbərlik istintaq orqanlarının fəaliyyətinin qanuniliyini təmin etməyin mühüm üsulu olmaqla prokurorluğun qarşısında duran əsas vəzifələrdən biri ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsindən ibarətdir.

Bununla yanaşı, cinayət prosesində prokurorun əsas funksiyalarından biri də cinayət barədə məlumat daxil olduğu andan işin məhkəməyə göndərildiyi vaxta qədər təhqiqat və ibtidai istintaq orqanlarının qanunlara əməl etməsi vəziyyətini izləməyə imkan verən prokuror nəzarəti fəaliyyətidir. Bu proses zamanı qanun pozuntularının qarşısını almaq, onları müəyyən etmək və aradan qaldırmaq, təhqiqat və istintaq orqanlarının qanunsuz hərəkətləri ilə fiziki şəxslərin pozulmuş hüquqları və qanuni mənafelərini bərpa etmək üçün prokurora qanunvericiliklə geniş səlahiyyətlər verilmişdir.

Prokurorluq, daxili işlər, dövlət təhlükəsizliyi, ədliyyə, gömrük, vergi, dövlət sərhəd və fövqəladə hallar orqanlarının prosessual fəaliyyətlərinin qanunauyğunluğunun təmin olunmasına yönəlmiş prokuror nəzarəti institutu cinayətkarlıqla mübarizədə və cinayət işləri üzrə aparılan ibtidai araşdırmada qanunçuluq prinsipinin möhkəmləndirilməsinə geniş imkan yaradır.

Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq, Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində və şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar,



eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə 2002-ci ildən başlayaraq keçirilən 21 müsabiqə əsasında hazırda prokurorluq işçilərinin 70 faizini təşkil edən gənc hüquqşünasların işə qəbul edilməsi aparılan uğurlu islahatların məntiqi nəticəsi olmuşdur.

Dövlət başçısının mayın 1-də Baş prokuror vəzifəsinə yeni təyinatla əlaqədar qəbul edərkən səsləndirdiyi "Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, həm də prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar" tövsiyəsi əsas götürülməklə qısa müddət ərzində aparılmış kadr islahatları nəticəsində müasir çağırışlara cavab verən və yüksək peşəkarlıqları ilə seçilən 100-dən artıq prokurorluq işçisi, o cümlədən dövlətimiz tərəfindən həyata keçirilən gender bərabərliyi siyasətinin uğurlu davamı kimi 8 qadın əməkdaş rəhbər vəzifələrə təyin edilmişlər.

Bununla yanaşı, təəssüflə qeyd etməliyəm ki, ötən peşə bayramından keçən dövr ərzində öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən, nəzəri və peşə hazırlığını artırmaq üçün səy göstərməyən 52 əməkdaş intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 8-i tutduğu vəzifədən azad edilmiş, 4-ü isə prokurorluq orqanlarından xaric olunmuşdur.

Prokurorluğun kadr korpusunun keyfiyyətinin artırılması və vəzifədə irəli çəkilmə üçün kadr ehtiyatının formalaşdırılması, müxtəlif nəsil prokurorluq işçiləri arasında sağlam varisliyin təmini, perspektivli gənc mütəxəssislər hesabına yenilənmə, kadr siyasətinin günün tələbləri, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla ədalət və şəffaflıq meyarları əsasında həyata keçirilməsi prioritet hədəflərdir.

Diqqətə çatdırmalıyam ki, hüquqi biliklərlə yanaşı, geniş dünyagörüşünə, xüsusilə xarici dil biliklərinə yiyələnmiş mənəvi keyfiyyətləri ilə seçilən gənc hüquqşünasların prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq məqsədilə 80 ştat vahidi üzrə cari ildə elan edilmiş müsabiqə ilə bağlı sənəd qəbulu davam etdirilir.

Eyni zamanda 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi ilə əlaqədar "könüllülük hərəkatının" prokurorluqda da davamlılığının təmin olunması məqsədilə hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclərin institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili üçün 162 tələbənin ictimai köməkçi qismində prokurorluq orqanlarının fəaliyyətinə cəlb edilməsi təmin edilmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsi, hüquq elminin inkişafı və Avropa hüquq təcrübəsinin tətbiqi ilə əlaqədar prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması vacib istiqamətlərdən biridir.

Prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə yaradılmış Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti bu cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Prokurorluq işçiləri ilə yanaşı, hüquqşünas alimlər, dövlət qurumlarının əməkdaşları və digər mühafizə hüquq orqanlarının təcrübəli işçilərindən ibarət şura ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasını, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarının müəyyən edilməsini təmin edəcəkdir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə ölkəmizin aparıcı elm və təhsil, eləcə də bu sahədə qabaqcıl təcrübəsi olan ölkələrin tədris müəssisələri, hüquq mühafizə orqanlarının akademiyaları ilə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün zəruri tədbirlər görülməkdədir.

Ölkəmizin dünya birliyinə inteqrasiyası, artan qloballaşma meyilləri və informasiya texnologiyalarının sürətli inkişafı fonunda cinayətkarlığın yeni formalarının qarşısının dövlətlərin birgə səyi nəticəsində alınmasının mümkünlüyü hüquq mühafizə orqanlarının, o cümlədən Azərbaycan Respublikası Prokurorluğunun digər ölkələrin müvafiq qurumları ilə sıx əməkdaşlıq etməsini, beynəlxalq təşkilatlarda iştirakını zəruri edir.

Beynəlxalq qurumlarla və tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilərək ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə beynəlxalq müqavilə və konvensiyalarda təsbit edilmiş öhdəliklərin icrasında öz səlahiyyətləri çərçivəsində fəal iştirak edən prokurorluq orqanları tərəfindən əməkdaşlığın genişləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi davam etdirilmişdir.

Koronavirus pandemiyasının yaratdığı məhdudiyyətlərə baxmayaraq, ötən illərdə olduğu kimi, müxtəlif beynəlxalq təşkilatlarla - Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) və digərləri, eləcə də bir çox ölkələrin prokurorluq orqanları ilə əməkdaşlıq uğurla davam etdirilmiş, prokurorluq işçiləri videoformat rejimində çoxsaylı tədbirlərdə iştirak etməklə ölkəmizi təmsil etmişlər.

Qeyd edilməlidir ki, pandemiyanın digər sahələrdə olduğu kimi, xüsusilə ekstradisiya məsələlərində çətinliklər yaratdığı bir zamanda prokurorluq orqanları tərəfindən digər aidiyyəti qurumlarla birgə zəruri tədbirlər görülərək cinayət törətməklə istintaqdan gizlənmiş şəxslərin Azərbaycana ekstradisiya olunmaları təmin edilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeyinin möhkəmləndiyi, ikitərəfli və regional əməkdaşlıq sahəsində böyük uğurlar əldə edildiyi bir şəraitdə ölkə prokurorluğunun beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi, dünya dövlətlərinin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Günümüzün prokurorluq orqanları qarşımızda duran mühüm vəzifələrin əhəmiyyətini anlayaraq "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə səmərəliliyə və operativliyə nail olunmasını, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təminini diqqət mərkəzində saxlamaqla işin keyfiyyətcə yeni mərhələyə qalxmasını və daha çevik yerinə yetirilməsini əsas tələblər kimi müəyyənləşdirmişdir.

Prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cəzanın labüdlüyü prinsipinin təmin olunması, vətəndaşların pozulmuş hüquqların təxirə salınmadan bərpası üçün effektiv fəaliyyət mexanizminin qurulması üçün zəruri tədbirlər həyata keçirilməkdədir.

Prokurorluq işçiləri bundan sonra da ölkəmizdə həyata keçirilən hüquqi dövlət quruculuğu prosesində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində fəal iştirak edərək, ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun və təhlükəsizliyin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə tam gücləri ilə işləyərək dövlətimizin daha da inkişafına xidmət göstərəcəklər.

*Sonda dövlət başçısını və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, prokurorluq orqanları millətimizin vətən müharibəsi üçün səfərbər olduğu belə bir həssas və çətin dönəmdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri üçün bütün imkanlardan istifadə olunmaqla lazımi tədbirlərin görülməsini təmin edəcəklər.*

***Kamran ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Baş prokuroru,***
***II dərəcəli dövlət ədliyyə müşaviri***

# Vətən müharibəsi zəfərlə başa çatacaq!

## Əmrinizə müntəzirik, cənab Ali Baş Komandan!

### Böyük qələbənin sevinci hərbçi peşəsini özlərinə ömür yolu seçən gənc kursantların döyüş əzmini daha da yüksəltdi

**Ermənistan silahlı birləşmələrinin təmas xəttindəki təxribatlarına qarşı əks-hücumla cavab verən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi.**






Aprel, Günnüt və Tovuz zəfərlərindən sonra ordumuz son iki gündə həyata keçirdiyi genişmiqyaslı əməliyyatlarla tarixləşən qələbə qazandı. İşğal altında olan kəndlərimiz, vacib yüksəkliklərimiz düşmən tapdağından təmizləndi. Bu gün Azərbaycan xalqı bu tarixi zəfərin sevincini yaşayır və davam edən hərbi əməliyyatlarda Ordumuza inanır, güvənir.

### Vətənə, dövlətə və xalqa sədaqətlə xidmət

O ordu qüdrətlidir ki, onun sıralarında peşəkar və sağlam mənəviyyata malik olan vətənpərvər əsgərlər, zabitlər xidmət edir. Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hərbçi vətənpərvərlik duyğusunu, Vətənə, torpağa, müstəqil dövlətə, xalqa sədaqət hissini hər şeydən üstün tutmalıdır.

Zabit adını daşımaq isə böyük məsuliyyətdir. Peşə vərdişi, fiziki və nəzəri hazırlığı ilə bərabər zabit həm də mənəvi keyfiyyətləri ilə seçilməli, tariximizi, dəyərlərimizi və qəhrəmanlıq ənənələrimizi mükəmməl öyrənməli, rəhbərlik etdiyi şəxsi heyətin bu əsasda mənəvi-psixoloji hazırlığına nail olmalıdır.

Azərbaycanın qüdrətli ordusunda xidmət edən zabitlərin qarşısında bir əsas vəzifə durur: Təhsil aldıqları hərbi liseylərin, akademiyaların adına layiq peşəkar hərbi qulluqçu kimi yetişmək və Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət etmək.

Elə Heydər Əliyev adına Ali Hərbi Məktəbin gənc kursantları, gələcəyin zabitləri də Vətənə, dövlətə sədaqət andı içərək Azərbaycan mənafeyini, ərazi bütövlüyü və müstəqilliyini şərəflə qoruyacaqlarını, bundan ötrü qanlarını, canlarını əsirgəməyəcəklərini bəyan etdilər.

Andiçmə mərasimində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra hərbi orkestrin müşayiəti ilə şəxsi heyətin ifasında Dövlət himni səsləndirildi, məktəbin döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildi.

Təntənəli mərasimdə çıxış edən məktəbin rəis müavini, polkovnik Emin Səfərov hərbi andı qəbul edən kursantları təbrik etdi, daim Vətənin keşiyində cəsarətlə dayanmağı, çətin və şərəfli hərbi xidmətdə uğurlar arzuladı.

Qeyd edildi ki, hərbçi peşəsini özlərinə ömür yolu seçən gənc kursantlar ali məktəbdə təhsili və nizam-intizamı ilə seçilməlidirlər. Kursantlar burada hərb sənətinə dərindən yiyələnəcək, yeni texnologiyaları, müasir silahları, hərbi texnikanı mükəmməl mənimsəyəcək, dünyagörüşlərini daim artıracaqlar.

Ulu Öndərin Azərbaycanda başlatdığı hərbi quruculuq siyasəti bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan bölgənin ən güclü ordusuna sahibdir və Silahlı Qüvvələrimiz istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdi. Ordumuzun son uğurlu əməliyyatları da bunu bir daha təsdiqləyir.

Bununla yanaşı, dövlət başçısının tapşırığına uyğun olaraq ordumuz mütəmadi olaraq genişmiqyaslı təlimlər keçirir. Müharibə şəraitində yaşadığımız bir vaxtda ordumuzun daha da güclənməsi ən ümdə vəzifədir. Bu məqsədlə son illərdə Silahlı Qüvvələrimizə böyük maliyyə vəsaiti ayrılır, yeni hərbi hissələr tikilərək istifadəyə verilir, bununla da ordumuzun maddi-texniki bazası daim gücləndirilir.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpaqlarıdır və biz mütləq öz yurdumuza qayıdacağıq. Dağıdılmış bütün abidələr və evlər yenidən bərpa ediləcək, adları dəyişdirilmiş kəndlərimizə öz əsl adları qaytarılacaq.

Polkovnik vurğuladı ki, sədaqətli olmaq Vətən və xalq qarşısında borcunu şərəflə, vicdanla, fədakarlıqla yerinə yetirmək deməkdir. Məktəbin məzunu olmuş yüzlərlə zabitin döyüş meydanlarında göstərdikləri hünər və rəşadət məhz Vətənə sədaqət duyğusundan güc alıb. Onların bir qismi canlarını fəda edib, qəhrəmanlıq zirvəsinə ucalıblar. Ərazi bötüvlüyümüz uğrunda gedən döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə məzunların çoxu Milli Qəhrəman və digər fəxri adlara layiq görülüblər. Məktəbin gənc kursantları da onların göstərdikləri igidlikdən nümunə götürməyə, Vətənə onlar kimi xidmət göstərməyə çalışırlar.

Ali məktəbin rəis müavini kursantların valideynlərinə də səsləndi: "Sədaqətli övladlar tərbiyə etdiyinizə, bu şərəfli yolu seçməkdə kömək göstərdiyinizə görə sizə təşəkkür edirəm və əmin edirəm ki, gənc kursantlarımızın doğma torpaqlarımıza layiqli zabit kimi yetişmələri üçün əlimizdən gələni edəcəyik".

### Güclü elmi-tədris bazası, yüksəkixtisaslı hərbi-pedaqoji heyət

Bu gün Ali Hərbi Məktəbdə kursantların zabit kimi hazırlanması üçün ən yüksək standartlara cavab verən şərait yaradılıb. Burada güclü elmi-tədris bazası və yüksəkixtisaslı hərbi-pedaqoji heyət formalaşdırılıb. Məktəbin zabit-gizir, professor-müəllim heyəti gənc kursantların Vətənin layiqli müdafiəçiləri kimi yetişmələri üçün qabaqcıl təcrübədən və səmərəli metodlardan bacarıqla istifadə edirlər.

Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 23 hərbi ixtisas üzrə zabitlər hazırlanır. Məktəbin məzunlarına təhsil aldıqları ixtisaslara uyğun bakalavr diplomu və leytenant hərbi rütbəsi verilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlər Silahlı Qüvvələrimizi yeni inkişaf mərhələsinə yüksəltməklə yanaşı, həm də dövlət-xalq-ordu birliyini daha da möhkəmləndirir. Hərbi qulluqçuların xidməti və yaşayışı üçün hərtərəfli şərait yaradılır, infrastruktur yenilənir, maddi-texniki təminat gücləndirilir.

Nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza, ixtisaslı hərbçi kadrların hazırlanması üçün lazımi imkanların getdikcə artması da məktəbə qəbul olunmaq üçün müraciət edənlərin sayının ilbəil çoxalmasına səbəb olan reallıqdır.

Əminliklə deyə bilərik ki, gənc kursantlar Ulu Öndər Heydər Əliyevin adını daşıyan hərbi məktəbin şərəfini daim uca tutacaq, qarşıdakı təhsil illərində də yüksək bilik və hərbi intizamla öndə gedəcəklər.

### Hər bir zəfər qələbə ruhunu dönməz edir

Azərbaycan Ordusunun son zəfəri, işğal altında olan 7 kəndimizin, Murovdağ yüksəkliyinin azad edilməsi, əlbəttə ki, gənc kursantlarımızı da qürurlandırıb və onların böyük sevincinə səbəb olub. Ordumuzun belə zəfərləri ilk növbədə, gələcəyin zabitlərinin vətənpərvərlik hissini, döyüş əzmini yüksəldir.

Ali Baş Komandan, Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, ölkəmizdə qismən səfərbərlik elan edilib. Qürurludur ki, hər bir hərbi mükəlləfiyyətli bu gün ordu sıralarına qoşularaq böyük qələbənin iştirakçısı, həm də müjdəçisi olmaq istəyir.

Hər bir zəfər qələbə ruhunu yüksəldir. Bu gün Silahlı Qüvvələrimizin bütün hərbi qulluqçuları, hərbi məktəblərin gənc kursantları Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa, torpaqlarımızı tamamilə işğaldan azad etməyə hazırdırlar və Ordumuz Böyük Qələbəni qazanmağa qadirdi. Ordumuzun zəfəri isə bir daha göstərdi ki, bayrağımızın Şuşada dalğalanacağı günə çox yaxınıq.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



## Qələbə ilə qayıdacağıq!

### Çağırışçılar hərbi hissələrə yola düşdülər

Bir neçə gündür respublikamızda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələrinin qarşısında qələbəlikdir.









Ermənistanın Azərbaycana qarşı sentyabrın 27-də başlatdığı növbəti hərbi təxribatdan sonra minlərlə vətəndaş silaha sarılmaq, torpaqlarımızın azadlığı uğrunda döyüşmək üçün müraciət edir.

Bu proses isə hələ iyul ayından başlayıb. Ermənistanın Tovuz rayonuna hücumundan sonra on minlərlə vətəndaşımız könüllü şəkildə ordu sıralarına qoşulmaq, cəbhədə düşmənlə döyüşmək əzmini ortaya qoydu. Təkcə bu ilin iyul ayında İlham Əliyevin çağırışına səs verən 55 mindən çox vətən oğlu respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün arzusunu ifadə etdi. Onlar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində (SHXÇDX) qeydiyyata alındılar.

Bu günlərdə SHXÇDX-nin idarə və şöbələrinin qarşısında yaşanan qələbəlik həm də Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 28 sentyabr tarixli fərmanına əsasən ordu sıralarına çağırılan oğullarımızın yola salınması ilə bağlıdır. Dünən SHXÇDX-nin Bakı şəhəri Nəsimi rayon idarəsinin qarşısına toplaşan yüzlərlə insan çağırışçıları yola salırdılar. Kimisi övladını, kimisi qardaşını, kimisi dostunu yola salmaq üçün gəlmişdi.

İdarənin qarşısında qürur doğuran mənzərə yaranmışdı. Hər kəsin üzündə sevinc var idi, hər kəs qələbəyə köklənmişdi. Çağırışçılar alqış sədaları altında, valideynlərin xeyir-duası ilə avtobuslara minib yola düşürdülər.

Ordu sıralarına yola düşən çağırışçıların bəziləri ilə söhbət etməyə imkan tapdıq. Respublikamızda hərbi vəziyyətin elan olunmasını və bu şəraitdə informasiya məxfiliyinin qorunmasının vacibliyini nəzərə alaraq onların adlarını vermirik. Söhbətləşdiyimiz 27 yaşlı çağırışçı deyir ki, hərbi xidmətini vaxtilə cəbhə xəttində çəkib, Ermənistanın iyul təxribatından sonra isə könüllü şəkildə döyüşmək üçün müraicət edib: "Cəbhə xəttində xidmət keçərkən ən böyük istəyim Ermənistana qarşı döyüşmək idi. Ona görə iyul ayında dərhal döyüşmək üçün müraciət etdim. Hərbi xidmətə çağırıldığım üçün çox qürurluyam. Mütləq Qələbə ilə qayıdacağıq. Çünki yüksək vətənpərvərlik əzmimizin, döyüş ruhumuzun qarşısında düşmən heç vaxt duruş gətirə bilməz".

Söhbətləşdiyimiz digər çağırışçının 25 yaşı var, ali təhsillidir. Deyir ki, cəbhədə qızğın döyüşlərin getdiyi indiki şəraitdə hər kəs ordumuza dəstək olmalıdır: "Mən də əlimə silah götürüb döyüşməklə ordumuza dəstək olmaq istəyirəm. Düzdü, ordumuz güclüdü, şəxsi heyət baxımından sıraları kifayət qədər möhkəmdir. Bununla belə bizim ordu sıralarına çağırılmağımız olduqca mühümdür. Təlimdən sonra komandirlərimdən cəbhə xəttinə göndərilməyimi xahiş edəcəm. İnşallah, xalqımızı qələbə ilə sevindirəcəyik".

İdarənin qarşısında iki gəncin həyəcanlı mübahisəsi diqqətimizdən yayınmadı. Əvvəlcə onları çağırışçıların yaxınları zənn etdik. Öyrəndik ki, müharibənin başlamasından sonra hər ikisi cəbhədə döyüşmək üçün müraciət edib. Onları qeydə alıblar, lakin ordu sıralarına çağırışın plan əsasında həyata keçirildiyini deyiblər. Çağırılıb çağırılmayacaqları isə bilinmir... Bəli, gənclərin əsəbi hansısa problem yox, vətənpərvər olmaları ilə bağlı idi. Problem isə təki bu olsun...

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Hər bir azərbaycanlının hədəfi, amalı, arzusu

**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən etibarən genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutması ilə bağlı bəyanat yayıb.**

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu dərhal genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayıb. Düşmən qısa müddətdə layiqli cavabını alıb, böyük itkilər verib. Azərbaycan Ordusu uğurlu əməliyyat nəticəsində 7 kəndi, Murov dağı silsiləsindəki Murov zirvəsini və Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəkliyi işğalçılardan azad edib.

"Ordumuzun zəfərlərindən qürur duyaraq, uzun illərdir bütün sahələrdə yüksək fəallıq göstərən gənclərimiz, saysız-hesabsız beynəlxalq yarışda qələbələr qazanıb, bayrağımızı yüksəldərək himnimizi səsləndirən idmançılarımız adından bildiririk ki, biz Prezident İlham Əliyevin siyasətini hər zaman olduğu kimi dəstəkləyirik. Hər bir gəncimiz, yaşından asılı olmayaraq, idman ictimaiyyətinin hər bir üzvü Ali Baş Komandanın ətrafında sıx birləşib, istənilən an ordumuza qoşulmağa, ön cəbhədə döyüşməyə hazırdır.

Bu işğala son qoyulmalıdır və qoyulacaq. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər qazanacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır! Ali Baş Komandanın bu sözləri hər bir azərbaycanlının hədəfi, amalı, arzusudur", - deyə bəyanatda qeyd edilib.

## Cəbhə bölgəsində yüksək əhvali-ruhiyyə yaşanır



**Ölkəmizdə uzun müddət həsrətində olduğumuz yüksək əhvali-ruhiyyə yaşanır. Hamı bir-birini təbrik edir, gözaydınlığı verir. Uzun illərdir bu günün intizarını çəkirik. Səbir kasamız dəfələrlə dolub-boşalsa da, dözmüşük, əlverişli zamanın, sərfəli məqamın yetişəcəyi anı gözləmişik.**

Bu da gözlənilən an! Cəbhədən alınan qələbə soraqlı xəbərlər bu elin, bu obanın uşaqlı-böyüklü hər bir övladının ürəyində qürura çevrilir. Şanlı Ordumuzun zəfər yürüşüdür bu qüruru doğuran. Qəhrəman Azərbaycan əsgərinin güclü əks-həmlələri ilə yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələrinin işğalından azad edilir, müqəddəs bayrağımız bölgənin ən uca zirvəsi olan Murovdağ yüksəkliyinə sancılır -bundan sevincli xəbər olarmı...

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nikbin qələbə notları ilə dolu müraciəti başladığımız müqqədəs savaşın ədalətli məqsəd və məramlarını bir daha bütün dünyaya bəyan etdi. Xalqımızın bildiyi həqiqətləri dünya ictimaiyyəti bir daha eşitdi. Eşitdi ki, bizim özgə torpaqlarında gözümüz yoxdur, amma doğma Vətənimizin bir qarış torpağının da erməni işğalında qalması ilə barışa bilmərik. Dövlət başçısının inamla vurğuladığı bu məram indi Vətən sevdalı milyonların dilində səslənən azadlıq simfoniyasının nəqarətinə çevrilib.

Bəli, ölkəmizdə müharibə gedir. Azərbaycan əsgəri 30 ilə yaxın bir zaman ərzində erməni işğalı altında qalan Vətənimizin ərazi bütövlüyünü bərpa etmək uğrunda müqəddəs savaşa atılıb. Bu, Vətən müharibəsidir! Bu, bizim haqqımızdır və bu haqqı bizdən kimsə ala bilməz!

Uğurlarımız, üstünlüyümüz göz önündədir bu müqəddəs savaşda. Düşmənlərimizi əsgər və döyüş texnikası sarıdan böyük itkilərə məruz qoyuruq. Azərbaycan əsgəri müqavimət göstərən düşmən ordusunu vurur, atəş nöqtələrini zərərsizləşdirir. Ermənistan ordusu isə kəndlərimizi, şəhərlərimizi, mülki əhalimizi hədəf alır, evləri, məktəbləri xəstəxanaları dağıdır. Biz Vətənimizi işğaldan azad edirik. Düşmənlərimiz isə Azərbaycan ərazilərini işğal altında saxlamağa cəhd edir. Amma unudur ki, artıq 90-cı illər deyil. Zaman da, qüvvələr nisbəti də dəyişib. Azərbaycan ötən illər ərzində güclü, modern ordu yaradıb. Bu ordu indi döyüş meydanında gerçək bir qəhrəmanlıq nümunəsi göstərir. Ordusuna güvənən xalqımız isə tezliklə bayrağımızın bütün işğal altındakı ərazilərdə dalğalanacağına şübhə etmir.

Bu gün itkilərimiz olsa da, düşmən mərmiləri evlərimizi dağıtsa da, hər kəs qürurludur. Şəhid atası da, evi yerləyeksan olan ailə başçısı da "Təki Vətən sağ olsun!" deyir. Bu gün xalqımız öz ordusu ilə nəfəs alır. Ordu isə döyüş meydanında qazandığı zəfərlərlə xalqa əvəzedilməz hisslər yaşadır.

Zəfərin mübarək, Azərbaycan əsgəri!

***Lazım QULİYEV, "Azərbaycan"***

## Yurd həsrətimizə son qoyulacağı günə çox qalmayıb

Artıq 30 ildir ki, torpaqlarımızın işğal altında olduğunu bütün dünya bilir. Amma elə həmin dünyanın gözü qarşısında Azərbaycanın haqq səsi eşidilmir, yaxud çoxları özünü eşitməməzliyə vurur. Zərbəsi bizə dəyib - neçə ildir elimizdən, obamızdan ayrı düşmüşük.

İşğalda olan rayonlardan biri də Qubadlıdır. Camaatımız mərddir. 1993-cü ildən bəri çətinliklərə dözüb, amma Vətən sevgisi sönməyib. Bu duyğu həmişə bizimlədir - yollarımız bir gün açılacaq və torpaqlarımıza qayıdacağıq.

Ötən illər ölkəmiz ayağa qalxmış, inkişaf etmişdir. Düşmənlərimiz özlərini bizim torpaqların sahibi kimi aparmağa çalışsalar da, atın izinin itin izindən böyük və dərin olduğunu unudublar. Elə şeylər var ki, onların ömrü vaxtnandır. Zaman keçir, hər iş aydınlıq tapır.

Doğulub böyüdüyüm Qubadlı rayonu Qarabağın gözəl məkanlarındandır. İnsanlar dağların havasını udur, təbiətin buralara bəxş etdiyi gözəlliklərlə fəxr edirdilər. Şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan Zəngilanla həmsərhəd olan rayonumuz tarixi-mədəni, dini abidələrlə zəngin idi. Burada IV əsrə aid "Gavur dərəsi" ibadətgahı, "Qalalı" və "Göyqala" abidələri, "Dəmirçilər türbəsi" və digər tarixi abidələr vardı. Təəssüf ki, erməni qəsbkarları həmin abidələri talan edərək dağıtmışlar.

Bədnam qonşularımızın torpaq iddiası üzündən cəlb olunduğumuz münaqişə quruculuq işlərinə əngəl törətdi, rayonu müharibə meydanına çevirdi. Qaçaq Nəbinin, Həcərin qəhrəmanlıq ənənələrini davam etdirən igid döyüşçülərimiz Əliyar Əliyev, Kazımağa Kərimov, Aqil Məmmədov, Vasili Əliyev, Kərəm Mirzəyev, Bəylər Ağayev, Aslan Atakişiyev, Ələkbər Əliyev, Səfa Axundov şəhidlik zirvəsinə qalxaraq göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görüldülər.

Keçən illər ərzində bir an da olsun qəlbimizdən yurd sevgisi azalmayıb. Məskunlaşdığımız rayonlarda daim vətənimizin torpaqlarının azad olacağı günü səbirsizliklə gözləmişik. Rayonumuzun gənclərini öz torpaqlarını sevmək hissi ilə böyütmüşük.

Son günlər ermənilərin törətdiyi təxribata cavab olaraq Ordumuzun uğurlu əks-hücumu düşmənin yerini özünə göstərir. Ali Baş Komandanın əmri və ordumuzun şücaəti sayəsində bütün Azərbaycanın gözlədiyi gün gəlib. Yağı düşmən layiqli cəzasını alır. Qubadlı sakinləri son nəfərinə kimi Ali Baş Komandanla, Ordumuzla birlikdədir.

Qubadlının qocalı-cavanlı bütün sakinləri müzəffər Ordumuzun qələbəsini yaxınlaşdırmağa hazırdır. Bir nəfər kimi silahlanıb cəbhəyə getməyə hazırıq. Təki, tezliklə Azərbaycan torpaqları işğaldan azad edilsin və üçrəngli bayrağımız Qarabağda dalğalansın. Qoy, bütün dünya bilsin ki, Qarabağ Azərbaycandır və bu ədaləti bərpa edən Ali Baş Komandanımız, güclü Ordumuz var. Gələcək bizim, Qələbə bizimlədir!

***Nəriman HƏMİDOV, Qubadlı rayon ağsaqqalı***

## Müdafiə Nazirliyi xəbər verir

# Azərbaycan Ordusunun qətiyyətli əks-hücum əməliyyatı davam edir

**İşğal edilmiş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı davam edir. İtirilmiş mövqeləri geri qaytarmaq məqsədilə Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən hücuma cəhd göstərib və Goranboy rayonunun Aşağı Ağcakənd kəndini atəşə tutub. Lakin düşmənin bu fəaliyyətinin qarşısı alınıb.**

*Düşmənin ümumilikdə:*

- **2300-dən artıq canlı qüvvəsi məhv edilib və yaralanıb;**
- **130-dək tank və digər zirehli texnikası;**
- **200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;**
- **25-dən çox hava hücumundan müdafiə vasitələri;**
- **6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri;**
- **5 silah-sursat anbarı;**
- **50-dən artıq tank əleyhinə vasitələr;**
- **55-dən artıq avtomobil texnikası;**
- **8 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.**

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 30-da keçirilən brifinqdə deyib.

A.Eyvazov bildirib ki, az əvvəl Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edib. Lakin düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlərdən üçü partlamayıb. Azərbaycan Ordusunun dəqiq atəş zərbələri ilə Ermənistan ordusunun Xocavənd rayonunun Şuşakənd ərazisində düşmənin bir ədəd S-300 zenit-raket qurğusu sıradan çıxarılıb.

Məlumat verilib ki, Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunun Həsənqaya yaşayış məntəqəsi yaxınlığındakı 5-ci motoatıcı alayının 1-ci taboru və Talış istiqamətində yerləşən 6-cı motoatıcı alayının 1-ci taborunun mövqeləri dağıdılıb. Düşmənin cəbhənin Cəbrayıl rayonu istiqamətində döyüş texnikaları məhv edilib. Ermənistan silahlı bölmələrinin Füzuli istiqamətində yerləşən 4-cü taboru ağır artilleriya atəşinə tutulub. Həmçinin 18-ci motoatıcı diviziyasının 41-ci əlahiddə alayının komanda məntəqəsinə atəş zərbəsi endirilib. Qoşunların idarə edilməsi tam pozulub. Bundan başqa, Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağ atıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağ atıcı alayının 2-ci taborunun şəxsi heyəti ağır itkilərə məruz qalaraq müdafiə mövqelərini özbaşına tərk edərək qaçıb. Həmin diviziyanın Ağdərə yaşayış məntəqəsində yerləşən 5-ci dağ atıcı alayının qərargahına zərbə endirilib.

Müdafiə Nazirliyinin Mətbuat katibi deyib ki, əks-hücum əməliyyatı başlayandan indiyədək düşmənin ümumilikdə 2300-dən artıq canlı qüvvəsi məhv edilib və yaralanıb. Həmçinin 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dən çox hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dən artıq tank əleyhinə vasitələr, 55-dən artıq avtomobil texnikası, 8 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

Hazırda cəbhənin Ağdərə-Tərtər istiqamətində mühasirəyə alınan Ermənistan silahlı qüvvələri bölmələrinin artilleriya vasitələri ilə məhv edilməsi və ərazinin təmizlənməsi əməliyyatı davam edir. Canlı qüvvə və döyüş texnikası baxımından ağır itkilərə məruz qalan düşmən ölən və yaralıların təxliyəsini təşkil etməkdə aciz qalıb.

Anar Eyvazov qeyd edib ki, işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində döyüşlərdə əldə edilən qələbələr xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. On minlərlə azərbaycanlı Müdafiə Nazirliyinə müraciət edərək əsgərlərimizlə birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiklərini bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi adından Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə onlara təşəkkür edir və döyüşlərə qoşulmaq istəyən hər kəsə dərin minnətdarlığımızı çatdırırıq. Onların aidiyyəti üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsini tövsiyə edirik. Qələbə bizimlədir!

# Hərbi vəzifəlilərin hərbi hissələrə yola salınması davam etdirilir

**Bu günlərdə sarsılmaz xalq-ordu birliyi, həmrəyliyi nümayiş etdirən vətəndaşlarımız cəsur oğullarını Azərbaycan Ordusu sıralarına təntənə ilə yola salmaqdadır.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Sərəncamının icrası istiqamətində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vəzifəlilərin hərbi hissələrə yola salınmasını təmin etmək üçün zəruri tədbirləri operativ qaydada həyata keçirir.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, respublikanın şəhər və rayonlarında qismən səfərbərlik üzrə hərbi xidmətə çağırılan vətəndaşlarımız qurumun yerli struktur bölmələrinə böyük ruh yüksəkliyi ilə gəlirlər. Hərbi vəzifəlilər cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatı həyata keçirərək düşmənə sarsıdıcı zərbələr vuran Azərbaycan Ordusu sıralarına qələbə əhvali-ruhiyyəsi ilə yola düşürlər. İnsanların izdihamla, sevgi ilə bu tədbirlərdə iştirakı xalqımızın Ordumuza və Ali Baş Komandana böyük inamının göstəricisidir.

Bu gün hamının bir istəyi var: torpaqlarımızı düşmən tapdağından azad etmək!

Vətəndaşların hərbi xidmətə çağırılması müvafiq normativ-hüquqi aktlara əsasən həyata keçirilir. Bununla belə, Xidmətin aparatına, yerli idarə, şöbə və bölmələrinə, elektron resurslarına könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və əsgərlərimizə lazımi kömək göstərmək istəyən böyük sayda vətəndaşlarımız tərəfindən müraciətlər daxil olmaqdadır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə, özünə mənəvi borc bilən vətəndaşlarımıza göstərdikləri yüksək vətənpərvərliyə görə bir daha təşəkkürünü bildirir.

# Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət edib

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz nazirliyə müraciət edərək Ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiklərini bildiriblər.

"Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstəyinə görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır.

Bildiririk ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər. Qələbə bizimlədir! Vətən torpaqları işğaldan azad ediləcəkdir!", - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilib.

## Düşmən taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib

Sentyabrın 30-da Ağdərə (Madagiz) istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Ermənistan ordusunun "Toçka-U" kompleksindən atdığı raketlərdən üçü partlamayıb

Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksindən istifadə edib. Lakin düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlərdən üçü partlamayıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Mətbuat xidməti partlamayan raketlərdən birinin fotoşəklini təqdim edib.

# Erməni faşistləri Qazyan kəndində dinc sakinlərin evlərini artilleriyadan atəşə tutub

Erməni silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində Tərtərin Qazyan kəndində mülki sakinlərin evlərinə ciddi ziyan dəyib, infrastruktur sıradan çıxıb.

AZƏRTAC xəbər verir ki, düşmən məqsədli şəkildə mülki əhalini hədəf alır. Kənd sakini Müşfiq Axundov bildirib ki, kənddə demək olar ki, bütün evlərə zərər dəyib: "Kəndimizə təkcə ötən gün onlarca evə mərmi düşüb. Ordumuza güvənirik, Allah hərbçilərimizi qorusun. İnşallah, qələbə bizim olacaq!"






# Ermənistanın Avropa Məhkəməsindən siyasi məqsədlərlə istifadə etmək cəhdi onun özünün əleyhinə çevrilib

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 29 sentyabr tarixli qərarı ilə bağlı açıqlama yayıb.**

XİN-dən AZƏRTAC-a bildiriblər ki, açıqlamada deyilir: "Sentyabrın 29-da İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistan hökumətinin verdiyi şikayətə cavab olaraq Məhkəmə Reqlamentinin 39-cu qaydasına müvafiq qərar qəbul edib. Həmin qərarda Avropa Məhkəməsi həm Ermənistanı, həm də Azərbaycanı mülki əhalinin Konvensiya hüquqlarının pozulmasına gətirib çıxara biləcək tədbirlərdən çəkinməyə dəvət edir.

Beləliklə, Ermənistanın hüquqi müstəvi təşkil edən Avropa Məhkəməsindən siyasi məqsədlərlə istifadə etmək cəhdi elə məhz onun özünün əleyhinə çevrilib. Əslində, bu qərarla Avropa Məhkəməsi 2015-ci ildə Çıraqov və digərləri Ermənistana qarşı işində çıxardığı qərarda gəldiyi qənaəti - Ermənistanın Azərbaycan ərazilərinin işğal olunması və bu ərazilərdə insan hüquqları pozuntularına görə məsuliyyət daşıdığını təsdiq edib. Bu, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən işğalının, habelə münaqişənin Ermənistan və Azərbaycan arasında getməsi faktının növbəti hüquqi təsbitidir.

Məlum olduğu kimi, Ermənistanın təcavüzkar hərbi birləşmələri Azərbaycanın şəhər və kəndlərini, o cümlədən mülki əhalini və çoxsaylı mülki obyektləri atəşə tutmaqdadır. Bunun nəticəsində dinc əhali arasında azı 12 nəfər həlak olub, onlarca insan xəsarət alıb, şəxsi və dövlət əmlakına bərpaolunmaz ziyan yetirilib. Nəticə etibarilə Avropa Məhkəməsinin 29 sentyabr tarixli qərarı Ermənistana Azərbaycan ərazilərində törətdiyi, insan hüquqları və beynəlxalq humanitar hüquqazidd zorakı əməllərinə son qoymağa dair çağırış mənasına gəlir.

Bundan əlavə, Avropa Məhkəməsi Ermənistanı öz öhdəliklərinə riayət etmək üçün görülmüş tədbirlər barədə mümkün qədər tezliklə ona məlumat verməsini istəyib.

Qeyd edək ki, sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüz aktına cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanmış əks-hücum əməliyyatının gedişi zamanı beynəlxalq humanitar hüquqa tam və qəti şəkildə riayət edilir, heç bir formada mülki əhali və obyektlər hədəfə alınmır. Azərbaycan tərəfi Avropa Məhkəməsinin qərarına uyğun olaraq, beynəlxalq öhdəliklərinə riayət edilməsi istiqamətində görülmüş tədbirlər barədə quruma müvafiq qaydada məlumatlar təqdim edəcək.

# *Nazir Mövlud ÇAVUŞOĞLU:* "Azərbaycan işğal altındakı torpaqlarını təkbaşına azad etməyə qadirdir"

"Türkiyə Dağlıq Qarabağ münaqişəsinin diplomatik və sülh yolu ilə həlli istiqamətində ciddi səylər göstərdi. Bu səylər nəticə verdimi? Vermədi! Beynəlxalq ictimaiyyət bu münaqişənin həllində qətiyyət göstərdimi?

Göstərmədi! Bütün bunlar olmadıqca Ermənistan işğalçılıq siyasətində daha da cəsarətləndi və hücumları davam etdirdi. Beynəlxalq ictimaiyyət münaqişənin həllini, diplomatik yolla həllini istəyirsə, qətiyyətli olmalıdır. Qarşıdurma dayandırılsın deyənlər Ermənistana işğal ərazilərdən çıxsın deyirmi? Demirlər! Bu, doğru yanaşma deyil".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu "Anadolu" Agentliyinə müsahibəsində səsləndirib.

Artıq münaqişənin həll olunması vaxtının çatdığını ifadə edən nazir deyib: "Problem diplomatik yolla həll olunmadı. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək istəyir və mübarizəni öz ərazisində aparır. Dünyanın harasında münaqişələr varsa, işğalçı ilə torpağı işğal edilən tərəf eyni tutulmur. Bu məsələdə Ukrayna və Gürcüstanın ərazi bütövlüyü haqlı olaraq dəstəklənir. Azərbaycan torpaqlarının işğalı məsələsinə də eyni mövqe sərgilənməlidir.

Azərbaycanın bu məsələdə bir istəyi olursa, istədiyini edərik. Lakin Azərbaycanın özünü müdafiə etmək və ərazilərini işğaldan qurtarmaq üçün gücü yetərlidir. Prezident İlham Əliyevin tez-tez dediyi kimi, işğalçı tərəf gəlsin üz-üzə savaşaq və nəticəni görərsən. Azərbaycan deyir ki, mən öz torpağımı işğaldan azad edirəm və başqa dövlətlər qarışmasın. Ermənistan başqa ölkələrdən dəstək olmasa, işğalçılığa cəsarət etməzdi".

Azərbaycanın geniş müdafiə imkanlarına malik olduğunu vurğulayan nazir deyib ki, Türkiyənin başqa ölkələrlə müdafiə sənayesində və hərbi sahədə əməkdaşlığı olduğu kimi, Azərbaycanla da var. Hətta Azərbaycanla əməkdaşlıq hər kəsdən daha çox olmalıdır və olur. Azərbaycan müdafiə qüdrətini artırmaq üçün gərəkli tədbirlər görüb, başqa ölkələrdən və bizdən hərbi məhsullar almaq haqqı var və alır.

Türkiyə ilə Azərbaycanın "bir millət, iki dövlət" olduğunu xatırladan nazir Mövlud Çavuşoğlu bildirib ki, iki ölkənin müdafiə və hərbi sənayedə anlaşmaları var. Bu gün Azərbaycanın öz torpaqlarını işğaldan təkbaşına azad etməyə gücü çatır. Amma Azərbaycan harada və necə dəstək istərsə, Türkiyə onu edəcək. Danışıqlarda olduğu kimi, meydanda da Azərbaycanla birlikdəyik. Türkiyə dövləti, hökuməti və xalqı bu məsələdə qərarlıdır. Biz qardaş olaraq Can Azərbaycanın yanındayıq. Türkiyə bu münaqişənin diplomatik yolla, sülh yolu ilə, BMT-nin qərarları, qardaş Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həlli üçün böyük səylər göstərdi. Ancaq Azərbaycanın burada qəbul etdiyi qərar çox önəmlidir. Çünki otuz ildir Azərbaycan münaqişənin həllini görmədiyi kimi, bu istiqamətdə beynəlxalq ictimaiyyətdən hər hansı bir qətiyyətli addım da görmədi.

"Qarşıdurmanı heç kəs istəməz. Atəşkəsin təmin edilməsi Ermənistan dərhal Azərbaycan torpaqlarından çəkilsin tələbi ilə olmalıdır", - deyə sözünü davam etdirən nazir deyib ki, Ermənistanın təcavüzkarlığı təkcə işğalçılıqla bitmir. Yaxın Şərqdən erməni əsilli əhalini gətirib Qarabağda qanunsuz məskunlaşdırır. Bu məsuliyyətsizlik Ermənistana aiddir. İşğalçı olmasına baxmayaraq, Ermənistan dəstəklənir. Diplomatik danışıqlarda bütün bunları tərəflərə anladırıq.

Mövlud Çavuşoğlu fikirlərini belə tamamlayıb: "Azərbaycan ərazisinin iyirmi faizi işğal olunmuş və bir milyondan çox əhalisinin qaçqın düşdüyü ölkədir. Ötən dövrdə bu insanların necə çətinliklə yaşadığını gördük. Bu insanlar otuz il ağır çətinliklər yaşayıblar. Hər kəs yurduna dönmək istəyir. Azərbaycan hüquq və mənəvi baxımdan bu məsələdə haqlıdır. Beynəlxalq təşkilatlar torpaqları işğal olunan digər ölkələr kimi, Azərbaycanı da qəti şəkildə dəstəkləməlidir".

# Tərtər, Ağdam, Füzuli və Ağcabədi rayonlarında baş verən yanğınların qarşısı alınıb

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmaqda davam edir. Bunun nəticəsində mülki obyektlərdə dağıntı və yanğınlar baş verir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirilir.

AZƏRTAC Fövqəladə Hallar Nazirliyinin (FHN) saytına istinadla xəbər verir ki, sentyabrın 29-da Ermənistan silahlı qüvvələrinin atdığı mərmilər nəticəsində Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisində yerləşən və "Azərişıq" ASC-yə məxsus transformatorda yanğın başlayıb. Transformatorun qoruyucu açarı və giriş-çıxış kabeli 15 poqonmetr yansa da, FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində transformatorun özü yanğından mühafizə olunub.

Bundan başqa, ötən gecə Ağdam rayonunun Əhmədağalı kəndində düşmən mərmisinin düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verib. Operativ müdaxilə sayəsində obyektin bir hissəsi və bitişik ev yanğından mühafizə olunub. Ağdam rayonunun Baharlı-1 qəsəbəsində yerləşən vətəndaşa məxsus təsərrüfat obyektində də baş vermiş yanğın söndürülüb, obyektin bir hissəsi yanğından mühafizə olunub.

Həmçinin ötən axşam və gecə saatlarında Ağdam rayonunun Əhmədağalı, Çəmənli, Sarıcalı kəndlərində fərdi yaşayış evləri və təsərrüfat obyektlərində, Tərtər rayonunun Əskipara kəndində təsərrüfat obyektlərində yanğınlar baş verib. Bu ərazilər düşmən tərəfindən intensiv atəşə məruz qaldığından yanğınlara müdaxilə etmək mümkün olmayıb.

Ağdam rayonunun Baharlı-1 qəsəbəsində isə mərminin atılması nəticəsində evdə dağıntı olsa da, yanğın baş verməyib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Mənfur əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin sentyabrın 30-da atdığı mərmi nəticəsində Füzuli rayonunun Cocuq Mərcanlı kəndində yerləşən "Oba" marketdə yanğın baş verib. Əraziyə cəlb olunmuş FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində marketin bir hissəsi yanğından mühafizə edilib.

Ağcabədi rayonunun Qaradolaq kəndində təsərrüfat sahəsi qismən yanıb, yanğının daha geniş əraziyə yayılmasının qarşısı alınıb. Ağcabədi rayonunun Arazbar kəndində təsərrüfat obyektinə mərmi düşməsi nəticəsində isə obyektin bir hissəsi yanıb, qalan hissə yanğından mühafizə olunub.

# Hazırkı vaxtadək mülki əhalidən 14 nəfər həlak olub, 46 nəfər xəsarət alıb

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək, ümumilikdə, mülki əhalidən 46 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 14 nəfər isə həlak olub.

Bundan başqa, Ermənistan hərbi birləşmələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

İşğalçı ölkənin silahlı qüvvələrinin mülki infrastruktur obyektləri atəşə tutması nəticəsində 116 yaşayış evinə, həmçinin 26 mülki obyektə, o cümlədən Tərtər şəhərində xalça-toxuculuq fabrikinə, Ağdam rayonu, Təzəkənd kəndində inşa edilmiş modul tipli məktəb binasına, Tərtər rayonunun Şıxarx qəsəbəsi 1 saylı tam orta məktəbin binasına, Tərtər şəhəri 2 saylı məktəb-liseyin binasına, Tərtər rayonunun Azad Qaraqoyunlu kəndi ərazisində yerləşən "MKT İstehsal Kommersiya" MMC-nin Pambıq zavoduna, Tərtər rayonu Qapanlı kəndinin Tibb məntəqəsinə külli miqdarda ziyan vurulub. Eləcə də dinc sakinlərə məxsus nəqliyyat vasitələri yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olub.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

# Azərbaycan ilə İsveç arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Sentyabrın 30-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun İsveç Krallığının Xarici İşlər naziri Ann Linde ilə videokonfrans formatında görüşü olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov İsveç Xarici İşlər nazirinin bölgəyə planlaşdırılan səfərinin təxirə salındığı üçün videokonfrans formatında görüşün keçirildiyini qeyd edib, bu görüşün həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlərin müzakirəsi üçün faydalı olacağını bildirib.

İsveçli nazir Azərbaycana səfərinin noyabr ayına təxirə salındığını qeyd edib və iki ölkə arasındakı münasibətlərlə yanaşı, İsveçin ATƏT-də qarşıdan gələn sədrliyi ilə əlaqədar məsələlərin gələcək səfər çərçivəsində daha ətraflı müzakirəsi imkanının olacağını ifadə edib. Görüşdə nazirlər Azərbaycan ilə İsveç arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişafını qeyd edib, əlaqələrin genişləndirilməsi üçün mövcud potensialdan tam istifadə olunmasının əhəmiyyətini vurğulayıblar. Xüsusilə ticarət sahəsində əməkdaşlığın inkişafı, o cümlədən insanlar arasında əlaqələrin genişləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bölgədə yaşanan gərginliklə bağlı narahatlığını ifadə edən nazir Ann Linde sülhün təmin olunmasının vacibliyi bildirib və hazırkı vəziyyəti sorğu edib.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ağır nəticələri ilə bağlı həmkarına məlumat verib, münaqişənin həllinin əsasını təşkil edən qərar və qətnamələr, o cümlədən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərini diqqətə çatdırıb. Ermənistan rəhbərliyinin son zamanlar sərgilədiyi təxribatçı fəaliyyəti, o cümlədən cari il iyulun 12-16-da Ermənistanın iki dövlətin sərhədində hücum cəhdi, avqustun 23-də diversiya-kəşfiyyat qrupunun təxribatı, Azərbaycan işğal edilmiş ərazilərində həyata keçirilən qanunsuz fəaliyyət, eləcə də digər təhrikçi bəyanat və açıqlamaları barədə İsveç nazirini məlumatlandırıb. Bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün Ermənistanın silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal çıxarılmasının zəruriliyi bildirilib.

Nazir Ann Linde İsveçin münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu və ATƏT-in Minsk qrupunun səylərini dəstəklədiyini qeyd edib. Dövlətlərin Helsinki Yekun Aktının başlıca prinsiplərinə hörmət etməsinin vacibliyi ifadə olunub.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Tədrisin təşkilində yeni normalara dair brifinq keçirilib

Sentyabrın 30-da ümumtəhsil müəssisələrində tədrisin təşkili ilə bağlı yeni normalara dair brifinq keçirilib.



AZƏRTAC xəbər verir ki, Təhsil naziri Emin Əmrullayev əvvəlcə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində bölgələrdə məktəblərə və ümumən, təhsilə vurulan zərbədən danışıb, erməni vəhşiliyinin qurbanı olan iki məktəblinin - Fidan və Şəhriyar Qurbanovların vəfatını dərin təəssüf hissi ilə qeyd edib.

Nazir diqqətə çatdırıb ki, cəbhəyanı ərazilərdə yerləşən 400-dən çox ümumtəhsil müəssisəsinin həftəlik dərs cədvəllərində dəyişiklik olunub.

Cari dərs ilinin pandemiya şəraitində təşkili məsələləri barədə danışan Təhsil naziri bildirib ki, məktəblərdə görülən tədbirlər - şagird sıxlığına nəzarət, dərslərin tədrisi formalarının dəyişdirilməsi, sanitariya-gigiyena qaydalarına riayət öz nəticələrini verməkdədir. Ötən dövr ərzində həm ölkə üzrə ümumi yoluxmaların azalması, həm də məktəbdə yoluxma hallarının olmaması nikbin qərarlar qəbul etməyə əsas verib. Belə ki, "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarına uyğun olaraq, oktyabrın 1-dən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda məktəbəqədər təhsil müəssisələri fəaliyyətə başlayacaq. Məktəbəhazırlıq qruplarında sabahdan yarımqruplar şəklində tədris prosesinə start veriləcək. Həmçinin oktyabrın 1-dən V-IX sinif şagirdləri məktəbə həftədə 3 dəfə getməklə 15 saat əyani dərs ala biləcəklər.

Brifinqdə qeyd olunub ki, növbəti həftədən etibarən ibtidai sinif şagirdləri Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda həftədə 3 dəfə əyani təhsilə cəlb ediləcək. Bununla da onların əyani formada dərs saatları 8-dən 10 və ya 11 saata (həftəaşırı) qədər artacaq. Bu, siniflər 2 yarımqrupa bölündüyü halda hər yarımqrupa düşən əyani dərslərin sayıdır. Sinifdə sosial məsafəni qorumaq mümkündürsə, şagirdlər yarımqruplara bölünmür, bu zaman 12 və ya 13 saat əyani dərs alırlar. Ölkənin digər regionlarında yerləşən və şagird sayı 200-dən az olan məktəblər ibtidai təhsil səviyyəsində ənənəvi formada, yəni həftədə 5 dəfə olmaqla bütöv sinif komplektində oxuya bilərlər. Bu zaman məktəb rəhbərliyi sinifdə sosial məsafənin gözlənilməsini əsas meyar götürərək qərar verməlidir. Bu meyara cavab vermək mümkün olmadığı halda, həmin məktəblərdə də əyani formada dərslər həftədə 3 dəfə keçiriləcək. Hazırda ölkədə şagird sayı 200-dən az olan məktəblərin sayı 2307-dir. Oktyabrın 15-dən isə tam orta təhsil səviyyəsi üzrə təhsil alan şagirdlər məktəbə gələ biləcəklər.

Diqqətə çatdırılıb ki, xüsusi, internat tipli xüsusi, inteqrasiya təlimli internat tipli məktəblərdə, valideyn himayəsindən məhrum uşaqlar üçün internat məktəblərində təhsil əyani formada davam etdirilir.

Brifinqdə teledərslərin əhəmiyyəti və onların izlənmə faizinin artırılması mühüm məsələ kimi vurğulanıb.

Həmçinin bildirilib ki, hərbi vəziyyətin tələblərindən irəli gələn internet xidmətlərindəki məhdudiyyət səbəbindən ali təhsil müəssisələrində tədris müvəqqəti dayandırılıb.

**Biz birlikdə güclüyük!**

# Azərbaycan nümunəsi

## **Prezident İlham ƏLİYEV:** "Pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir"

**Bu ilin artıq doqquzuncu ayı da dünya ölkələrinin yeni tip koronavirusa qarşı mübarizəsi ilə başa çatır. Qlobal problemə çevrilmiş COVID-19 infeksiyasının yayılmasına qarşı bütün dövlətlər tərəfindən müxtəlif qabaqlayıcı tədbirlər görülsə də, pandemiyanın qarşısını almaq və törətdiyi fəsadları minimuma endirmək səyləri hələ də nəticə vermir. Virus planetimizdə 1 milyondan çox insanın həyatına son qoyub.**



COVID-19 dünyada yayılmağa başladığı, eləcə də ölkəmizin sərhədlərinə yaxınlaşdığı ilk dövrdən başlayaraq dövlətimiz ona qarşı çevik və bütün istiqamətlər üzrə ciddi tədbirlərə start verdi. Azərbaycan dünyada az-az dövlətlərdəndir ki, xalqının sağlamlığını, təhlükəsizliyini düşünərək virusun yayılmasının qarşısını almaq üçün vaxtında qabaqlayıcı tədbirlər həyata keçirdi. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, pandemiyanın qarşısının alınması üçün qətiyyətli və çevik addımlar atıldı. Qısa zaman ərzində dövlətin bütün imkanları pandemiyaya qarşı səfərbər olundu. Dövlət başçısının sərəncamları, çoxsaylı tapşırıqları, gündəlik nəzarəti altında həyata keçirilən səmərəli tədbirlər nəticəsində koronavirusla mübarizədə uğurlar qazandıq. Məhz bunun sayəsində dünyanın ən inkişaf etmiş ölkələrində yaranmış acınacaqlı vəziyyət Azərbaycanda müşahidə olunmadı. Bu gün istər yoluxma, istərsə də vəfat edənlərin sayına görə, Azərbaycan ən yaxşı nəticələr nümayiş etdirən, qlobal böhrandan minimum itkilərlə çıxmağı bacaran ölkələr siyahısında yer alıb. Ölkəmizin bu istiqamətdə gördüyü işlər dəfələrlə Ümumdünya Səhiyyə Təşkilatı, ayrı-ayrı beynəlxalq qurumlar, dövlət və hökumət başçıları tərəfindən xüsusi qeyd edilib, digər dövlətlərə nümunə göstərilib.

Hökumətin koronavirusla mübarizə sahəsində strategiyası özlüyündə bir neçə istiqaməti əhatə etdi: virusun yayılmasının qarşısının alınması, ölkə səhiyyəsinin və aidiyyəti infrastrukturun koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırılması, iqtisadiyyatın dayanıqlığının təmin edilməsi və əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı məsələlərin həlli.

Həyata keçirdiyi mübarizə tədbirlərinə görə beynəlxalq səviyyədə təqdir olunan Azərbaycan dövləti koronavirusun qarşısının alınmasında yalnız yerli nümunələr yaratmaqla kifayətlənmir. Prezident İlham Əliyev virusun qlobal problemə çevrilməsini nəzərə alaraq onunla mübarizədə ölkələr arasında və beynəlxalq təşkilatlar çərçivəsində həmrəylik və əməkdaşlığı da zəruri hesab edir.

Koronavirusa qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayan, güclü olduğunu göstərən Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırdı. Pandemiya dövründə ölkəmiz beynəlxalq arenada, iqtisadi, sosial sahədə özünü güclü dövlət kimi göstərdi. Ölkəmiz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşünü təşkil etməklə dünyanı birləşdirdi. Azərbaycan BMT Baş Assambleyasının COVID-19-la bağlı xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüs irəli sürdü, bu təşəbbüs Qoşulmama Hərəkatının üzvləri, dünyanın 130-dan çox ölkəsi tərəfindən yekdilliklə dəstəkləndi.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da "COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi" mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxışı zamanı da bu məsələyə toxundu.

Dövlət başçısı COVID-19 pandemiyasının dünyanın bütün ölkələrinə mənfi təsir göstərdiyini, milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyinin gözlənilən olduğunu bildirdi.

Pandemiyanın Azərbaycan iqtisadiyyatına da təsir etdiyini söyləyən ölkə rəhbəri belə bir dövrdə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumətin iş yerlərinin və səhiyyənin qorunmasına, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırdığına diqqət çəkdi. Belə ki, pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim olundu. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni ölkə əhalisinin yarısını əhatə edir.

Prezident qeyd etdi ki, pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Pandemiyadan sonrakı dövrdə isə dövlətimizin əsas prioritetləri - iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir: "Bəşəriyyət pandemiyaya qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi. İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir".

Əminliklə demək olar ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bu da dövlətin həmrəylik və əməkdaşlığa sadiqliyinə dəlalət edir. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə təkcə insanlar deyil, dövlətlər də bir olmağa, birlikdə mübarizə aparmağa borcludurlar. Məhz belə çətin vəziyyətdə dünyanın həmrəyliyə və əməkdaşlığa ciddi ehtiyacı var.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Malayziya Xarici İşlər Nazirliyindən Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edən bəyanat

Malayziya Xarici İşlər Nazirliyi sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təxribatla bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı birmənalı mövqe nümayiş etdirilib. Sənəddə deyilir ki, Malayziya sentyabrın 27-də yenidən başlayan gərgin hərbi qarşıdurma nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda pisləşən vəziyyətdən dərin narahatlıq keçirir. Həmçinin qeyd olunub ki, Malayziya münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri daxil olmaqla beynəlxalq hüquq əsasında sülh yolu ilə həllinin tapılmasına yönəlmiş bütün səyləri dəstəkləyir.

# İƏT Parlament İttifaqı Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasətini qətiyyətlə qınayır

Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən cəbhə xəttində hərbi təxribatların törədilməsi ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqına (İƏT Pİ) məktub göndərib.

İƏT Parlament İttifaqı həmin məktubu öz rəsmi saytında yerləşdirərək Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş təxribatları qətiyyətlə pisləyib və bütün üzv dövlətlərin Ermənistanın növbəti təcavüz aktı barədə məlumatlanması üçün şərait yaradıb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyas Azərbaycan Parlamentinin Spikeri Sahibə Qafarovaya cavab məktubu göndərərək qurumun dəstəyini ifadə edib. Vurğulayıb ki, İƏT Pİ müxtəlif konfranslarda qəbul etdiyi bütün qətnamələrində münaqişənin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü çərçivəsində, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında ədalətli həllini həmişə dəstəkləyib.

Məktubda bildirilir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Ermənistanın Azərbaycana qarşı təcavüz və işğal siyasətini qətiyyətlə qınayır, işğalçılara qarşı Azərbaycan ilə tam həmrəyliyini bəyan edir.

# Qarabağdan ermənilərin böyük köçü başlayır

## Ermənistan ictimaiyyəti, mətbuatı və ekspertləri tədricən Azərbaycana məğlub olduqlarını etiraf edirlər

***Əvvəli 1-ci səh.***

### İtkilər çoxdur

Ermənistanın "4rd.am" saytı yazır ki, son döyüşlərdə erməni tərəfindən həm canlı, həm də hərbi texnika itkisi həddindən artıq böyük olub.

Ermənistan ordusunun mindən çox əsgərinin öldürüldüyünü diqqətə çatdıran sayt işğal altındakı Şuşa hospitalındakı etibarlı mənbəyə istinadən qeyd edir ki, bura yüzlərlə yaralı gətirilib: "Öldürülənlər arasında əsgərlərlə yanaşı, kiçik və böyük rütbəli zabitlər də var. Avtomobillər, ağır zirehli texnika, artilleriya qurğuları məhv edilib. Qeyri-rəsmi məlumatlara görə, yüzlərlə hərbi texnika sıradan çıxıb".

"Sputnik Armeniya" saytının Xankəndidən hazırladığı reportajda insanların vahimə içərisində olduğu yazılır. Qeyd olunur ki, Xankəndi sakinləri Qarabağ münaqişəsi zonasında vəziyyət gərginləşdikdən sonra gecəni zirzəmilərdə keçirirlər.

Son iki gündə vəziyyət daha da gərginləşib. Xankəndidəki məktəblərdən birinin müəllimi Qayane Muradyan sosial şəbəkədəki paylaşımlardan birində deyib ki, Azərbaycan tərəfinin endirdiyi zərbələr onları qorxuya salıb: "Çox narahatıq. Başqa heç bir şey haqqında düşünə bilmirik. Ön cəbhədəki qohumlarımız vəziyyətin olduqca gərgin olduğunu, hər gün əsgərlərimizin öldürüldüyünü deyirlər. Bütün bunlar bizim psixikamıza təsir göstərir".

### Əhalinin Xankəndidən kütləvi və kortəbii şəkildə köçürülməsi baş verir

"İravunk" qəzeti isə erməni əhalisinin təşviş içində olduğunu, evlərini kütləvi şəkildə tərk etdiyini diqqətə çatdırıb: "Əhali digər təhlükəsiz yerlərə axın edir. Xankəndidən böyük köç başlayıb. Qarabağdakı rejim əhalinin evlərini tərk etməsinə maneələr yaratmır. Gedənlər postlarda saxlanılmır. Əsgərlər fərarilik edirlər. Hakimiyyətin və Qarabağ müharibəsi veteranlarının çağırışına baxmayaraq, gənclər orduya getmək istəmirlər. Onlar müxtəlif bəhanələrlə döyüşməkdən imtina edirlər. Yeganə ümid Qarabağ müharibəsi veteranlarınadır. Amma son məlumatlar göstərir ki, heç Qarabağ müharibəsi veteranları da vuruşmaq niyyətində deyillər. Çünki budəfəki döyüşlər əvvəlkindən çox fərqlidir. Bunu itkilər barədə ermənilərin etirafı da təsdiq edir".

Rusiyanın "İzvestiya" qəzetinin Xankəndidəki reportyoru isə yazır ki, buradan ermənilərin kütləvi və kortəbii şəkildə köçürülməsi baş verir, insanları kütləvi şəkildə Yerevana göndərirlər. "Onları elə birbaşa göndərirlər, heç bilmirlər ki, orada qohumları var, ya yox. Lakin deyirlər ki, onları hökmən orada kimsə qarşılayacaq. Polis yolüstü Yerevana gedən avtomobilləri saxlayır və onlar ailələri maşınlarına mindirib tamamilə pulsuz Yerevana aparırlar".

### Erməni hərbi qulluqçu: "Qarabağ Azərbaycan torpağıdır"

Baş verənlərlə bağlı "4rd.am" saytının hazırladığı reportajda bildirilir ki, Ermənistan hospitalları yaralılarla doludur: "Dərmanlar çatışmır, nəqliyyat vasitələri yaralıları daşımaq üçün azlıq edir. Yaralıların gətirildiyi Yerevanda bir qadın hönkür-hönkür ağlayırdı. O, "Nə üçün?" deyə soruşur və "cəhənnəm olsun bu quldurlar, oğrular, mənim oğlumu öldürdülər" - deyə qışqırırdı. Sonradan bəlli oldu ki, o, Azərbaycanı deyil, Paşinyan hakimiyyətini nəzərdə tuturdu. Mən ağlayan qadından artıq heç nə soruşa bilmədim. O, elə hey, "Heyvanlar, əclaflar mənim oğlumu öldürdülər" - deyə qışqırırdı".

Reportajı hazırlayan erməni jurnalist həmin qadının Ruzanna Kirokasyan adlı rəfiqəsindən baş verənlər haqda soruşur: "Rəfiqəsi deyir ki, onun oğlu bazar günü günorta saatlarında yaralanıb. Onu Yerevana hospitala gətiriblər. Hər şey yaxşı imiş, amma dərmanın yoxluğuna və həkimlərin səhlənkarlığına görə oğlu ölüb".

Bu arada Ermənistanda mövcud olan hərbi vəziyyətlə əlaqədar 18-55 yaş arasında kişilərin ölkədən çıxışına məhdudiyyət qoyulub. Ermənistan ordusunun hərbi qulluqçusu Qrant Saaryan sosial şəbəkədə fəaliyyət göstərən radiolardan birinin canlı yayımda qonağı olub. O, Paşinyana müraciətdə bildirib: "Cənab baş nazir, Qarabağ bizim ərazimiz deyil. Ora heç sənin də ərazin deyil. Bu, Azərbaycanın torpağıdır və biz başqasının torpağı uğrunda ölmək istəmirik". Daha sonra əlavə edir ki, erməni hərbçiləri Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə Azərbaycana keçərək, Qərb ölkələrində sığınacaq alırlar: "Ən pis halda onlar qonşu Gürcüstana sığına bilirlər".

### Hospitallar yaralılarla doludur

Ermənistan tərəfi cəbhədə davam edən hərbi əməliyyatlar fonunda daha Azərbaycan torpaqlarında qala bilməyəcəklərini başa düşərək şələ-külələrini yığışdıraraq oranı birdəfəlik tərk etməyə hazırlaşırlar. Bununla bağlı "Joxovurd" qəzeti yazır ki, cəbhə zonasında davam edən döyüşlərdən qaçan ermənilər atəşin dayandırılmasından sonra da geri qayıtmaq istəmirlər. Xankəndi sakini Artak Allahverdiyan deyir ki, o, tezliklə Rusiyaya getmək niyyətindədir: "Ümidimiz Rusiyadır. İnanıram ki, oradakı qardaşlarımız bizi qəbul edəcək, tək qoymayacaqlar".

Rusiyanın "kadara.ru" internet-portalı Qarabağda gedən döyüşlərdə ermənilərin "çox böyük itkiləri" barədə bildirir. Sayt Xankəndidəki mənbəyə-qondarma "dqr" güc strukturlarının əməkdaşına istinad edir: "Çox böyük itkilərimiz var. Hospitallar yaralılarla doludur. Qarşı tərəf kütləvi şəkildə aviasiya, artilleriya, raket silahları tətbiq edir. Stepanakertə (Xankəndi-red) dünyanın hər yerindən çoxsaylı könüllülər gəlir, bu şişirtmə deyil".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından daha 127 nəfər sağalıb, 110 yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 127 nəfər sağalıb, 110 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 229 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 954 nəfər müalicə olunaraq sağalıb, 591 nəfər vəfat edib. Aktiv xəstə sayı 1684 nəfərdir. Ötən müddət ərzində 1 milyon 115 min 748 test aparılıb. Dünənki test sayı isə 5469-dur.



AZƏRBAYCAN www.azerbaijan-news.az

# Erməni faşistlərinin hədəfi dinc əhali və mülki obyektlərdir

**Dünyada nasizm ideologiyası alman faşizmi ilə birlikdə tarixə çevrilsə də, erməni faşizmi yüz ildən artıqdır ki, ayaq tutub yeriyir. Ermənilər vəhşiliyindən geri qalmaq əvəzinə, əksinə, peşəkar qatilə çevrilir, bugünkü işğalçı Ermənistanda hakim mövqelərə yiyələnərək, artıq dövlət səviyyəsində dinc Azərbaycan əhalisinə qarşı amansızlıqlar törədir.**

## Qəddarlığın son həddi









Mülki əhaliyə qarşı törədilən erməni cinayətləri həm böyük zaman kəsimini, həm də geniş əraziləri əhatə edir. Lakin buna baxmayaraq, hətta bir nəfərin gördüklərini süzgəcdən keçirmək belə yetərlidir ki, erməni millətçilərinin törətdikləri bütün cinayətlərin ağır və faciəvi mənzərəsini bir müstəvidə cəmləyəsən. Erməni nasizminin yüzillik surətini cızmaq üçün arxivləri araşdırmaq deyil, elə yalnız jurnalist kimi gördüklərimiz də kifayətdir. 1985-1990-cı illərdə Naxçıvanda çalışan xüsusi müxbir kimi sovet Ermənistanında baş verənləri izləyirdik və fürsət düşəndə o tərəfə də keçirdik. Qorbaçovun yenidənqurması ilə qonşu respublikada Azərbaycan əhalisinə qarşı təzyiqlər artmağa başladı. Ən maraqlısı isə o idi ki, kimsə onların haqqını müdafiə etmirdi. Soydaşlarımız həkimlərə müraciət etməkdə, hətta aptekdən dərman almaqda belə çətinlik çəkməyə başladılar. Ardınca hər il Novruz bayramında kütləvi surətdə ailələrini təhlükələrdən qorumaq üçün Naxçıvanda və Azərbaycanın digər rayonlarındakı qohumlarıgilə aparır, bayramdan sonra isə geri qaytarırdılar. Artıq Ermənistanda dinc əhalinin döyülməsi, təqib edilməsi, ictimai yerlərdə alçaldılması adi hal alırdı.

Hədələrə, təqiblərə, hücumlara məruz qalan mülki əhali uşaqdan qocaya kimi müdafiəsiz idi. Azərbaycanın ovaxtkı rəsmi dairələri isə susurdu, cəsarət edib danışanlar, Ermənistana gedib vəziyyətlə tanış olmağa cəhd edilənlər təqib olunurdu. Bizimkilər susduqca ermənilər azğınlaşırdı və yaralananların, döyülənlərin sayı sürətlə artırdı. O illərdə biz Ermənistanın Masis rayonuna gedəndə demək olar ki, artıq bütün kəndlər özünü müdafiə etməyə çalışırdı. Masisdə texnikum yandırılmışdı, dinc əhali qaçaraq Türkiyə ilə sərhəddəki Rəncbər kəndinə yığılmışdı. Hamı sərhədi keçib Türkiyəyə sığınmağa can atırdı. Bu da mümkün deyildi, çünki sərhədlər sovet qoşunları tərəfindən qorunurdu. Artıq xaricdən gələn silahlı erməni yaraqlıları at oynadırdı.

Masis rayonunun Rəncbər kəndində Aydın adlı hündürboylu, enlikürək bir kişi bizi evinə apardı. Onun böyük aynəbəndi yaralılarla dolu idi. Qonşudakı balaca qız uşağını bizə göstərib bildirdi ki, bu zavallı gördüyü vəhşiliklərin bitməyəcəyindən qorxaraq ağlını itirib. Aydın bizə belə dedi: “Bilmirəm kimsiniz, nəçisiniz. Amma gedin deyin ki, bizə Araz boyu sərhəd zolağının arxasından keçən yolla silah göndərsinlər, un göndərsinlər. Bu rəzillərin çörəyini süfrəmizə qoymayaq. Yerevan iki addımlığımızdadır. Oranı ağlar günə qoymasaq kişi deyilik”.

Lakin kömək göndərilmədi, hətta orada azərbaycanlıların başına gətirilən müsibətlərin bizim mətbuata çıxışı da yasaqlandı. Faciənin böyüklüyü onda idi ki, ermənilərin dinc əhaliyə tutduğu divanı həmişə hər yerdə birinci olmağı bacaran dünya mətbuatı da nədənsə görmədi. Əksinə, müxbir postumuza cəmi bir dəfə Moskvadan özünü hansısa xarici jurnalın əməkdaşı kimi təqdim edən bir qadın zəng vurub soruşdu ki, Naxçıvandakı erməni kəndi boşaldılıbmı? Sualına sualla cavab verdim ki, Ermənistanda yüzlərlə Azərbaycan kəndi boşaldılanda, mülki əhali qovulanda hardaydınız, niyə zəng etmirdiniz, soruşmurdunuz? Telefon xəttində səs kəsildi.

Xaricdən gələn erməni muzdlularının, yaraqlıların sayı çoxaldıqca dinc əhaliyə törədilən qəddarlıqlar artırdı. Elə vəhşiliklər törədilirdi ki, bəlkə Hitlerin əsabələri də onlara “həsəd” apara bilərdi. Heç yadımdan çıxmır, Qafan rayonunda azərbaycanlıların evlərinə od vurulub yandırılanda ora getdik, rayon partiya komitəsinin işçilərindən biri bizə ermənilərin necə qədim və müdrik xalq olmasından moizə oxuyurdu. Pəncərənin arxasında isə dəmir yolu boyu cərgə ilə azərbaycanlıların evləri od tutub yanırdı.

Bu hadisələrdən təxminən 70-80 il əvvəl yaşayan qatil Andronikin etirafları yada düşür: “Mən heç bir şeyin fərqində olmadan bütün Basarkeçər türklərini məhv etdim. Amma güllələrdən istifadə etmirdim, heyfim gəlirdi, bu insanları məhv etməyin ən asan yolu hamısını quyulara doldurub, üzərlərini daşlarla örtmək idi. Mən də elə etdim, bütün qadın, kişi və uşaqları quyulara atdırıb, ağızlarını daşlarla örtərək onları ölümlə üz-üzə qoydum”.

Şərhə ehtiyac yoxdur. Amma bircə onu deyək ki, aradan illər keçməsinə baxmayaraq, Ermənistandan soydaşlarımızı qovan, Xocalı soyqırımını törədən, kəndlərimizi viran qoyan, torpaqlarımızı işğal edən erməni qatilləri bu gün də həmin xəstə ruhlu faşist əqidəsi ilə dinc əhaliyə, qadına, qocaya və günahsız uşaqlara divan tutmaqdan zövq alırlar.

Naxçıvanın Səhiyyə Nazirliyində qaçqınların ən çox hansı hallarda və nə ilə bağlı müraciət etdiklərini soruşduq. Dedilər ki, hamilə qadınlar ölü uşaqlar doğurlar. Demə, insana nəsil artırmaq üçün əmin-amanlıq lazım imiş. Amansız faciələr və təhlükələr eyni dərəcədə qadın və kişi orqanizminə təsir edir və nəsil artırılması dayanır. Ermənistanda amansız əcəlin caynağından qaçıb ölü uşaq doğan qadınlar müasir erməni faşizminin bəşəriyyət üçün nə dərəcədə təhlükəli olduğunu göstərir.

Xocalı faciəsindən sonra Ağdama getdik və baş verən soyqırımının arxasınca tükürpərdən səhnələrin şahidi olduq.

Bu gün də demokrat adı ilə hakimiyyətə gələn Paşinyan və onun işğalçı ordusu sələflərindən heç nədə fərqlənmir. O, dünyada rəngli inqilabların banisi sayılan Sorosun qanadının altında hakimiyyətə gəlsə də, əməllərində Andronikdən, Amazapsdan, ya da Xocalı və digər soyqırımlarını törədən sələflərindən seçilmir. Paşinyanın gönünü çırpanda altdan babasının yerişini yeriyən bir faşist çıxır. Onun quldurları da mülki əhalinin evlərini hədəfə alır, günahsız uşaqları, qadınları və qocaları qətlə yetirir. Müharibəni dayandırmaq əvəzinə, daha sırtıq həvəslə bütün erməni xalqını səngərə sürüyür.

Azərbaycan döyüşlərdə bütün beynəlxalq hüquq və normalara riayət edir, mülki əhalini hədəfə almır, hətta mühasirəyə düşən quldur dəstələrinə sağ qalmaq şansı verir.

Amma təəssüf ki, dünya baş verənlərin fövqündə deyil. Lakin ən təhlükəlisi odur ki, cilovlanmayan, qarşısı alınmayan erməni faşizmi virus kimi yayılmaq gücünə malikdir. Nə qədər ki, dünya birliyi erməni faşizminin mövcudluğunu təsdiq etmir, nə qədər ki, işğalçı ilə işğala məruz qalan dövlətə eyni məzmunlu çağırışlar edilir, erməni faşizminin ayağı bir o qədər çox yer tutacaq.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Həm də... uşaq qatilləri

### Körpəyə vəhşi heyvanlar belə toxunmur




*Əvvəli 1-ci səh.*

Erməni faşistləri öz xislətlərindən əl çəkmirlər. Azərbaycan Ordusu ilə üzbəüz döyüşdə aciz olan bu vandallar, yalançı “qəhrəmanlar” dinc əhalini, qocanı, uşağı hədəfə götürürlər. Bir çox hallarda igidlərimizdən aldıqları zərbənin heyfini də bu yolla çıxırlar. Ən başlıcası isə, körpəyə, azyaşlıya qıymaq onların vəhşi, heyvani xislətindən doğur. Amma, yox! Bəzən meşədəki vəhşi heyvanlar da körpə uşağa toxunmurlar. Sanki uşaq məsumluğu qarşısında öz vəhşiliklərini unudub ona zərər yetirməkdən vaz keçir, uzaqlaşıb gedirlər. Deməli, birgə məhv edilən onlarca uşağı xatırlayaq. Bunu kim edə bilər? İnsanlıqdan bir iynənin ulduzu qədər payı olmayan quduzlaşmış əcaib məxluqlar.

Dünyanı təzəcə dərk etməyə başlayan, səmaya, günəşə boylanıb təzəcə çiçək açan bu fidanlara kim əl qaldıra bilər? Kimin əli onların günahsız qanına boyanar? Cəlladın, qaniçənin. Belə vəhşiliyin müqabilində söz tapmaq, yerə-göyə sığmayan bu günahı, heç bir cinayət məcəlləsində “layiqli” cəzası tapılmayan bu bəd əməli törədənlərə ad vermək çətindir.

Uşaq qatili olmaq erməni faşistlərinin təzə cinayəti deyil. Xəyalən 30 il əvvələ qayıdaq. 1990-cı il martın 23-dən 24-nə keçən gecə namərd qonşularımız Qazax rayonunun sərhədyanı Bağanıs Ayrım kəndinə hücum etdilər. Evləri yandırdılar, qarət etdilər, sakinləri, o cümlədən 70 yaşlı qocanı öldürdülər. Qurbanlardan biri də 39 günlük körpə oldu. Erməni vandalları qundağı ocağa atıb yandırdılar.

Xocalı uşaqlarının qətlinə gələn yol oradan, o vaxtdan başlandı və bitmədi, tükənmədi.

2011-ci il martın 8-də düşmənlər Ağdam rayonunun balaca sakini Fariz Bədəlovu snayper gülləsi ilə öldürdülər. Heç şübhəsiz ki, qaniçən erməni faşistləri bu hadisəni qəsdlə, məhz 8 Mart bayramı günü törətməyi qərara almışdılar... Fariz atasız böyümüşdü, ailənin tək övladı idi. Anası, nənəsi, babası gözlərini ona dikmişdilər.

2017-ci il iyulun 4-də axşamçağı Ermənistan tərəfinin növbəti təxribatı nəticəsində 1 yaş 2 aylıq Zəhra qətlə yetirildi. Balaca qızcığaz 50 yaşlı nənəsi Sahibə Quliyeva ilə birlikdə şəhid oldu.



Erməni cəlladlarının həyatına son qoyduğu uşaqlardan biri də Tovuzun Ağdam kəndinin məktəbli sakini Şahvələd Süleymanovdur. Bu, kəndin sakinlərinə vaxtilə riyakarcasına “dost”, “kirvə” deyən nankor qonşularımızın 1992-ci il iyunun 25-də etdikləri daha bir namərdlik idi.

Şahvələdin gülər üzü, mehriban çöhrəsi gözümüz önündən hələ də getmir. Çox ağıllı, əməksevər uşaq idi. Kənd məktəbini bitirəndən sonra traktorçu olmağı qərara almışdı. Erməni vandalları onu öz həyətində, ot çaldığı zaman nişan almışdılar.

Bu da faşizmin ən “yüksək” nöqtəsinə çatmış qonşularımızın növbəti təxribatı. Bir neçə gün əvvəl daha iki məktəbli övladımızın ömrünü qırdılar, işıqlı gələcəklərinə sədd çəkdilər. İki qardaşın hərəsinin bir balasını məhv etdilər. İki ailəni gözüyaşlı qoydular. Hamımızın qəlbi göynəyir...

Torpağımızı həyasızcasına işğal etdikləri, ellərimizi-obalarımızı yurd-yuvasından perik saldıqları, atəşkəsi pozduqları, saysız-hesabsız təxribatlar törətdikləri azmış kimi, uşaqları qətlə yetirir bu azğınlar, quzğunlar. Cəzalarına çatacaqlar, İnşallah! Dünya ictimaiyyəti də bu amansızlığa göz yummamalı, uşaq qatillərinə öz sözünü deməlidir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Dinc tərtərlilər atəş altındadır

### Azərbaycan əsgərinin qarşısından qaçan erməni qatillərinin gücü silahsız əhaliyə çatır

**Bu gün Tərtər cəbhənin qaynar nöqtələrindəndir. Bölgədə ağır döyüşlər gedir. Ordumuz düşmən mövqelərinə sarsıdıcı zərbələr vurur, qarşı tərəfi canlı qüvvə və hərbi texnika sarıdan ağır itkilərə məruz qoyur. Ermənistan silahlı qüvvələri döyüş meydanında düçar olduqları məğlubiyyətin əvəzini çıxarmaq üçün öz dəyişməz faşist xislətlərinə uyğun olaraq yaşayış məntəqələrini, sosial obyektləri, mülki əhalini hədəfə alırlar.**







Tərtər şəhərinə, cəbhəboyu kəndlərə intensiv artilleriya atəşləri açırlar. Təbii ki, heç bir müharibə qanunlarına sığmayan bu azğınlıq kütləvi dağıntılarla, mülki əhali arasında itkilərlə nəticələnir.

Sentyabrın 29-da səhər saatlarında Tərtərdə olduq. Şəhərdə əhali də, nəqliyyat da seyrək idi. Təbii ki, bu, təhlükəsizlik baxımından görülən tədbir kimi başa düşüləndir. Biz şəhərdə, kəndlərdə real vəziyyətlə tanış olarkən də yaxın ərazilərə artilleriya mərmilərinin düşdüyünü müşahidə etdik.

Rayon icra hakimiyyəti yanında, Fövqəladə hallar komissiyası bu günlər gərgin işləyir. Əhaliyə vurulan zərərin öyrənilməsi, ehtiyacı olanlara kömək edilməsi, zəruri qayğı və diqqət göstərilməsi üçün operativ tədbirlər görülür.

Şəhərin Bəsti Bağırova küçəsində Elxan Rüstəmovun evinə düşən artilleriya mərmisi bir ailənin yuvasını yararsız hala salıb. Elxan Rüstəmov:

- Xoşbəxtlikdən ailə üzvlərimizdən zərər çəkən olmadı. Dəyən ziyana baxmayaraq mənim üçün böyük təsəlli və qürurvericidir ki, ordumuz inamla irəliləyir. Qəhrəman Azərbaycan əsgəri 30 ilə yaxındır ki, erməni işğalında qalan torpaqlarımızın azad edilməsi üçün uğurlu əməliyyatları əzmlə davam etdirir. İnanın, səmimi deyirəm, xəcalətimdən Murov dağına baxa bilmirdim. İndi ordumuzun hünəri ilə o yüksəklikdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Əlbəttə, bu, son deyil. İgid oğullarımız bütöv Qarabağı işğaldan azad edərək sındırılmış qürurumuzu özümüzə qaytaracaqlar. Biz Ali Baş Komandanımızın siyasi iradəsinə, ordumuzun gücünə güvənirik. O ki qaldı evimizin dağılmasına, ona görə üzülmürük. Təki vətənimiz var olsun, bütöv olsun.

Mülki əhalini hədəf alan erməni faşistlərinin insanlıqdan uzaq əməlləri hər kəsdə nifrət və ikrah hissi doğurur. Tərtər şəhərinin qərbində bir neçə il əvvəllər qaçqın və məcburi köçkünlər üçün çoxmərtəbəli binalardan ibarət yeni şəhərcik salınmışdır. Erməni işğalı nəticəsində Qarabağın müxtəlif bölgələrindən didərgin salınmış soydaşlarımız burada müvəqqəti olsa da, - Şıxarx qəsəbəsində rahatlığa qovumuşdular. Ermənistan ordusu məhz bu yaşayış məhəlləsini də hədəf almış, əraziyə bir neçə artilleriya atəşi açmışdır. Nəticədə yaşayış binalarına ciddi ziyan dəymiş, evlər yararsız vəziyyətə düşmüşdür. Təəssüf doğuran odur ki, atılan mərmilərdən biri qəsəbəyə vəziyyətlə tanış olmağa gələn Tərtərin Poladlı kənd sakinləri Xaliq və Elşən Abbasov qardaşlarının həyatına son qoymuşdur. Şıxarx qəsəbəsində məskunlaşmış ağdamlı məcburi köçkün Sabir Əsədov da artilleriya atəşi nəticəsində həlak olmuşdur.

Düşmən cəbhəsindən Tərtər şəhərinə atılan artilleriya mərmilərindən biri də məhkəmənin yaxınlığına düşmüşdür. Bu zaman ərazidən keçən Tərtər şəhər sakini, 1976-cı il təvəllüdlü Əliyev Mehman yaxınlıqda partlayan mərminin qəlpəsindən ağır xəsarət alaraq hadisə yerində həlak olmuşdur. Həmçinin ətrafa yayılan çoxsaylı qəlpələr yoldan keçən təcili yardım maşınının dəlik-deşik etmişdir. Ağır yaralanan sürücü idarəetməni itirdiyindən maşını yol kənarındakı ağaca çırpmış, nəticədə maşındakı digər iki nəfər də xəsarət almışdır.

Öyrənirik ki, döyüşlər başlayandan bəri Tərtər şəhərində və kəndlərdə 50-dən çox ev düşmən atəşi ilə dağılmışdır. Qaynaq, Səhləbad, İlxıçılar kəndlərində daha çox ev zərər çəkmişdir.

Atəş səslərini arxada qoyaraq Tərtərdən ayrılırıq. Yaddaşıma həkk olunan, ürək dağlayan mənzərələr xəyalımdan çəkilmir. Ən böyük təsəlli isə odur ki, şanlı Ordumuz başladığı zəfər yürüşünü tezliklə, həm də tam qələbə ilə başa çatdıracaq, işğal altındakı torpaqlarımız azad ediləcək, varlığımıza uzun illər boyu həsrət qaldığımız bir rahatlıq, məmnunluq hopacaq. Amma bir sual rahatlığımı tamam pozur - belə müharibə aparmaq olarmı? Müharibədə əsgər əsgərlərlə döyüşər, sonda güclü qalib gələr. Bəs erməni silahlılarının hədəf götürdüyü dinc əhalinin, körpə uşaqların, ixtiyar qocaların günahı nədir? Heç şübhəsiz, erməni faşistləri nə zamansa bu suallara cavab vermək zorunda qalacaqlar.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

## Acizlikdən doğan cinayət

**Bu gün Azərbaycan Ordusu Ermənistan tərəfindən 30 ildən çox işğal altında saxlandığı torpaqlarını azad etmək üçün Vətən müharibəsi aparır. Belə ki, sentyabrın 27-də səhər tezdən erməni silahlı birləşmələri bütün cəbhəboyu ərazilərdə yaşayan dinc əhalini atəşə tutdu. Mülki əhali arasında ölən və yaralananlar oldu, mal və mülklərə ziyan dəydi.**

Cavab olaraq Azərbaycan Ordusu əks-hücumla düşməni işğal etdiyi ərazilərdən qovmağa başladı. Məqsəd həm işğal altında olan torpaqları düşməndən azad etmək, həm də onun silahlı qüvvələrinə mülki əhalini atəşə tutmağa imkan verməməkdir. Döyüşlər zamanı ordumuz düşməndən fərqli olaraq müharibənin aparılması ilə bağlı bütün beynəlxalq qaydalara əməl edir.

Dörd gün döyüşlər getsə də, ordumuz özünün imkanlarından az əraziləri işğaldan azad edib. Səbəb ordumuzun döyüş əməliyyatları apararkən son dərəcə həssas olmasıdır. Azərbaycan Ordusu qarşı tərəfdəki dinc əhaliyə ziyan yetirməmək üçün erməni ordusundan daha böyük məsuliyyət göstərir. Belə ki, mənfur düşmən atəş mövqelərini ya yaşayış məntəqələrinin yaxınlığında, ya da birbaşa daxilində yerləşdirir. İstəkləri odur ki, biz cavab atəşimizlə onların mülki əhalisi arasında çoxlu tələfat olsun, beləliklə, dünya ictimaiyyətinin qınağına tuş gələk. Öz millətindən olan dinc əhalinin ölümünə cəhd edən düşməndən biz yaxşı nə gözləyə bilərik?

Qeyd etdiyimiz kimi, ordumuz bu qədər həssas davransa da, ermənilər bütün dünyaya həyasızcasına bizi dinc əhalini atəşə tutub qətl törətməkdə günahlandırırlar. Lakin fakt faktlığında qalır. İndi dünya ictimaiyyətini aldatmaq o qədər də asan deyil. Azərbaycan tərəfinin yaydığı foto və video materiallarından kimin nəyə qadir olduğu aşkar görünür. Hələ ermənilərin Xocalıda, Dağlıq Qarabağda digər sərhədyanı bölgələrdə törətdikləri vəhşiliklər yaddaşlardan silinməyib. Bu hadisənin minlərlə canlı şahidi və zərərçəkənləri var.

Hərbi əməliyyatlar başlanandan informasiya savaşı da start götürüb. Ermənilərin isə rəqiblərinə şər-böhtan atmaqda zəngin təcrübələri var. Bu sahədə onlar heç bir etik qaydalara və təbliğatın normalarına əməl etmirlər. Məlumdur ki, Azərbaycan Ordusu işğal olunmuş ərazilərində döyüş əməliyyatları aparır. Özü də bunu bütün beynəlxalq hüququn normaları çərçivəsində həyata keçirir. Biz işğalçı deyilik və başqa dövlətin ərazisinə girməmişik. Ermənilər bunu yaxşı başa düşürlər. Məsələni başqa tərəfə yozmaq üçün ordumuz tərəfindən dinc əhalinin hədəfə alınması barədə informasiya yaymağa üstünlük verirlər. Bununla döyüş meydanında uğur qazana bilməyən ermənilər informasiya cəbhəsində üstünlük əldə etmək istəyirlər və həmin məqsədlə bütün çirkli təbliğat vasitələrinə əl atırlar.

İndi ermənilər istədikləri yalanları öz məqsədləri üçün istədikləri şəkildə dünya ictimaiyyətinə sırıya bilmirlər. Ona görə ki, Azərbaycan tərəfi dərhal onların atəşi nəticəsində ölən və yaralanan mülki əhali barədə məlumatı dünya ictimaiyyətinə çatdırır. Bununla yanaşı, Baş Prokurorluq bütün faktları qeydə alaraq müvafiq maddələrlə cinayət işi açır. Bizim isə ermənilərdən fərqli olaraq yalan uydurmağımıza ehtiyac yoxdur. Müharibənin ilk günündən Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşləri nəticəsində Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndindəki Qurbanovlar ailəsinin 5 üzvü yaşadığı evdə həlak olub, mülklərinə 100 min manat məbləğində ziyan dəyib. Ailənin həlak olan iki üzvü uşaqdır. Bu fakt onu göstərir ki, ermənilər açdıqları atəş nəticəsində uşaqların da həlak olacağını bilirdi. Məqsədləri əhali arasında vahimə yaratmaqla onları doğma yurdlarından didərgin salmaq idi. Biz birinci Qarabağ savaşında belə vəhşiliklərin çox şahidi olmuşuq. Xocalı qətliamında törədilən vəhşiliklərin isə tayı-bərabəri yoxdur.

Döyüşlərin ikinci günü isə Ağdam rayonunun Evoğlu kənd sakini Coşqun Paşayev, Tərtər şəhər sakini Mehman Əliyev düşmənin artilleriya atəşi nəticəsində şəhid olub. Bununla yanaşı, Tərtər rayonunun digər sakinləri - Qənbər Əsədov, Fəxrəddin Hüseynov və Tural İbrahimov yaralanıblar.

Baş Prokurorluğun verdiyi məlumatda deyilir ki, sentyabrın 28-də Tərtər rayonunun Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində sakinlərdən Xalıq Abbasov, Elşən Abbasov, Sabir Əsədov həlak olub, Seymur Məmmədov, Faiq Mahmudov isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanada yerləşdirilib. Prokurorluğun digər məlumatında qeyd edilir ki, düşmənin açdığı atəş nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd sakini də yaralanıb.

Baş Prokurorluğun sentyabrın 30-da yaydığı məlumatda bildirlir ki, Ermənistan silahlı qüvvələrinin məqsədli şəkildə dinc əhaliyə qarşı törətdiyi terror aktı nəticəsində 14 nəfər mülki şəxs şəhid olub, 46 nəfər yaralanıb. Bundan başqa, düşmənin mülki obyektləri atəşə tutması nəticəsində 65 ev, 5 mülki obyekt yararsız hala düşüb, çoxlu sayda mal-qara tələf olub.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Xalq Orduya və Komandana güvənir, arxalanır



# Haqq yolu ilə

*Əvvəli 1-ci səh.*

Faşist mahiyyətli ermənilərsə yenə öz mənfur xislətlərinə sadiqdirlər. Düşmən mülki əhalini atəşə tutur. Hərbçilərimizdən də, cəbhə ətrafı yaşayış məntəqələrinin dinc sakinlərindən də həlak olanlarımız və yaralananlarımız var.

Allah bütün şəhidlərimizə rəhmət etsin. Düşmənin təxribatlarına qarşı əks-hücum əməliyyatlarını rəşadətlə davam etdirən Azərbaycan Ordusunun ardıcıl zərbələrlə bu qanı yerdə qoymayacağına əminik. Hər birimiz uşaqdan-böyüyə bütün varlığımızla ordumuzun yanındayıq. Əsgər və zabitlərimizə dəstəyik. Onların qələbəsinə bacardığımız töhfəni vermək üçün hər cür fədakarlığa hazırıq.

## Düşmən təxribatlarına layiqli cavab

Şəhidlərimizin itkisi qəlbimizi ağrıtsa da, qazanılan qələbə, öz şəhadətləri ilə əbədiyyət ömrü qazanmış igidlərimizin qanının hədər getməməsi acımızı ovudur. İnsanlarımız arasında böyük bir həmrəylik ruhu var. Özünü bu vətənə bağlı sanan hər kəs Qafqaz regionunda, Azərbaycanın köksündə illərdir ki, qövr edən, hər dəfə yeni-yeni ömürlərə nöqtə qoyan erməni separatizminin birdəfəlik kəsilib atılmasını istəyir.

Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları son dövrlər daha da intensivləşmişdi. İyulda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində düşmənin növbəti artilleriya atəşi nəticəsində hərbçilərimiz və mülki şəxs həlak oldu. Azərbaycan Prezidenti 27 sentyabrda xalqa müraciəti zamanı bununla bağlı dedi: “Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır”.

Təcavüzkar Ermənistanın bu təxribat arxasındakı məkrli məqsədi, ilk növbədə, Azərbaycanı yeni işğalla hədələməyə çalışmaq, yeni ərazilər uğrunda işğal siyasətini davam etdirmək idi. Digər tərəfdən məlumdur ki, Ermənistan hazırda ağır sosial-iqtisadi fəlakətlər məngənəsində çapalayır. Koronavirus pandemiyasının yaratdığı çətinliklər dolanışıq imkanları onsuz da ağır olan işğalçı ölkədə vəziyyəti daha da gərginləşdirib. Ölkədə hakimiyyət uğrunda ciddi mübarizə gedir. Küçə-meydan eyforiyasının köməyi ilə hakimiyyətə yiyələnən baş nazir Nikol Paşinyan artıq xalqın etimadını itirib. Ona görə də bəziləri fikirləşir ki, Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq üçün Azərbaycana qarşı təxribatlara əl atmaq Paşinyan hakimiyyəti üçün bəlkə də son çarədir. Digər tərəfdən, işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi, mövcud status-kvonu qorumaq, münaqişənin ömrünü illərlə indiki vəziyyətində uzatmaq üçün hər vəchlə danışıqlar prosesini pozmağa çalışır və artıq, demək olar ki, buna nail olub. Hazırda danışıqların faktiki olaraq dayanması məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti üzündəndir.

## Səbrimiz sonsuz deyil

Ermənistanın baş naziri bir il bundan əvvəl Azərbaycanın işğal edilmiş torpaqlarında - Xankəndidə “Qarabağ Ermənistandır və nöqtə” dedi və Azərbaycan Prezidentinin “Qarabağ Azərbaycandır və nida” cavabı ilə siyasətdə, diplomatiyada, bəlkə də karyerasının ilk ustad dərsini aldı. Amma təəssüf ki, bu dərsdən nəticə çıxarmadı. Təxribatçı bəyanatlarını, Azərbaycanın Ermənistanla yox, qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalı olması barədə avantürasını davam etdirməyə başladı. Qədim şəhərimiz olan Şuşada bir müddət əvvəl Dağlıq Qarabağda yaradılmış qondarma kriminal xunta rejiminin başçısının “andiçmə” mərasimi keçirildi. Üstəlik, qondarma “Dağlıq Qarabağ respublikası” parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul olundu.

Azərbaycanın işğal edilmiş torpaqlarında qanunsuz məskunlaşma siyasətini Paşinyan rejimi də davam etdirdi. Livan ermənilərindən ibarət bir neçə ailənin bu yaxınlarda Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirilməsi bunun bariz nümunəsi, Ermənistan rəhbərliyinin Cenevrə Konvensiyasına zidd olaraq törətdiyi hərbi cinayətdir. Paşinyan hakimiyyətinin belə bir cinayətlə məşğul olub sələflərindən qalmış qanunsuz məskunlaşdırma siyasətini davam etdirməsinin bəlli səbəbləri var. Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır. İşğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmək üçün bu ölkə lazımi sayda əhali resurslarına sahib deyil. Ona görə xaricdə yaşayan erməniləri bu ərazilərə köçürməklə möhkəmlənməyi düşünür. Ermənistan rəhbərliyi işğalçı rejimin illərdir apardığı vandalizm hərəkətlərindən əl çəkmir. İşğal altındakı rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların əsrlərdir burada yaratdıqları tarixi-mənəvi irsin silinməsinə ardıcıl cəhdlər edilir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri yerlə-yeksan olunur, təhqir edilir. Ermənistan bizim məscidlərimizdə inək, donuz saxlamaqla bütün müsəlman aləminə həqarət göstərir. Hətta Ermənistan rəhbərliyinin faşist mahiyyəti, vandallığı, vəhşiliyi məzarlarında uyuyan əcdadlarımızın qəbirlərinin traktorla dağıdılmasına qədər gedib çıxır. Çünki bu məzarlar xalqımızın min illərlə bu torpaqlardakı mövcudluğunun, yaratdığı mədəniyyətin kitabələrin dili ilə danışan şahidləridir. Ermənilər hətta dilsiz-ağızsız məzar daşlarına da dözə bilmirlər.

Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı isə işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər, ardınca isə ölkəmizdə terror aktları törətmək üçün diversiya qrupunun göndərilməsi oldu. Bütün bunlar bir daha göstərir ki, Ermənistan və bu ölkənin rəhbərliyinin apardığı çirkin siyasət hazırda regionda əsas təhlükə mənbəyidir.

Amma Ermənistan bütün bu təxribatlara əl atarkən unudurdu ki, Azərbaycanın səbri sonsuz deyil. Bu möhlətin ömrü bir gün bitə bilər.

## Azərbaycanla hədə-qorxu dili ilə danışan peşman olacaq

Azərbaycan Prezidenti xalqa müraciətində bu məqamı xüsusi vurğuladı: “İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır”.

Bu, xalqımızın haqq davasıdır və Azərbaycan Ordusunun səngərdə apardığı bu davanı Azərbaycan Prezidenti İlham Əliyev eyni fədakarlıqla həm də diplomatik səngərlərdə uğurla davam etdirir. Ölkəmizin haqlı mövqeyini dünyaya çatdırır, apardığı danışıqlarla kimin düz, kimin səhv olduğunu göstərir, beynəlxalq aləmin dəstəyini alır.

Münaqişə ilə bağlı Azərbaycanın xeyrinə 4 qətnamə qəbul etmiş BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti öz müvafiq qərar və qətnamələri ilə bizim mövqeyimizi dəstəkləyir. Prezident İlham Əliyev bütün beynəlxalq tribunalardan Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmağın məsələyə hansı tərəfdən baxırsan-bax nə qədər reallıqdan uzaq bir iddia olduğunu hər kəsə anladır. Buna heç zaman imkan verilməyəcəyini qətiyyətlə bəyan edir.

Sentyabrın 28-də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Prezidenti arasında videokonfrans formatında keçirilən görüşdə də Prezident İlham Əliyev ölkəmizin haqlı mövqeyini BMT rəhbərliyinin diqqətinə çatdırdı. Ermənistanın Azərbaycana qarşı törətdiyi ardıcıl təxribatlarla işğalçı ölkənin regionda sülh, sabitlik, inkişaf əleyhinə yönəlmiş mənfur niyyətlərini göstərdi. Yada salaq ki, Prezident İlham Əliyev Ermənistanın yeni müharibəyə hazırlaşmasını BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarındakı çıxışı zamanı da qeyd etmişdi.

BMT-nin Baş katibi ilə müzakirələrində də Prezident İlham Əliyev bir daha qətiyyətlə vurğuladı ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

Azərbaycanı, dövlətimizin rəhbərliyini bu məsələdə güclü, qətiyyətli edən haqq mövqeyində olmağımızdır. Ermənistandan fərqli olaraq Azərbaycan kiməsə qarşı hər hansı təxribata əl atmır, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Tarixi ədalət də, beynəlxalq hüquq normaları da məhz bizim tərəfimizdədir.

Zəfərin mübarək, Azərbaycan əsgəri! Ali Baş Komandanımızın da bəyan etdiyi kimi, “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Diplomatiya məharətinin zirvəsi

## Prezident İlham Əliyev Paşinyanın yalanlarını da, özünü də ifşa etdi

*Əvvəli 1-ci səh.*

Prezident bununla bağlı faktları söylədi: “Ermənilərin sentyabrın 27-də başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var”.

Əlbəttə ki, bu vəziyyətdə heç bir dövlət seyrçi mövqe nümayiş etdirə bilməzdi. Odur ki, Azərbaycan da təcavüzkara adekvat cavab vermək, xalqını və torpağını müdafiə etmək məcburiyyətində qaldığı üçün işğalçının hücumlarını dəf edib, Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlamasına qərar verdi. Artıq bir sıra yaşayış məntəqələri işğaldan azad edilib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklər tutulub. Hazırda fəal döyüş əməliyyatları aparılır.

### İlham Əliyev Türkiyənin maraqlarını qorudu və qardaş ölkəni müdafiə etdi

Maraqlıdır ki, bundan sonra rusiyalı jurnalistlərin suallarının əsas hissəsi Türkiyə ilə bağlı oldu: Türkiyənin hərbi əməliyyatlarda rolu, Ermənistan hərbi təyyarəsinin Türkiyə tərəfindən vurulması və Suriyadan gətirilən muzdluların Azərbaycan tərəfdən savaşması...

Yalnız bir sual danışıqların yenidən bərpa olunması ehtimalı barədə idi.

Prezident isə Türkiyə ilə bağlı suallara dəqiq və səlis cavab verərək jurnalistlərin diqqətinə çatdırdı ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır və dost, qardaş ölkə olaraq Azərbaycanı hər zaman dəstəkləyib.

Ermənistanın beynəlxalq hüququ kobud şəkildə pozaraq Azərbaycan ərazilərini hələ də işğalda saxladığını xatırladan dövlətimizin başçısı Türkiyənin Azərbaycana mənəvi dəstək verdiyini, Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələrin təxribat xarakteri daşıdığını, “feyk-nyus” olduğunu vurğuladı. İlham Əliyev bildirdi ki, Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut mövcud deyil və buna zərurət də yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

Həmçinin Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələrinin döyüş əməliyyatlarında iştirakı ilə bağlı erməni tərəfinin iddialarını puça çıxaran Prezident xatırlatdı ki, bugünkü müasir texnologiyalar dövründə, peyk müşahidələri imkanları olduğu halda bu cür faktları gizlətmək mümkün deyil: “Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur”.

Erməni yalanını növbəti dəfə puç edən cənab İlham Əliyev Rusiyanın aparıcı mediasında Türkiyənin də maraqlarını qorudu və qardaş ölkəni müdafiə etdi.

Eyni şəkildə suriyalı muzdlularla bağlı sualı cavablandıran dövlət başçısı Azərbaycanın əhali potensialının yüksək olduğunu, 10 milyonluq ölkənin xaricdən muzdlu gətirməyə ehtiyacının olmadığını vurğuladı.

Bu gün Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanlar orduya çağırılır: “Bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin”.

### Prezident Ermənistanın növbəti təxribatını tutarlı faktlarla ifşa etdi

Jurnalistin “bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub” sualını cavablandırarkən cənab İlham Əliyev əsl həqiqəti söylədi: “Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır”.

Prezident bir daha Ermənistanın iyul ayında Tovuz istiqamətində həyata keçirdiyi hərbi təxribatlarını xatırlatdı və bildirdi ki, bu gün baş verənlər eyni ssenarinin davamıdır.

Çünki bu təxribatdan sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və Şuşa şəhərində məskunlaşdırılmasını elan etdi. Sonra isə Şuşada - Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin “başçısının” qondarma inauqurasiyası keçirildi.

Təbii ki, bütün bunlar müharibə cinayətidir. Bu, açıq-aşkar Cenevrə Konvensiyasının pozulması deməkdir. Bütün bunlar əlbəttə, Azərbaycana qarşı şüurlu təxribatlar, ölkəmizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etmək idi. Lakib buna baxmayaraq, Azərbaycan tərəfi yenə də təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdi, lakin onların niyyətləri baş tutmayanda bu cür çirkin oyunlara cəhd göstərdilər.

Cənab İlham Əliyev təxribatların digər səbəbinin isə Ermənistanda mövcud olan daxili siyasi böhrandan qaynaqlandığını dedi: “Axı, bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutub. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində, ölkə böhran içindədir”.

Yəni, Paşinyana bir xarici amil, necə deyərlər qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın. Köhnə xələflərinin yolunu gedən baş nazir də Azərbaycan xalqına qarşı təcavüz etməyə çalışır.

### Paşinyanın uydurma fikirləri sülh danışıqlarına xitam verib

Prezident Paşinyanın bəzi uydurmalarına da toxunaraq bildirdi ki, Ermənistanın baş naziri Azərbaycanı təxribata çəkmək üçün əl atmadığı yol qalmayıb. Onun “Qarabağ Ermənistandır və nöqtə” ifadəsi faktiki olaraq sülh prosesinin dayandığını göstərən reallıqdır. Belə olan halda hansısa danışıqlar prosesindən söhbət gedə bilməz. Axı, ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, Azərbaycanın danışıqları yalnız Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalı olduğunu söyləyir. Beləliklə də danışıqların 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır: “Demək, təcavüzkar bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük”.

### Dəfələrlə rəzil duruma düşən Paşinyan “ənənəsini” pozmadı

Daha sonra çıxış edən Ermənistan baş naziri isə bir neçə dəqiqə əvvəl Azərbaycan Prezidentinin yalan olduğunu isbat etdiyi “feyk-nyus”ları yenidən təkrarlamağa başladı. Paşinyan yenidən Azərbaycanın Qarabağda dinc əhalini atəşə tutduğunu, Türkiyəli yüksək rütbəli hərbçilərin əməliyyatda iştirakı, eyni zamanda, suriyalı muzdlulara bağlı ənənəvi yalanlarını təkrarladı. Baş nazir növbəti dəfə absurd iddialarını bildirərək Ermənistan təyyarəsinin Türkiyə ordusu tərəfindən vurulduğunu, hətta Qarabağda “türk ordusunun” birləşməsi olduğunu iddia etdi.

Beynəlxalq ictimaiyyət qarşısında çıxış edərkən indiyədək dəfələrlə rəzil duruma düşən N.Paşinyan bu dəfə də ənənəsini pozmadı. Verilişin aparıcılarının sualları qarşısında aciz qalan Ermənistanın baş naziri yenə də çıxışında heç bir fakta əsaslanmayan yalan və uydurmalar söylədi.

Prezident İlham Əliyevin məntiqli, tutarlı, peşəkar, arqumentli və səlis cavabları ekspertlər tərəfindən yüksək qiymətləndirildi və diplomatiya məharətinin zirvəsi kimi səciyyələndirildi. Bunun fonunda Nikol Paşinyanın sönük, faktoloji bazadan məhrum olan, dolaşıq və təkrarlanan fikirləri onun həm siyasi cəhətdən zəif olduğunu, həm də müdafiə etdiyi mövqeyin heç bir tənqidə dözmədiyini aydın göstərdi.

Müzakirələrdə iştirak edən “Natsionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko da reallığı söylədi. Jurnalist dedi ki, İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün, ardıcıl çıxış etdi. Bu, MDBMİ məktəbidir. MDBMİ doğrudan da böyük kadrlar yetişdirir.

Deyilənlərin mahiyyətinə gəlincə isə Korotçenko vurğuladı ki, Azərbaycan Prezidenti haqlıdır və tamamilə ədalətli mövqe nümayiş etdirir: “Cənab İlham Əliyev haqlı olaraq dedi ki, peyk, elektron, kəşfiyyat texnologiyalarının müasir inkişaf səviyyəsini nəzərə alsaq, Azərbaycan ərazisinə doğrudan da türk qırıcıları göndərilsəydi, bu faktı gizlətmək mümkün deyildi. Bunu peyk kəşfiyyatı olan istənilən ölkə aşkar edə bilər. Bu gün isə Dağlıq Qarabağ bölgəsi dünyanın bütün aparıcı ölkələrinin sıx müşahidəsi altındadır. Həmkarlarımın diqqətini bir məqama çəkmək istərdim. Biz hamımız beynəlxalq hüququn tərəfdarıyıq. Beynəlxalq hüquq nöqteyi-nəzərindən, döyüş əməliyyatları Azərbaycanın ərazisində, Azərbaycan hərbi qüvvələri və erməni hərbi birləşmələri arasında aparılır”.

Göründüyü kimi, Paşinyanın növbəti yalanları Rusiyanın aparıcı telekanalında da ifşa edildi. Ermənistanın uydurmaları təsdiqini tapmadı. Paşinyan növbəti dəfə İlham Əliyev diplomatiyası qarşısında aciz qaldı. Onun düşdüyü vəziyyət və ordusunun bu gün savaş meydanındakı acınacaqlı durumu Ermənistanın biabırçı aqibətini göstərdi.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycanda bir sıra tanınmış özəl şirkətlər Silahlı Qüvvələrə Yardım Fonduna ianə etməklə bağlı müraciət yayıblar

**Azərbaycanda bir sıra tanınmış özəl şirkətlər Silahlı Qüvvələrə Yardım Fonduna ianə etməklə bağlı müraciət yayıblar. YAP-dan AZƏRTAC-a bildirilib ki, müraciətdə deyilir: “Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatının qarşısının qüdrətli Azərbaycan Ordusu tərəfindən alınması, düşmənə layiqli cavab verilməsi və işğal altında olan bəzi ərazilərimizin azad edilməsi xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.**

Azərbaycan xalqı öz dövlətinə, Prezidentinə, Silahlı Qüvvələrin Ali Baş Komandanına və Ordusuna qətiyyətli dəstək verir, cəmiyyətimizdə milli həmrəylik hökm sürür. Eyni zamanda müxtəlif təşkilatlar və qurumlar Silahlı Qüvvələrə Yardım Fonduna ianə etməklə qüdrətli Ordumuza öz dəstəklərini nümayiş etdirirlər”.

Qeyd edək ki, müraciəti imzalayan kampaniyalar arasında “Gidromaşservis” QSC, “Kristal Abşeron” MMC, “AzVirt” MMC, “Bakı İnşaat Sənaye” ASC, “Akkord” şirkətlər qrupu, “SNT” İnşaat Şirkəti, “AKA Group” MMC, “Tunel-Metro İnşaat” MMC, “Real İnşaat” Tikinti Şirkəti və “AzərTunel” MMC də var.

Müraciətin müəllifləri torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda qətiyyətli mübarizə aparan müzəffər Ordumuza cəmiyyət dəstəyinin zəruri olduğu bir vaxtda bütün özəl şirkətləri və hər bir iş adamını həmrəylik göstərərək Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna imkan qədər ianə ayırmağa çağırır. Müraciətdə, həmçinin bildirilir: “Çünki bu, ümummilli məsələdir və belə dəstək böyük qələbələrin əldə edilməsinə kiçik də olsa, vacib töhfədir. Biz tarixi anlar yaşadığımız bu günlərdə maddi və mənəvi cəhətdən Azərbaycan Silahlı Qüvvələrinin yanında olduğumuzu qürur hissi ilə bildiririk. Əminliklə bəyan edirik ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımız tezliklə işğaldan azad olunacaq. Yaşasın Azərbaycan Əsgəri!”

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə COVID-19 test analizlərinin aparılması xidmətinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;

-tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**

**Təşkilat - “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 oktyabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **02 noyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **03 noyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələri və xüsusi texnikalar üçün əyləc qəliblərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;

-tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**

**Təşkilat - “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 oktyabr 2020-ci il saat 18:00-a,** tender təklifi və bank təminatını isə **02 noyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **03 noyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## “Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2020-ci il üçün

### *kotirovka sorğusu elan edir*

Camaşırxana avadanlıqlarının ehtiyat hissələrinin alınması və təmiri.
Kotirovka sorğusunun başlama tarixi: 01.10.2020-ci il.
Kotirovka sorğusu üzrə müraciətlər 08.10.2020-ci il saat 11:00-dək qəbul edilir.
Zərflərin açılışı 08.10.2020-ci il saat 14:00-da olacaqdır.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12.**
**Telefon: +99455 500-45-99 ; +99455 204-15-20.**

***Tender komissiyası***

## “Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası” Publik Hüquqi Şəxsi 2020-ci il üçün

### *təkliflər sorğusu elan edir*

Camaşıryuma maşınlarının satın alınması.
Təkliflər sorğusu başlanma tarixi: 01.10.2020-ci il.
Təkliflər sorğusu üzrə tələb edilən sənədlər 12.10.2020-ci il saat 16:00-dək qəbul edilir.
Təkliflərin təqdilm edilməsi 13.10.2020-ci il saat 12:00-dək qəbul edilir.
Zərflərin açılışı 13.10.2020-ci il saat 14:00-da olacaqdır.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12.**
**Telefon: +99455 500-45-99 ; +99455 204-15-20.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərenerji” ASC tərəfindən 08 avqust 2020-ci il tarixdə elan edilmiş **İllik sərfiyyat mallarının satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **“MİX PRO” MMC** tenderin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilat ilə ƏDV daxil **502 492,97 (beş yüz iki min dörd yüz doxsan iki manat 97 qəpik) AZN** məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 07.08.2020-ci il tarixdə GPON (Giqabit imkanlı passiv optik şəbəkə) texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədi ilə iş və xidmətlərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “AZİNVEST İNŞAAT” QSC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “AZİNVEST İNŞAAT” QSC arasında 22.09.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

### Kərpiclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2020-ci il oktyabrın 9-u saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152,”Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs

### məlumat bazası proqram təminatları lisenziyalarının və dəstək xidmətlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1. Məlumat bazası proqram təminatları lisenziyalarının və dəstək xidmətlərinin satın alınması**

İştirak haqqının ödənilməsi yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş et” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak edə bilərsiniz.

**İştirak haqqı - 500.00 (beş yüz) manat;**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*4) İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*6) Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*7) Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumat;*
*8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;*
*10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;*
*11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*13) İddiaçı tərəfindən ən azı 1 (bir) il ərzində müvafiq sahədə analoji mallar (iş və xidmətlər) üzrə peşəkarlığı və təcrübəsi (bağladığı müqavilələr haqqında məlumat);*
*14) Dövlət qurumlarına satış imkanı verən “Public Sector Addedum” (PSA) əlavəsi;*
*15) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olumalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **23.10.2020-ci il saat 15:00** tarixinə, tender təklifi və tender təklifinin bank təminatını isə **02.11.2020-ci il saat 15:00** tarixinə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçının təklifləri **03.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər. İddiaçı tender ilə bağlı sualları Portal vasitəsi ilə satınalan təşkilata ünvanlaya bilər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıkarı lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsi ilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Beynəlxalq aləm

## Amerikalılar Baydeni prezident debatlarının qalibi hesab ediblər

ABŞ-ın CNN və CBS telekanallarının izləyiciləri əmindirlər ki, 2020-ci il ilk seçkiqabağı debatlar prezidentliyə namizəd, demokrat Co Baydenin açıq üstünlüyü ilə başa çatıb.

Blits-sorğuların nəticələrinə görə, Bayden CNN-ə baxan amerikalıların 60 faizi və CBS tamaşaçılarının 48 faizi Baydeni şifahi döyüşün qalibi sayıb.

Digər namizəd, respublikaçı Trampın müvəffəqiyyətini iki televiziya platformasının tamaşaçılarının müvafiq olaraq 28 faizi və 41faizi qeyd edib. Bununla yanaşı, KİV xatırladır ki, Hillari Klintonun 2016-cı il debatlarında aşkar üstünlüyü onun seçicilərin səsləri uğrunda real döyüşdə qələbə qazanmasına kömək etməyib.

Co Baydenin seçkiqabağı qərargahı onların namizədinin hazırkı Prezident Donald Trampın “burnunu ovduğuna” əmindir. Qərargahın mətbuat üçün məlumatında deyilir ki, “Bayden Trampın nəzarətdən çıxmağa imkan verdiyi COVID böhranından ölkəni necə çıxarmaq planlarını açıqlamaq fürsətindən istifadə etdi. Bayden Amerika xalqı ilə gecələr yatmağa imkan verməyən problemlər barədə birbaşa danışdı”. Bayden debatlar zamanı Trampı ABŞ tarixində ən pis Prezident adlandırıb. Ağ Evin hazırkı sahibi isə bildirib ki, 47 ay ərzində ali vəzifədə 47 ildə dövlət xidmətində Baydenin etdiyindən daha çox iş görüb.

Xatırladaq ki, ABŞ-da 2020-ci il seçkilərindən əvvəl ilk prezident debatları Klivlenddə (Ohayo ştatı) keçirilib və 96 dəqiqə davam edib. Söz döyüşü 100 milyon amerikalı tərəfindən izlənilib. Prezident seçkiləri noyabrın 3-nə planlaşdırılıb.

## Belçikanın Baş Naziri Aleksandr de Kroo olacaq

Təxminən iki il (652 gün) davam etmiş hökumət böhranından sonra Belçikanın siyasi partiyaları Nazirlər Kabinetinin formalaşdırılmasını razılaşdırıblar. Hökumətə flamand liberalı Aleksandr de Kroo başçılıq edəcək. Bu barədə TASS Agentliyi xəbər verir.

Hökumət koalisiyasına 7 əsas siyasi partiya daxil olacaq. Özü də ötən ilin mayında keçirilmiş parlament seçkilərində qalib gəlmiş iki flamand radikal partiyası - “Yeni Flamand Alyansı” və “Vlaams belang” koalisiyaya buraxılmayıb.

Məlumata görə, yeni Nazirlər Kabineti oktyabrın 1-də and içəcək.

## “Disney” koronavirusa görə 28 min işçisini ixtisara salır

ABŞ-ın məşhur “Disney” şirkəti koronavirus pandemiyası səbəbindən təxminən 28 min işçisini ixtisara salır. Bu barədə “Röyter” Agentliyi xəbər verir.

Məlumata görə, ilk növbədə, ABŞ-da virusun yayılması təhlükəsi üzündən uzun müddət bağlanmış tematik parkların personalı azaldılacaq. Sonradan həmin parkları açmağa başladılar, lakin yeni sanitariya tələblərinə uyğun olaraq ziyarətçilərin sayı məhdudlaşdırılmışdır.

Parklar bölməsinin sədri Coş D'Amaro qeyd edib ki, şirkətin rəhbərliyi xərclərin azaldılması, layihələrin dayandırılması və əməliyyatların optimallaşdırılması hesabına ixtisarların qarşısını almağa cəhd göstərib, amma bu tədbirlər kömək etməyib.

Öz növbəsində, “Bloomberg” telekanalı qeyd edir ki, ixtisarlar həm parkların, həm də səyahət laynerlərinin, pərakəndə satış müəssisələrinin işçiləri və rəhbərliyin üzvlərinə şamil olunacaq. Pandemiya başlamazdan əvvəl “Disney” tematik parklarında 100 mindən çox işçi çalışırdı.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7640
Sifariş 2291
Qiyməti 40 qəpik